Xalqın qəzeti!

# Xalq qəzeti

№ 34 (31003) 21 fevral 2026-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Planetin xilas edilməsi uğrunda əzəmətli seçim

## *Sülh Şurası bəşəri əmin-amanlıq qərargahına çevrilir*




**Dövrümüzün beynəlxalq mənzərəsinə dərindən nəzər saldıqda qlobal siyasət səhnəsində inqilabi əhəmiyyətli transformasiyaların baş verdiyi görünür. Siyasi nizam köklü keçid mərhələsindədir, həmçinin mövcud qlobal idarəetmə mexanizmləri yeni reallıqlara adekvat cavab verməkdə çətinlik çəkir. Ənənəvi diplomatik təşkilatlar, böyük təsisatlar dünyanın mütəmadi şəkildə üzləşdiyi təhlükəsizlik problemlərini, o cümlədən kəskin humanitar böhranları həll etməkdə artıq çarəsizdir.**

Qəti qərarların verilməsini davamlı olaraq ləngidən bürokratik əngəllər bəşəriyyətin taleyinə bilavasitə təsir göstərən faciəvi qanlı münaqişələr qarşısında köhnə qurumların mütləq fəaliyyətsizliyini aşkara çıxarır. Məlum çatışmazlıqlar planetimizdə onilliklərdir sengiməyən ağır müharibə ocaqlarında, genişmiqyaslı silahlı toqquşmalar zamanı qlobal sülhün qorunub saxlanılmasında açıq formada təzahür edir.

*(ardı 4-cü səhifədə)*

# Bakının sülh örnəyi: yeni postmünaqişə təcrübəsi

## *Yaxud İlham Əliyev liderliyi və Sülh Şurasında təmsilçilik məqsədləri*

**Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp tərəfindən Sülh Şurasının fevralın 19-da Vaşinqtonda keçirilmiş ilk iclasına dəvət olunması Azərbaycanın beynəlxalq miqyasda barış təşəbbüslərinə qoşulmaq əzminə verilən dəyərin növbəti parlaq göstəricisidir. Nəzərə alaq ki, sülh təşəbbüslərində iştirakçılığın əməli iş təzahürü olmalıdır. Bu mənada ölkəmiz nümunədir, çünki barış yaradıb. Belə nümunəvilik ayrıca yüksək statusdur.**

Bəli, barış naminə fəaliyyətin əməli iş trayektoriyası Azərbaycanın Sülh Şurasında iştirakçılığına mənəvi haqq qazandırır. Mənəvi haqqı doğuran amillərə gəlincə, bildirməliyik ki, ölkəmiz beynəlxalq müstəvidə fəal siyasət yürüdür, xüsusi inkişaf modeli irəli sürür, strateji sabitliyini qoruyur və çoxtərəfli diplomatiyaya töhfələr verir. Mövcud fəaliyyət dəst-xəttinin nəticəsidir ki, Azərbaycan qarşı duran qütblər arasında öz vasitəçilik missiyasını təklif edir və bu missiya müsbət qiymətləndirilir.

*(ardı 5-ci səhifədə)*




# Azərbaycan əhalisinin sayı 10 milyon 262 mini keçib

**Ötən il ölkə əhalisinin sayı 37 min 462 nəfər və ya 0,4 faiz artaraq, 2026-cı il yanvar ayının 1-i vəziyyətinə 10 milyon 262 min 351 nəfərə çatıb.**

Dövlət Statistika Komitəsi bildirir ki, əhalinin ümumi sayının 54,3 faizini şəhər, 45,7 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına görə, Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, işğaldan azad edilmiş ərazilərin bərpa olunmuş yaşayış məntəqələrinə bu il fevralın 1-dək 27 min 123 nəfər keçmiş məcburi köçkün qayıdıb. Bununla da işğaldan azad edilmiş ərazilərdə yaşayan, fəaliyyət göstərən və təhsil alan şəxslərin ümumi sayı 74 min 750 nəfər təşkil edib.

Bu ilin əvvəlinə olan məlumata əsasən, əhalinin 4,6 faizi Naxçıvan Muxtar Respublikasında, 23 faizi Bakı şəhərində, 9,2 faizi Lənkəran-Astara, 8,6 faizi Abşeron-Xızı, 7,3 faizi Qarabağ, 7,1 faizi Mərkəzi Aran, 6,6 faizi Qazax-Tovuz, 6,1 faizi Şəki-Zaqatala, 5,8 faizi Gəncə-Daşkəsən, 5,4 faizi Quba-Xaçmaz, 5,2 faizi Mil-Muğan, 4,9 faizi Şirvan-Salyan, 3,2 faizi Dağlıq Şirvan, 3 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşayır.

Ölkə üzrə bir kvadratkilometrə düşən əhalinin sayı 119 nəfərə bərabərdir.



# Səngəçal terminalının enerji sistemi yenidən qurulur

Səhifə ⇨ 7



# Dünənə və sabaha yaraşmayan hikkə

Səhifə ⇨ 5

# Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri fevralın 19-da başa çatıb.

***AZƏRTAC***

# Sloveniya Respublikasının Prezidenti Zati-aliləri xanım Nataşa Pirts Musara

**Hörmətli xanım Prezident!**

Azərbaycan Respublikası ilə Sloveniya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edir, ən xoş arzularımı çatdırıram.

Ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq və əməkdaşlıq münasibətləri bizim üçün əhəmiyyətlidir. Sevindirici haldır ki, ötən otuz illik dövr ərzində ikitərəfli əlaqələrimiz möhkəmlənmiş, müxtəlif sahələrdə qarşılıqlı maraq doğuran əməkdaşlığımız davamlı inkişaf etmişdir.

İnanıram ki, xalqlarımızın rifahı naminə mövcud imkanlardan yararlanaraq Azərbaycan-Sloveniya dostluq və tərəfdaşlıq münasibətlərinin həm ikitərəfli əsasda, həm də Avropa İttifaqı çərçivəsində inkişafı və genişlənməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Sloveniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 fevral 2026-cı il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Sloveniya Respublikası ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar səmimi təbriklərimi, Azərbaycan xalqına davamlı uğurlar, xoşbəxtlik və rifah arzularımı qəbul etməyinizi xahiş edirəm.

Son üç onillikdə Sloveniya və Azərbaycan arasında həm ikitərəfli, həm də çoxtərəfli formatlarda qarşılıqlı hörmətə, etimada və əməkdaşlıqla bağlı ortaq öhdəliyə əsaslanan dostluq münasibətlərinin və konstruktiv əlaqələrin inkişaf etdiyini bildirməkdən böyük məmnunluq duyuram. Əminəm ki, ölkələrimizin əlaqələri qarşılıqlı maraq doğuran sahələrdə, xüsusilə də iqtisadiyyat, enerji təhlükəsizliyi, yeni texnologiyaların inkişafı istiqamətlərində uğurla dərinləşəcək və genişlənəcək, xalqlarımız arasında dostluq münasibətləri möhkəmlənəcəkdir.

Beynəlxalq sülhü və təhlükəsizliyi təşviq etmək, davamlı inkişafı dəstəkləmək və iqlim dəyişikliyi ilə mübarizə aparmaq istiqamətlərində birgə səylərimiz qlobal problemlərin kollektiv fəaliyyətlə həllinə sadiq olduğumuzu nümayiş etdirir. Biz qarşılıqlı anlaşmanın, sabitliyin və sülhün təşviqi üçün beynəlxalq təşkilatlar çərçivəsində birlikdə işləməyə davam edəcəyik.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Nataşa Pirts MUSAR,***
***Sloveniya Respublikasının Prezidenti***

# Azərbaycan erməni vandalizminin yaralarını öz gücü ilə sağaldır

*Ötən il azad edilmiş ərazilərin bərpasına 4,9 milyard manat sərf edilib*



**30 ilə yaxın düşmən tapdağı altında qalan, xarabalığa çevrilən Qarabağ və Şərqi Zəngəzur bu gün küllərindən doğmuş bir iqtisadi region kimi formalaşır. Müasir dövrdə postmünaqişə məkanında ən iri dövlət investisiya proqramlarından biri məhz bu ərazilərdə həyata keçirilir. 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra azad olunmuş ərazilərdə infrastrukturun bərpası və əhalinin qayıdışı istiqamətində kompleks tədbirlər görülür. Nəticədə, bu proses əhəmiyyətli maliyyə resurslarının səfərbər olunmasını tələb edir.**

*(ardı 8-ci səhifədə)*

# Bir sıra dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, bir sıra dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

**1** Aşağıdakı büdcə təşkilatları yaradılsın:

1.1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi" və "Geoloji Kəşfiyyat Agentliyi" publik hüquqi şəxslərin, habelə Dövlət Geoloji İnformasiya Fondunun əsasında Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi";

1.2. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Geodeziya və Kartoqrafiya Agentliyi" publik hüquqi şəxsin əsasında Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Geodeziya və Kartoqrafiya Agentliyi";

1.3. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar İnnovasiya Mərkəzinin və "Aqrar Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxsin əsasında Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi";

1.4. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutu" və "Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxslərin əsasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Su və Meliorasiya üzrə Layihələndirmə və Elmi Tədqiqat İnstitutu".

**2.** Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tabeliyində olan Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun, Əkinçilik Elmi-Tədqiqat İnstitutunun, Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun, Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun, Baytarlıq Elmi-Tədqiqat İnstitutunun, Heyvandarlıq və Balıqçılıq Elmi-Tədqiqat İnstitutunun, "Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu" publik hüquqi şəxsin, habelə Azərbaycan Dövlət Aqrar Universitetinin tabeliyində Aqromexanika Elmi-Tədqiqat İnstitutunun əsasında Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində büdcə təşkilatı qismində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin "Bitkiçilik Elmləri İnstitutu"nun və "Heyvandarlıq, Balıqçılıq və Baytarlıq Elmləri İnstitutu"nun yaradılmasını təmin etsin.

**3** Müəyyən edilsin ki:

3.1. bu Fərmanın 1-ci və 2-ci hissələrində nəzərdə tutulan qurumların hüquq və öhdəlikləri, habelə əmlakı onların əsasında yaradılan büdcə təşkilatlarına keçir;

3.2. bu Fərmanın 4.2-ci və 4.3-cü bəndlərində göstərilən məhdud məsuliyyətli cəmiyyətlərin nizamnamə kapitalı həmin bəndlərdə nəzərdə tutulan publik hüquqi şəxslərin əmlakı hesabına formalaşır;

3.3. bu Fərmanın 1-ci və 2-ci hissələrinə əsasən yaradılan büdcə təşkilatlarının əsasnamələri (nizamnamələri), strukturu və əməyin ödənilməsi sistemi müəyyən edilənədək həmin hissələrdə nəzərdə tutulan qurumlar fəaliyyətini davam etdirir;

3.4. bu Fərmanın 4.2-ci, 4.3-cü və 5.1-ci bəndlərində qeyd olunan qurumlar "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək həmin bəndlərdə nəzərdə tutulan publik hüquqi şəxslər fəaliyyətini davam etdirir.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

4.1. bu Fərmanın 1-ci, 2-ci və 5-ci hissələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Mərkəzi Nəbatat Bağı" və "Dendrologiya Bağı" publik hüquqi şəxslərin Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Mərkəzi Nəbatat və Dendrologiya Bağı" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmə yolu ilə yenidən təşkilini təmin etsin;

4.3. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Sahibsiz Heyvanlara Qayğı Mərkəzi" publik hüquqi şəxsin Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Sahibsiz Heyvanlara Qayğı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmə yolu ilə yenidən təşkilini təmin etsin;

4.4. bu Fərmanın 1-ci və 2-ci hissələrində, 4.2-ci və 4.3-cü bəndlərində nəzərdə tutulan qurumların balansında olan əmlakın həmin qurumların əsasında yaradılan yeni qurumların balansına verilməsi və onların maddi-texniki təminatı ilə bağlı tədbirlər görülməsini təmin etsin;

4.5. bu Fərmanın 1-ci və 2-ci hissələrinə əsasən yaradılan büdcə təşkilatlarının strukturunun, işçilərinin say həddinin, əməkhaqlarının (vəzifə maaşları, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər) məbləğlərinin və əməyin ödənilməsi sisteminin müəyyən edilməsi ilə bağlı tədbirlər görsün;

4.6. bu Fərmanın 4.2-ci və 4.3-cü bəndlərində nəzərdə tutulan qurumların nizamnamələrinin təsdiq edilməsini təmin etsin;

4.7. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5** Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi:

5.1. tabeliyində olan "Azərbaycan Metrologiya İnstitutu", "Azərbaycan Standartlaşdırma İnstitutu" və "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxslərin birləşmə yolu ilə yenidən təşkilini təmin etsin;

5.2. bu Fərmanın 5.1-ci bəndində nəzərdə tutulan publik hüquqi şəxslərin balansında olan əmlakın onların əsasında yaradılan yeni publik hüquqi şəxsin balansına verilməsi və həmin qurumun maddi-texniki təminatı ilə bağlı tədbirlər görsün;

5.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**6.** Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi:

6.1. bu Fərmanın 1-ci və 2-ci hissələrinə uyğun olaraq tabeliklərində yaradılmış büdcə təşkilatlarının əsasnamələrinin (nizamnamələrinin) iki ay müddətində təsdiq edilməsini təmin etsinlər;

6.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**7** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

7.1. bu Fərmanla yaradılan yeni qurumların fəaliyyətinin maliyyələşdirilməsini cari ilin dövlət büdcəsində nəzərdə tutulmuş vəsait dairəsində təmin etsin;

7.2. "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndinə uyğun olaraq, bu Fərmanla yaradılan yeni qurumların strukturunun, ştat vahidlərinin və əməkhaqqı sistemlərinin maliyyə ekspertizasını həyata keçirsin və onların optimallaşdırılması üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 20 fevral 2026-cı il**

# "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" və "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" publik hüquqi şəxslərin yenidən təşkili haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, media, sosial tədqiqatlar, multikulturalizm və beynəlxalq münasibətlərin təhlili sahələrində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

**1** Aşağıdakı publik hüquqi şəxslər yenidən təşkil edilsin:

1.1. "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs "Sosial Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxsin ona qoşulması yolu ilə;

1.2. "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" publik hüquqi şəxs Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin ona qoşulması yolu ilə "Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi" publik hüquqi şəxs qismində.

**2** Müəyyən edilsin ki:

2.1. "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs (bundan sonra – Agentlik) medianın inkişafının dəstəklənməsi, media sahəsində mütəxəssislər hazırlanması və onların əlavə təhsilinin təşkili, audiovizual, çap, onlayn media subyektlərinin və informasiya agentliklərinin, habelə jurnalistlərin və digər media işçilərinin fəaliyyətinin, eləcə də media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması istiqamətində fəaliyyət göstərən, habelə ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına (qurumlarına) təqdim edən publik hüquqi şəxsdir;

2.2. "Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi" publik hüquqi şəxs (bundan sonra – Mərkəz) dünyada və regionda baş verən proseslərin təhlili, beynəlxalq münasibətlər və təhlükəsizlik məsələləri ilə bağlı fundamental araşdırmalar aparılması, bu məsələlərə dair ölkəmizin mövqeyinin beynəlxalq ictimai, siyasi və akademik dairələrə çatdırılması, Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) elmi-təhlili materiallarla təmin edilməsi sahəsində fəaliyyət göstərən, habelə azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin edən, Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıdan və mövcud multikultural modelləri tədqiq və təşviq edən publik hüquqi şəxsdir;

2.3. "Sosial Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxsin və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin hüquqları və öhdəlikləri, habelə əmlakı müvafiq olaraq Agentliyə və Mərkəzə keçir.

**3** Agentliyin təsisçisi səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Agentliyin nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

3.1.2. Agentliyin idarəetmə orqanlarının yaradılması, idarəetmə orqanlarının rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.1.3. Agentliyin ləğvi və yenidən təşkili;

3.1.4. nizamnaməsində nəzərdə tutulmayan məqsədlər üçün Agentliyin mənfəətinin dövlət büdcəsinə köçürülməsi barədə qərar qəbul edilməsi;

3.1.5. Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi;

3.2. Agentliyə:

3.2.1. bu Fərmanın 7-ci hissəsi nəzərə alınmaqla, Agentliyin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğlərinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq edilməsi;

3.2.2. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**4** Mərkəzin təsisçisi səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Mərkəzin nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. Mərkəzin idarəetmə orqanlarının yaradılması, idarəetmə orqanlarının rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.1.3. Mərkəzin ləğvi və yenidən təşkili;

4.1.4. nizamnaməsində nəzərdə tutulmayan məqsədlər üçün Mərkəzin mənfəətinin dövlət büdcəsinə köçürülməsi barədə qərar qəbul edilməsi;

4.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

4.2.1. Mərkəzin illik maliyyə hesabatlarının təsdiq edilməsi;

4.2.2. Mərkəzin təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi;

4.2.3. Mərkəzin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılmasına razılıq verilməsi;

4.3. Mərkəzə:

4.3.1. inkişaf istiqamətlərinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyənləşdirilməsi;

4.3.2. bu Fərmanın 7-ci hissəsi nəzərə alınmaqla, Mərkəzin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğlərinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq edilməsi.

**5** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. bu Fərmanın 1-ci və 2-ci hissələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. Agentliyin və Mərkəzin yeni nizamnaməsinin layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Agentlik və Mərkəz:

6.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə Agentliyin və Mərkəzin yenidən təşkilinin dövlət qeydiyyatı ilə bağlı zəruri tədbirləri həyata keçirsinlər;

6.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**7** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndinə uyğun olaraq, Agentliyin və Mərkəzin strukturunun, ştat vahidlərinin və əməkhaqqı sisteminin maliyyə ekspertizasını həyata keçirsin və onların optimallaşdırılması üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 20 fevral 2026-cı il**

# Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" və "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxslərin yenidən təşkili haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (bundan sonra – Agentlik) tabeliyində aşağıdakı qurumlar yenidən təşkil edilsin:

1.1. "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs Agentliyin tabeliyində "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyətinə çevrilmə yolu ilə;

1.2. "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxs Agentliyin tabeliyində "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyətinə çevrilmə yolu ilə.

**2** Müəyyən edilsin ki:

2.1. "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti meliorasiya və irriqasiya sahəsində xidmətlər göstərən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını və mühafizəsini, balansında (istifadəsində) olan su təsərrüfatı obyektlərinin (su anbarlarının, kanalların, boru xətlərinin və s.) istismarını, həmçinin Azərbaycan Respublikasının rayon və şəhərlərində (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Naxçıvan və Şirvan şəhərləri istisna olmaqla) istehlakçıların məişət (təsərrüfat) – içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini həyata keçirən dövlətə məxsus kommersiya hüquqi şəxsidir;

2.2. "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyəti Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Naxçıvan və Şirvan şəhərlərində istehlakçıların məişət (təsərrüfat) – içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini həyata keçirən dövlətə məxsus kommersiya hüquqi şəxsidir;

2.3. bu Fərmanın 1.1-ci və 1.2-ci bəndlərində nəzərdə tutulan qapalı səhmdar cəmiyyətləri (bundan sonra – Cəmiyyətlər) həmin hissədə qeyd olunan publik hüquqi şəxslərin hüquqi varisidir və həmin publik hüquqi şəxslərin hüquq və öhdəlikləri, habelə əmlakı müvafiq olaraq Cəmiyyətlərə keçir;

2.4. Cəmiyyətlərin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

2.5. Cəmiyyətlərin fəaliyyətinə cari rəhbərliyi Müşahidə Şurası tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən icraçı direktor həyata keçirir;

2.6. Cəmiyyətlərin nizamnamə kapitalı bu Fərmanın 1.1-ci və 1.2-ci bəndlərində nəzərdə tutulan müvafiq publik hüquqi şəxslərin əmlakı hesabına formalaşır;

2.7. Cəmiyyətlər "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək bu Fərmanın 1.1-ci və 1.2-ci bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslər fəaliyyətini davam etdirir.

**3** Cəmiyyətlərin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. yenidən təşkili və ləğvi;

3.1.2. icra orqanının yaradılması;

3.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

3.2.1. nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən olunması, onlarda dəyişiklik edilməsi;

3.3. Agentliyə:

3.3.1. xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul edilməsi;

3.3.2. Müşahidə Şurası sədrinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.3.3. Müşahidə Şurasının digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.4. Müşahidə Şurasına:

3.4.1. bu Fərmanın 3.1–3.3-cü bəndlərində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə səhmdarların ümumi yığıncağının səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Cəmiyyətlərin nizamnamələrini iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5** Agentlik:

5.1. Cəmiyyətlər "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində bu Fərmanın 1.1-ci və 1.2-ci bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslərin balansında olan əmlakın müvafiq olaraq Cəmiyyətlərin balansına verilməsi ilə bağlı zəruri tədbirlər görülməsini təmin etsin;

5.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**6.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndinə uyğun olaraq, Cəmiyyətlərin strukturunun, ştat vahidlərinin və əməkhaqqı sistemlərinin maliyyə ekspertizasını həyata keçirsin və onların optimallaşdırılması üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 20 fevral 2026-cı il**

# Energetika nazirinin Qubada vətəndaş qəbulu



**Energetika naziri Pərviz Şahbazov Quba rayon Heydər Əliyev Mərkəzində vətəndaşlarla görüşüb.**

Energetika Nazirliyindən bildirilib ki, vətəndaşların elektrik enerjisi və təbii qaz təchizatı, küçə işıqlandırılması, qeyri-yaşayış obyektinin qazlaşdırılması, elektrik dirəklərinin yerinin dəyişdirilməsi, mühafizə zonaları, sayğacların quraşdırılması, elektrik təsərrüfatının yenilənməsi, elektrik enerjisi və qazdan istifadəyə görə borcun yaranması, elektrik enerjisinin keyfiyyəti, elektrik qurğu və avadanlıqlarının istismar vəziyyəti, işlə təminat və digər məsələlərə dair müraciətləri dinlənilib.

Qaldırılan məsələlərin mövcud qanunvericiliyə uyğun şəkildə araşdırılması və operativ həlli məqsədilə müvafiq tapşırıqlar verilib.

Nazirliyin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda Quba, Qusar və Xaçmaz rayonlarından olan 43 vətəndaş iştirak edib.

***XQ***

# Parlament komissiyasının hibrid hücumlara dair açıqlaması



**Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası son dövrlərdə rəqəmsal platformalarda və müxtəlif media kanallarında ölkəmiz əleyhinə aparılan dezinformasiya kampaniyasının kökündə duran bir sıra məqamları öz səlahiyyətləri çərçivəsində araşdırıb.**

Dövlətimizə qarşı aparılan bu qeyri-dost hərəkətlərin təhlili və qiymətləndirilməsi nəticəsində aşağıdakı hallar müəyyən edilib:

– Həmin fəaliyyətlər vahid mərkəzdən idarə olunur;

– Bir ildən çox davam edən hibrid hücumlar çoxsəviyyəli təzyiq strategiyasının bir hissəsidir;

– Bu anti-Azərbaycan strategiya ictimai rəyi çaşdırmağa, cəmiyyətdə qütbləşmə yaratmağa, dövlətə və onun institutlarına inamı sarsıtmağa hesablanmış informasiya manipulyasiyalarından ibarətdir.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün tam bərpası, suverenlik iradəsinin güclənməsi, eyni zamanda, ölkəmizin qlobal enerji təhlükəsizliyinə verdiyi töhfə, nəqliyyat dəhlizlərinin yaradılması və regional inkişaf məsələlərində müstəqil qərarların qəbul edilməsi, beynəlxalq tərəfdaşlıqların daha da gücləndirilməsi onun hədəflənmiş kampaniyaya, əsassız ittihamlar ehtiva edən məqsədyönlü dezinformasiyaya məruz qalmasına səbəb olub.

Azərbaycan Respublikası hər cür hibrid təhdidə və informasiya məkanının pozulmasına qarşı öz hüquqlarını qorumaqda qətiyyətini dəyişməyəcək.

Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya davam edən dezinformasiya kampaniyası fonunda vətəndaşlarımızı yalnız Azərbaycanın dövlət qurumları və rəsmiləri tərəfindən verilən məlumatlara istinad etməyə və inanmağa çağırır.

***XQ***

# Dövlət maliyyə sistemi elektronlaşdırılır

*Milli Məclisin plenar iclasında bu məsələ geniş müzakirə olundu*




**Parlamentin spikeri Sahibə Qafarova çıxışında Prezident İlham Əliyevin ana dilimizin qorunmasına və inkişafına diqqətini vurğuladı: "Bildiyiniz kimi, dünyada Beynəlxalq Ana Dili Günü qeyd olunacaq. Ötən ilin noyabr ayında dövlət başçısı Azərbaycan Milli Elmlər Akademiyasında çıxışında Azərbaycan dilinin təmizliyinin qorunmasının və düzgün istifadə edilməsinin vacibliyini qeyd edib. O demişdir ki, Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır".**

Spikerin çıxışından sonra deputatlar ənənəvi qaydada cari məsələlər ətrafında fikirlərini bildirdilər. Deputat Fazil Mustafa bildirdi ki, qəzalı və yarımçıq qalmış binalar problemi, xüsusilə Bakıda, dövlətin sahibkarlara kredit və institusional dəstəyi ilə həll olunmalıdır. O qeyd etdi ki, müflisləşən sahibkarlar həm maliyyə çatışmazlığı, həm də bankların girovları vaxtında azad etməməsi səbəbindən məhkəmə çəkişmələri ilə üzləşirlər: "Hakimlərin sayının azlığı işlərin operativ və obyektiv baxılmasına mane olur. "Şəhərsalma və Memarlıq İli" çərçivəsində regionlara diqqət artırılmalıdır. Məsələn, təmsil etdiyim Sabunçu rayonunun Zabrat qəsəbəsində vətəndaşların normal istirahəti üçün bir dənə də olsun park yoxdur. Halbuki həmin ərazidə neft şirkətinə məxsus, istifadəsiz qalmış sahələr mövcuddur".

Daha sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıldı. Avropa Şurasının "İnsan orqanlarının alverinə qarşı Konvensiya"sının ratifikasiyası üçün layihəni MM-in Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi təqdim etdi. Bildirildi ki, Konvensiyanın məqsədi insan orqanlarının alverinin qarşısının alınması və onunla mübarizə aparılması, bu sahədə müəyyən əməllərin kriminallaşdırılmasının təmin edilməsi, habelə qurbanların hüquqlarının müdafiəsi və tərəflər arasında milli və beynəlxalq əməkdaşlığın gücləndirilməsidir. Konvensiya transplantasiya məqsədləri və digər məqsədlər üçün insan orqanlarının alverinə, həmçinin qanunsuz götürülmə və qanunsuz implantasiya formalarına tətbiq edilir. Müzakirələrdən sonra layihə səsverməyə qoyularaq qəbul edildi.

Daha sonra Gömrük və İnzibati Xətalar məcəllələrinə, o cümlədən "Qiymətli metallar və qiymətli daşlar haqqında" qanuna dəyişikliklər təqdim edildi. Emal edilməmiş almazların müvafiq rəy olmadan idxalı və ixracına görə cərimələr fiziki şəxslər üçün 550–750 manat, vəzifəli şəxslər üçün 1 000–2 000 manat, hüquqi şəxslər üçün isə 1 500–2 500 manat məbləğində müəyyənləşdirildi. Müzakiyərə çıxarılan qanun layihəsi səsvermədən sonra üçüncü oxunuşda qəbul edildi.

Dövlət maliyyəsinin idarə edilməsində şəffaflığın və operativliyin artırılması məqsədilə büdcə, mühasibat uçotu və dövlət satınalmalarının rəqəmsallaşdırılması son oxunuşda qəbul edildi. "Büdcə sistemi haqqında", "Mühasibat uçotu haqqında" və "Dövlət satınalmaları haqqında" qanunlara təklif edilən dəyişikliklərə əsasən, büdcə göstəricilərinin hazırlanması, maliyyə məlumatlarının təqdim edilməsi və sənəd dövriyyəsi vahid "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi vasitəsilə elektron qaydada həyata keçiriləcək ki, bu da inzibatçılığın azaldılmasına və büdcə prosesinin daha çevik idarə olunmasına imkan verəcək.

"Uşaq hüquqları haqqında" qanun layihəsinin müzakirəsi zamanı İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirdi ki, Azərbaycanda uşaqlar üçün keyfiyyətli filmlərin azlığı mədəniyyət, təhsil və istehsal infrastrukturunun zəifliyi ilə bağlıdır: "Təəssüf ki, bu gün ölkədə uşaq filmlərinin sayı çox məhduddur, mövcud layihələrin bir qismi isə zəif ssenariyə və aşağı keyfiyyətə malikdir. Halbuki bu sahə milli dəyərlərin və tarixi yaddaşın yeni nəsillərə ötürülməsi baxımından mühüm rol oynayır. Ölkəmizdə cizgi filmlərinin tarixi XX əsrin 30-cu illərinə gedib çıxır və 60-70-ci illərdə silsilə uğurlu animasiya filmləri çəkilib. 1970-1980-ci illərdə xalq folklorundan götürülən motivlərlə çəkilən çoxlu filmlərimiz var. İndi isə övladlarımız ən yaxşı halda qardaş ölkənin cizgi qəhrəmanları ilə, ən pis halda isə "Disney"lə böyüyürlər". Deputat, həmçinin müəllimin cəmiyyətdə rolunun qorunmasının, təhsil sistemində təcrübəli pedaqoqlara dəyər verilməsinin, gənclərin psixoloji-təhsil yükünün elmi əsaslarla qiymətləndirilməsinin vacibliyini qeyd etdi.

Qanun layihəsi ilə bağlı çıxış edən Tənzilə Rüstəmxanlı vurğuladı ki, milli dəyərlər və ailə ənənələri uşaqların tərbiyəsində mühüm rol oynayır və bunların qorunması vacibdir. O bildirdi ki, milli tərbiyə modeli uşaqların təhlükəsiz və sağlam formalaşmasının əsas sütunlarından biridir.

Aparılan müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq ikinci oxunuşda qəbul olundu.

Elektron siqaretlərin istifadəsi, idxalı, ixracı, istehsalı və satışına görə cərimələrin sərtləşdirilməsi ilə bağlı qanun layihəsi ilk oxunuşda qəbul edildi. İnzibati Xətalar Məcəlləsində "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanuna edilən dəyişikliklərə əsasən, qadağan olunmuş yerlərdə və ictimai məkanlarda elektron siqaret istifadəsinə görə 30 manat cərimə tətbiq ediləcək. Eyni zamanda, elektron siqaretlərin və onların komponentlərinin qanunsuz idxalı, ixracı, istehsalı və satışı hallarında mallar müsadirə olunmaqla fiziki şəxslər 350–500 manat, vəzifəli şəxslər 1650–2200 manat, hüquqi şəxslər isə 4 000–5 000 manat məbləğində cərimə ediləcək. Layihə qəbul ediləcəyi halda, yeni qaydalar aprelin 1-dən qüvvəyə minəcək.

"Yol hərəkəti haqqında" və "Avtomobil yolları haqqında" qanun layihəsi ətrafında aparılan müzakirələrdə çıxış edən deputat Razi Nurullayev Azərbaycanda, xüsusilə region və kənd yollarında nişanlama və istiqamət lövhələrinin çatışmazlığının sürücülər və turistlər üçün ciddi problemlər yaratdığını bildirdi. Deputat, yaşayış məntəqələrinin giriş-çıxışlarında ad lövhələrinin quraşdırılmasını və turist marşrutlarında beynəlxalq standartlara uyğun işarələrin tətbiqini təklif etdi.

R.Nurullayev, həmçinin yol hərəkəti qaydalarının pozulmasına görə cərimələrin sərtləşdirilməsi və bal sisteminin tətbiqinin narazılıq yaratdığını vurğuladı: "Qaydalara qarşı deyiləm. Yollarda da nizam-intizam olmalıdır. Amma sual budur: biz problemi doğrudanmı həll edirik, yoxsa sadəcə, vətəndaşı sıxışdırırıq?

Bir neçə ayın içində 20 bal yığılıb sürücülük vəsiqəsi əlindən alınan minlərlə insan var. Bu adamların alternativi yoxdur". Onun fikrincə, cərimə siyasəti real infrastruktur islahatları ilə müşayiət olunmalıdır ki, bu addımlar həm təhlükəsizliyi artırmaq, həm də vətəndaşların narazılığını azaltmaq baxımından effektiv olsun.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq ikinci oxunuşda qəbul edildi.

Qadın hərbçilərin müddətdən artıq həqiqi hərbi xidmət (MAXE) müddətinin 3 ildən 6 aya qədər azaldılması ilk oxunuşda qəbul edildi. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlara edilən dəyişikliklərə əsasən, bu addım qadın hərbi qulluqçuların xidmətə uyğunlaşmasını asanlaşdırmaq, kadr sabitliyini artırmaq və hərbi xidmətin səmərəliliyini yüksəltmək məqsədi daşıyır. Qeyd olundu ki, indiyədək qadınlar birbaşa MAXE-yə qəbul edildikləri üçün ilkin mərhələdə hərbi şəraitə uyğunlaşmada çətinliklərlə üzləşirdilər və bu, ailə və digər obyektiv səbəblərlə vaxtından əvvəl ehtiyata buraxılmalarına gətirib çıxarırdı. Yeni müddət isə onların xidmətə adaptasiyasını asanlaşdıracaq və hərbi kadr axınının qarşısını alacaq.

Bununla da Milli Məclisin plenar iclası başa çatdı.

***Tacir SADIQOV***
***XQ***

# Azərbaycanın ABŞ-dakı səfirliyinin 19 fevral insidenti ilə bağlı bəyanatı

**Azərbaycan Prezidenti İlham Əliyevin Sülh Şurasının ilk iclasında iştirak məqsədilə Amerika Birləşmiş Ştatlarına səfəri çərçivəsində fevralın 19-da bir qrup etirazçı Vaşinqton şəhərində yerləşən "Waldorf Astoria" mehmanxanasının qarşısında təxribatçı hərəkətlər törədib. Prezident korteji mehmanxana ərazisinə yaxınlaşarkən, etirazçılar mühafizə olunan əraziyə zorla daxil olmağa cəhd ediblər və Prezident avtomobilinə yönəlik hücum aktları həyata keçiriblər. Bu qrup, həmçinin Azərbaycan rəhbərliyinə qarşı nalayiq ifadələr işlədib.**

Bu barədə Azərbaycanın ABŞ-dakı səfirliyinin yaydığı bəyanatda qeyd edilib.

Bəyanatda, həmçinin bildirilib: "Dövlət başçısının mühafizə edilən nəqliyyat vasitəsinin hərəkətinə maneçilik törədilməsinin və ya fiziki müdaxilə olunmasının ciddi təhlükəsizlik təhdidi yaratdığını nəzərə alan Prezidentin Təhlükəsizlik Xidmətinin dərhal müdaxilə etməkdən başqa seçimi qalmayıb. Təhlükəsizlik tədbirləri standart əməliyyat prosedurlarına uyğun olaraq, yalnız təhlükəsizlik və mühafizənin təmin edilməsinə yönəlib.

Bundan əlavə, ABŞ-ın Gizli Xidməti tərəfindən bəyan olunduğu kimi, mehmanxana ərazisi rəsmi təhlükəsizlik perimetrinə daxil olub.

Beləliklə, ölkənin liderinə və mühafizə olunan kortejə qarşı yönəlmiş hərəkətlərə cavab olaraq həyata keçirilmiş təhlükəsizlik tədbirlərinin yanlış təqdim edilməsi və ya əsaslandırılmamış iddialar yayılması cəhdlərini qətiyyətlə rədd edirik.



Azərbaycanın təhlükəsizlik əməkdaşları hər zaman ev sahibi ölkə ilə sıx koordinasiya şəraitində fəaliyyət göstərir".

Səfirlik xəbərləri yayarkən məsuliyyətli davranmağa və təsdiqlənməmiş iddialara əsaslanaraq nəticə çıxarmaqdan çəkinməyə çağırış edib.

***XQ***

# Azərbaycan Hakimlərinin II Forumunun açılış mərasimi




**Bakıda Azərbaycan Hakimlərinin II Forumunun açılış mərasimi keçirilib.**

Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev açılış nitqində bildirib ki, bugünkü forum Azərbaycan məhkəmə hakimiyyəti üçün xüsusi məna və əhəmiyyət daşıyan bir dövrə təsadüf edir. Müasir dövrdə məhkəmə hakimiyyətinin qarşısında duran vəzifələr təkcə hüququ tətbiq etməklə məhdudlaşmır: "Hakimlər cəmiyyətin ədalətə olan inamının əsas təminatçısıdırlar. Bu inam isə yalnız peşəkarlıq, obyektivlik və qanunun aliliyi prinsiplərinə sadiqliklə deyil, eyni zamanda, institusional güc, həmrəylik və davamlı inkişafla möhkəmlənir".

Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov deyib ki, 2025-ci il məhkəmə hakimiyyəti üçün də kifayət qədər məhsuldar və uğurlu olub. Ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində qanunvericilik və institusional islahatlar aparılıb, bu islahatların beynəlxalq aləmdə təbliği məqsədilə mühüm tədbirlər həyata keçirilib: "Vahid məhkəmə təcrübəsinin formalaşdırılması, hüquqi məsələlərin həllində yanaşmanın sabitliyinin və mövqelərin proqnozlaşdırılan olmasının təmin edilməsi istiqamətində işlər davam etdirilib".



Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev vurğulayıb ki, konstitusion şərh hüquqi müəyyənliyin və qanunun aliliyinin təmin edilməsində mühüm rol oynayır: "Konstitusiya dövlət hakimiyyətinin sərhədlərini müəyyən etməklə yanaşı, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat verir və ictimai münasibətlərin tənzimlənməsinin əsas istiqamətlərini müəyyənləşdirir. Bu baxımdan Konstitusiyada təsbit edilmiş təməl prinsiplərin düzgün anlaşılması və tətbiqi xüsusi əhəmiyyət daşıyır".

Açılış mərasiminin sonunda Azərbaycan Hakimlərinin II Forumu çərçivəsində məhkəmə-hüquq sistemində uzunmüddətli səmərəli fəaliyyətinə, həmçinin çıxardıqları məhkəmə qərarlarının sabitlik göstəricilərinə görə bir qrup hakim təltif edilib, onlara mükafatlar təqdim olunub.

Forum panel müzakirələrlə davam edib.

Qeyd edək ki, 600-dək məhkəmə hakiminin, həmçinin Məhkəmə-Hüquq Şurası üzvlərinin iştirak etdiyi forumun məqsədi hüquq ictimaiyyətini və cəmiyyəti ölkəmizdə gedən məhkəmə-hüquq islahatları barədə məlumatlandırmaqdır.

***XQ***

# Səfir Ştəli kimlərə və nəyə görə "dur" deməlidir?

*Yaxud ermənipərəstlikdə İsveçrə – Rusiya oxşarlığı*

**"Bizim suallarımız çoxdur. Yuxarıda qeyd edilənlərlə əlaqədar biz – Azərbaycan Milli QHT Forumunun təmsilçiləri yüzlərlə Azərbaycan QHT-sini birləşdirən çətir təşkilat olaraq, Sizinlə görüşməyə hazırıq". Bu fikirlər Azərbaycan Milli QHT Forumunun İsveçrə Konfederasiyasının Azərbaycandakı səfiri Tomas Ştəliyə iki gün əvvəlki açıq məktubunun sonunda yer alıb.**

Əslində, məktubda əksini tapan sualların sayı az deyildi. Məsələn, İsveçrənin Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycanın etibarından sui-istifadə edərək, emblemi altında olan yük və təcili tibbi yardım avtomobilləri ilə qaçaqmalçılıqla məşğul olmasına, "Humanitar yardım" adı altında Azərbaycanın suveren ərazilərində qanunsuz ticarət dövriyyəsi aparmasına, fırıldaqçılığına niyə göz yumulub? Hesab edirik ki, ilk növbədə, bundan başlamaq lazımdır. Ona görə ki, mövcud məqam 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərinədək hazırda ölkədə baş qaldırmış erməni təəssübkeşliyinin, belə demək mümkünsə, əməli iş trayektoriyasını müəyyənləşdirmişdi.

"Əməli iş"dən söz düşmüşkən, söhbət İsveçrədə "Sülh Forumu"ndan, yaxud "Qarabağ üçün İsveçrə Sülh Təşəbbüsü"ndən gedir. Məsələ ilə bağlı ötən sayımızda məlumat vermiş və bildirmişdik ki, bu təşəbbüs Ermənistandakı revanşist və şovinistləri hərəkətə keçirmək məramından qaynaqlanır. İndi isə məsələ barədə bir qədər ətraflı söz açacaq, oxşarlıq məsələsi üzərində dayanacağıq.

Qeyd edək ki, İsveçrədə müxtəlif illərdə ara-sıra ermənipərəst və müvafiq olaraq anti-Azərbaycan meyillər baş qaldırsa da, mövcud hallar fərdiyyətçilikdən irəli gəlmiş, ciddi tendensiya şəklini almamış, sərt təmayüllərlə müşayiət olunmamışdı. Məsələn, Azərbaycan cəmiyyəti klassik ermənipərəstliyin Fransa "nümunəsi" ilə tanışdır. Eləcə də, Hollandiya, Almaniya kimi Avropa ölkələrində bu "nümunənin" ayrı-ayrı elementlərinin olduğunu bilirik. Sözümüz ondadır ki, İsveçrə bu mənada irəlidə olmayıb. Bəs indi nə baş verib?

Onu da deyək ki, "qoca qitə"nin müxtəlif ölkələrindəki ermənipərəst təşəbbüslər Bakı–İrəvan sülh gündəliyi ilə bağlı qeyri-müəyyənlik zamanlarında qeydə alınıb. O zamanlarda ki, Ermənistan rəhbərliyi barışa gəlmək istəmir, 44 günlük müharibədən sonra Cənubi Qafqazda formalaşmış reallıqları qəbul etmir, Qarabağ avantürasını davamına çalışırdı. Hazırda isə vəziyyət aydındır.

Azərbaycan və Ermənistan arasında Birgə Bəyannamə var, sülh müqaviləsi paraflanıb, Azərbaycan ərazisi vasitəsilə Ermənistana Rusiya taxılının çatdırılmasını təmin edir. Bundan başqa, ölkəmiz özünə məxsus neft məhsullarının qonşusuna ixracını həyata keçirir. Hətta bu ixracdan sonra Ermənistanda benzinin qiyməti aşağı düşüb. Göründüyü kimi, sülh mühitinin faydaları da var.

Yəni sülh mühitinin faydaları yekun barış sazişinin imzalanacağına ümid yaradır. Yeri gəlmişkən, bu ümid müxtəlif platformalarda da ifadə olunur. Amma qeyd etdiklərimizin fonunda ortaya çox böyük, eyni zamanda, sadə sual çıxır: Loru dildə desək, İsveçrə nəyə görə özünə əl qatıb? "Qarabağ üçün İsveçrə Sülh Təşəbbüsü" nə deməkdir?

Elə təəssürat yaranır ki, İsveçrədəki ermənipərəstlər qəflət yuxusundan indi ayılıb. Sanki əllərində bədnamlıq gündəliyi var və ağır yük kimi olan bu gündəliyi tez-bazar çiyinlərindən atmaq istəyirlər. Digər tərəfdən, düşünülə bilər ki, İsveçrə ermənipərəstləri ümumi erməni təəssübü ritorikasının bir qütbünü təşkil ediblər və həmin qütbün təmsilçiləri ayrıca destruktiv gündəlik hazırlayıblar ki, bunun da müqabilində maliyyə vəsaiti almalı idilər. Lakin Azərbaycan və Ermənistan arasında sülh əldə olunduğundan, onlar həmin gündəliyin nümayişi üçün fürsət tapmayıblar və indi özlərini aqressiv tərzdə göstərirlər ki, çəkdikləri əziyyət "qiymətləndirilsin". Ağla hər cür versiyalar gəlir.

Hərçənd, daha böyük versiya da var. Ada diqqət yetirək: "Qarabağ üçün İsveçrə Sülh Təşəbbüsü". Yəni ortada Azərbaycanın ərazi bütövlüyünü təhdid edən bu qədər açıq narrativ var. Elə bir narrativ ki, əslində, hazırda Azərbaycan və Ermənistan arasında əldə olunmuş sülhün Vaşinqton gündəminə meydan oxumağa israrlıdır. O gündəmə ki, rəsmi İrəvan ona sadiqliyini, demək olar, bütün beynəlxalq və yerli platformalarda açıqlayır. O zaman sözügedən narrativin oxşarını axtarmaq zərurəti meydana çıxır. Ağla ilk gələn isə Rusiyadakı ermənipərəstlərdir. O kəslər ki, mərkəzi hakimiyyətlə bağlılığı gün kimi aydındır.

Bəli, məhz Rusiya ermənipərəstləri Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı, bir növ, sıfır nöqtəsi məntiqini təbliğ edirlər. Onlar elə fon yaradırlar ki, guya, Bakı və İrəvan arasında sülh mühiti qərarlaşmayıb, hazırkı müsbət ab-hava yalnız Azərbaycanla Ermənistan iqtidarının anlaşmasıdır və belə bir anlaşmanın hər iki ölkənin cəmiyyətlərinə heç bir aidiyyəti yoxdur. Bu yerdə yada vaxtilə Kreml təmsilçilərinin Qarabağın statusu məsələsinin sonraya saxlanılmasına dair səsləndirdikləri tezislər düşür. Hazırda İsveçrədə başlanmış çirkin təxribat kampaniyası eyni sərsəm məntiqi rəhbər tutmaqdadır.



Mühüm məqamlardan biri də Ermənistandakı revanşist-şovinist kəsimin istər media, istərsə də digər dəstək metodları baxımından məhz Rusiyadan idarə olunmasıdır. Belə nəticə hasil olur ki, erməni avantürizminin saxlanılması xüsusunda İsveçrə–Rusiya "işbirliyi" mövcuddur. Əks halda, İsveçrədə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əleyhinə təxribatçı fəaliyyət, tarixin arxivinə göndərilmiş ritorika və terminologiyadan istifadə niyə adi hal alsın ki? Axı prinsip etibarilə bu "dəst-xətt" ölkə üçün yad yanaşma olub.

Bəli, hiss olunur ki, kimlərsə İsveçrənin dünyadakı bitərəflik statusunun əbədi sülh egidasını erməni avantürasını diri tutmaq naminə istifadə edir. Bu durum ölkənin nüfuzuna böyük zərbədir. Ona görə də Azərbaycan Milli QHT Forumunun İsveçrənin Azərbaycandakı səfiri Tomas Ştəliyə məktubu tam yerindədir. Çünki səfir rəsmi təmsilçidir və o, ölkəsində beynəlxalq hüquq və ədalət prinsiplərinə zidd təmayüllərin hansı nəticələr doğura biləcəyinin fərqinə varmalıdır. Fərqinə varmalı və belə siyasi oyunbazlıq hallarına dair ali rəhbərlik qarşısında məsələ qaldırmalıdır. Elə fəaliyyət göstərməlidir ki, sülh adı altındakı spekulyasiyalar İsveçrənin ictimai rəyində gerçəklik kimi qəbul edilməsin. Nəhayət, o, elə iş aparmalıdır ki, qərargahı İsveçrədə yerləşən "Beynəlxalq Xristian Həmrəyliyi" təşkilatı Qarabağ məsələsini dini müstəvidə qələmə verməyə çalışaraq Azərbaycana böhtan atmasın. Çünki belə sərsəm təqdimatların bumeranq effekti yaratması mümkündür.

Ümumən, bəzi şəxslərin şübhəli oyunlara girişərək ölkəmizin nüfuzuna xələl gətirmək cəhdləri istər-istəməz, Azərbaycanla İsverçə arasında xoş münasibətlərə də kölgə salmaq potensialını daşıyır. Həm səfir Ştəli, həm də rəsmi Berni təmsil edən digər şəxslər bu barədə düşünməli, siyasi hoqqabazlığın qarşısını almaq istiqamətində qətiyyət nümayiş etdirməli, plüralizm və demokratiya adı altında cılız mahiyyətli qondarma erməni maraqları çarçılarının qarşısını kəsməli, onlara "dur" deməlidirlər.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Planetin xilas edilməsi uğrunda əzəmətli seçim

**(əvvəli 1-ci səhifədə)**

Hazırda dünyada altmışdan artıq təhlükəli münaqişə nöqtəsinin aktiv qalması, Yaxın Şərqdə, xüsusən Qəzza zolağında yaşanan dəhşətli səhnələr, Rusiya–Ukrayna cəbhəsində 4 il davam edən döyüşlər əski mexanizmlərin rəsmən iflasa uğradığını sübuta yetirir. Cərəyan edən geosiyasi hadisələr qətiyyətlə təsdiqlədi ki, BMT mühüm məsələlərdə heç cür yetərli siyasi iradə nümayiş etdirə bilmir, qəbul olunan təcili qətnamələrin real tətbiqində gərəkli təsir imkanlarından tamamilə məhrum vəziyyətdə qalıb. Bütün dünyanın taleyini təyin etməli olan təşkilatın mühüm xarakterli təhlükəsizlik çağırışlarına operativ reaksiya göstərməməsi fərqli alternativ alətlərin, modern platformaların, habelə praqmatik çoxtərəfli formatların yaradılmasını qaçılmaz amilə çevirir. Məhz yaranmış tarixi zərurətdən çıxış edərək ABŞ rəhbərliyi, xüsusən də Trump administrasiyası tərəfindən böhranları tənzimləyəcək effektiv mexanizm qismində Sülh Şurası təşəbbüsü gündəmə gətirildi.

ABŞ-ın yürütdüyü radikal dəyişikliklər xətti beynəlxalq ictimaiyyətin onilliklər boyu vərdiş etdiyi qanunauyğunluqları parçalayır. Rəsmi Vaşinqton qlobal məsuliyyəti təkbaşına mənimsəməyən ənənəvi mərkəzlərdən tamamilə uzaqlaşmağa, habelə qlobal miqyaslı təsirsiz orqanların nəhəng maliyyələşdirilməsini dayandırmağa başlayıb. Trampın büdcədən köhnəlmiş idarəetmə aparatlarına ayrılan pulların qapadılması beynəlxalq ictimaiyyətə verilən ciddi xəbərdarlıqdır. BMT Nizamnaməsində müqəddəs mətnlər kimi təsbit olunmuş sülhün qorunması, amansız münaqişələrin müstəsna halda dinc yolla həll edilməsi, dövlətlərin suveren bərabərliyi prinsiplərinin praktik səviyyədə sistemli şəkildə pozulması quruma bəslənən inamı bərpaolunmaz şəkildə məhvə sürükləyir. Mövcud vəziyyət aydın göstərir ki, kənar müdaxilələrə xeyli cəld reaksiya verən, konkret hərbi-diplomatik gücə sahib təsisatlar qurulmalıdır. Ağ Ev bütün dünyanın üzləşdiyi apokaliptik ssenarilərdən qurtulmağın yeganə yolunu operativ hərəkət imkanı olan mərkəzlərin yaradılmasında görür. Məhz yeni yaranan Sülh Şurası modeli dünyanı bürüyən xaosun mərhələli tənzimlənməsində tam fərqli, inqilabi, modern yanaşma fəlsəfəsini nümayiş etdirir. Köhnə qaydalarla, kağız üzərindəki mənasız bəyannamələrlə çağdaş qlobal fırtınaları idarə etməyin mümkünsüzlüyü bəşəriyyətin acı reallığıdır. Artıq vaxtı keçmiş mexanizmlərlə dünya düzənini ayaqda saxlamaq xəyaldır.

*

Konseptual nəzəri çərçivədən əməli fəaliyyət müstəvisinə keçid Misirin qədim tarixi coğrafiyasında, konkret olaraq Şarm əl-Şeyx şəhərində təşkil edilən ali beynəlxalq sammitdə reallaşdı. Qeyd olunan görüş planetimizin diplomatik irsində qlobal təhlükəsizliyin qorunmasına dair ən möhtəşəm addımlardan sayılaraq yeni nizamın başlanğıc siqnalı olaraq arxivlərə yazıldı. Sammitə Azərbaycan Prezidenti İlham Əliyevin rəsmi qonaq qismində şəxsən dəvət olunması ölkəmizin regionda daşıdığı sülh memarı statusunu qlobal aləmə transformasiya etdiyini göstərir. Erməni işğalına son qoyulan, ərazi bütövlüyü təmin edilən dövrdən sonrakı inkişaf illərində rəsmi Bakının sərgilədiyi konstruktiv, habelə praqmatik dövlətçilik strategiyası Qərbin qərar qəbuledici elit təbəqəsi tərəfindən olduqca yüksək rəğbətlə qarşılanır.

Sammitin beynəlxalq təsiri dərhal praktiki cəbhələrdə özəl meyvələrini verməyə başladı. Sülhpərvər iradə sayəsində ilkin real nəticə kimi Qəzza ərazisindəki dəhşətli hərbi toqquşmalar tamamilə dayandırıldı. Kütləvi qan tökülməsinin, dinc əhalinin fəlakətinin qarşısı qətiyyətli tədbirlərlə önləndi. Minlərlə insanın iztirab çəkdiyi, ənənəvi institutların onilliklər boyu həll edə bilmədiyi düyün çox qısa zaman kəsiyində təməlli surətdə çözüldü. Humanitar baxımdan bəşəriyyəti işıqlı




gələcəyə inandıran xüsusi diplomatik səylər məntiqi yekunla tamamlandı, əsir və girovların qarşılıqlı azad edilməsi prosesi yüksək peşəkarlıqla icra edildi. Keçirilən uğurlu test mərhələsindən sonra dərhal Vaşinqton irəli sürdüyü nəhəng Sülh Şurası konsepsiyasının daimi təsisatlandırması istiqamətində yorulmaz fəaliyyətə başladı. Sadalanan misilsiz qlobal sülh fəaliyyətlərinə rəğmən yaranan alternativ qüvvə mərkəzi heç də qüsursuz qəbul edilmir, beynəlxalq ictimaiyyətin fərqli qütblərində böyük ajiotaj yaradır. Konsepsiya qlobal məkanda müsbət dalğalar doğurmaqla bərabər, müxtəlif dövlətlər, ənənəvi siyasi bloklar tərəfindən ehtiyatla qavranılır. Prosesin detallarına endikdə görmək mümkündür ki, "qoca qitə", həmçinin sürətlə inkişaf edən Çin tərəfindən yaranan orqana qarşı ciddi təşviş mənzərəsi mövcuddur. Həmin hegemon ölkələr Sülh Şurasının əvəzolunmaz səlahiyyətlərlə təchiz edilməsinin onların diplomatik statuslarına zərbə vuracağından qayğılanırlar. Xüsusən Çin rəhbərliyi hazırda fəaliyyəti iflic olan Nyu-York ofislərindəki daimi veto imtiyazından qoparılacağından narahatlıq keçirir. Çünki alternativ qurumun strukturlarında rəsmi Pekinin veto səlahiyyəti yoxdur, proseslər təmiz praqmatik güc ölçüləri ilə idarə olunur. Eyni məntiqlə yanaşdıqda, Avropa dövlətləri baş tutan dəyişikliyin trans-Atlantik əlaqələrdə avropalıları qərarsız hala salacağından ehtiyat edirlər. Qitə siyasətçilərinin qorxusunun təməlində Amerikanın yeni idarəetmə maşınının bütövlükdə beynəlxalq balansı amansızcasına ləğv etməsi təhlükəsi dayanır. Qlobal diplomatiyanın çoxəsrlik ənənələrə sahib dövlətləri mövcud ssenarilərdən kənarda qalmağın verdiyi psixoloji basqı altındadırlar.

*

Reallıqların acı dərsi, baş verən hadisələrin ritmi fərqli seçim şansı buraxmır, irəli sürülən ikinci fərziyyənin çox yaxın vaxtlarda mütləq həqiqətə çevriləcəyini göstərir. Təşkilatçılar hədəflərin yalnız lokal Qəzza sülhü ilə sonlanmayacağını yüksək səslə bəyan edirlər. Mərkəzi aparatın planetin istənilən qanlı toqquşmalarına qəflətən müdaxilə etmək niyyətini qətiyyətlə nümayiş etdirməsi ənənəvi beynəlxalq əlaqələrin sonunun gəldiyini aydınlaşdırır. Vaşinqton qlobal məsuliyyəti bütövlükdə üzərinə götürərək beynəlxalq təhlükəsizliyin tamamilə yenilənmiş çərçivəsini qurur. Qarşıdakı illərin diplomatik inkişaf qrafiki göstərir ki, həlledici rıçaqlar Vaşinqtonun dəstəklədiyi yeni koalisiyanın ixtiyarına keçəcək, ənənəvi BMT sistemi isə köklü böhrandan xilas ola bilməyərək, sadəcə, tarix səhifələrinə köçəcək. Baş verəcək proseslərdən sonra planetimizin təhlükəsizlik xəritəsində əzəmətli dönüşlərin yaşanacağı mütləq ssenaridir.

Proseslər sürətləndikdən, sistem formalaşdıqdan dərhal sonra şahidlik edəcəyimiz ən bariz mənzərələrdən biri dünyanın qütblərə ayrılması, beynəlxalq qurumların fərqli qruplara parçalana bilməsidir. Sülh Şurası tamhüquqlu səlahiyyət əldə etdikdə BMT binalarının fəaliyyəti donacaq, iclas zalları səssizliyə bürünəcək, xərclər kəskin azaldılacaq. Qlobal büdcələrin məhz müasir sülhməramlı layihələrə ayrılması köhnə beynəlxalq ofislərin ixtisarına, bürokratlar ordusunun tərxis edilməsinə gətirib çıxaracaq. Şərq bloku, daha dəqiq desək, rəsmi Pekin tabeliyindəki Asiya–Sakit Okean hövzəsi dövlətləri asılı vəziyyətə düşməmək məqsədilə həm iqtisadi, həm siyasi tərəfdaşlıqları fərqli ittifaqlarda cəmləşdirməyə çalışacaqlar. Çin hökuməti Şanxay mərkəzli təşkilatların səlahiyyətlərini qlobal güc olaraq artırmağı, həmçinin alternativ sülh doktrinası formalaşdırmağı sınaqdan keçirəcək. Çox güman ki, nəticədə, bəşəriyyət iki real rəqabətədavamlı asayiş maşınının mübarizəsinə tamaşa edəcək.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Laqarddan sonrakı Avropa

## *"Qoca qitə" sərt iqtisadi keçidə hazırdırmı?*

**Avrozonada son aylar formalaşan müzakirələrin mərkəzində dayanan əsas mövzulardan biri Avropa Mərkəzi Bankı rəhbərliyində mümkün dəyişiklik ehtimalıdır. "Reuters"in Kristina Laqardın tezliklə vəzifədən ayrılacağına dair yayılan xəbərləri Avropanın monetar arxitekturasının gələcək trayektoriyası, fiskal-monetar balansın taleyi və üzv ölkələr arasındakı güc münasibətlərinin yenidən qurulması baxımından ciddi siqnal sayılır.**

"Qoca qitə"nin indiki mərhələdə üzləşdiyi inflyasiya təzyiqləri, zəif artım dinamikası fonunda belə dəyişiklik potensial sistem transformasiyasının başlanğıcı ola bilər.

Qısa xatırlatma edək ki, AMB rəhbəri Kristina Laqardın dövrü böhranların ardıcıl şəkildə müşahidə edildiyi bir mərhələ kimi tarixə düşdü. Pandemiya şoku, enerji qiymətlərində sıçrayış, tədarük zəncirlərinin pozulması və geosiyasi risklər səbəbindən AMB həm genişləndirici, həm də sonradan sürətlə sərtləşdirilən monetar siyasət tətbiq etməyə məcbur qaldı. İnflyasiya hədəflərinin aşılması uzun müddət "keçici" amillərlə izah olunsa da, qiymət artımlarının struktur xarakter alması AMB-ni faiz dərəcələrini kəskin artırmağa vadar etdi.

Bununla belə, Laqardın rəhbərliyi ilə qəbul edilən qərarlar həmişə iki ziddiyyətli məqsəd arasında tarazlıq axtarışı kimi görünürdü. Bir tərəfdən qiymət sabitliyi, digər tərəfdən isə borcu yüksək üzv ölkələrin maliyyə sabitliyinin qorunması. Ona görə də bu balans siyasəti indi müzakirələrin mərkəzindədir. Rəhbərlik dəyişikliyi ehtimalının Avrozonada "şimal" və "cənub" yanaşmaları arasındakı klassik fərqləri yenidən aktuallaşdırdığı da müşahidə olunur. Almaniya və fiskal intizam tərəfdarı olan digər ölkələr üçün inflyasiya ilə mübarizə prioritet olaraq qalır və onların baxışına görə AMB-nin etibarlılığı sərt və ardıcıl siyasətlə qoruna bilər. Əksinə, borc yükü yüksək olan ölkələr üçün faizlərin uzun müddət yüksək qalması sosial xərclərin və investisiyaların sıxışdırılması, iqtisadi artımın zəifləməsi deməkdir.

Hazırkı şəraitdə daha sərt monetar xəttin seçilməsi ehtimalı yüksəkdir. Həmin ssenari faizlərin uzun müddət yüksək səviyyədə saxlanılması, balansın sürətli kiçildilməsi və inflyasiya hədəfinə qayıdışın kompromissiz şəkildə təmin edilməsini nəzərdə tutur. Lakin bu yanaşma, eyni zamanda, dövlət borcunun xidmət xərclərini artırır və fiskal dayanıqlıq problemi yaşayan ölkələr üçün əlavə risk yaradır. Bu kontekstdə Fransanın vəziyyəti xüsusi diqqət




tələb edir. Fransa son illər artan büdcə kəsiri və dövlət borcu ilə üzləşir. Borcun ÜDM-ə nisbətinin yüksək səviyyədə olması, struktur islahatların gecikməsi və sosial xərclərin çoxluğu fiskal manevr imkanlarını məhdudlaşdırır.

Emmanuel Makronun müəyyən islahat cəhdləri və onların effektivliyi ilə bağlı suallar da qalmaqdadır. Pensiya sistemində dəyişikliklər və əmək bazarının liberallaşdırılması istiqamətində addımlar atılsa da, dövlət xərclərinin struktur optimallaşdırılması sahəsində gözlənilən nəticələr tam əldə olunmayıb. Parisin maliyyə vəziyyəti AMB üçün strateji dilemma yaradır. Çünki bank bir tərəfdən qiymət sabitliyini təmin etməlidir ki, bunun üçün sərt siyasət lazımdır. Digər tərəfdən, Avrozonanın ikinci böyük iqtisadiyyatında borc böhranı riskinin artması ehtimalı yüksəkdir.

Əgər bazarlar Fransanın borc dayanıqlılığına şübhə ilə yanaşmağa başlasa, istiqraz gəlirləri yüksələ, maliyyə fraqmentasiyası təhlükəsi yarana bilər. Belə halda AMB yenidən "antifraqmentasiya" alətlərindən (antifraqmentasiya Avrozonada maliyyə parçalanmasının qarşısını almaq və mərkəzi bankın siyasətinin bütün ölkələrdə eyni təsirlə işləməsini təmin etmək üçün yaradılmış müdafiə mexanizmidir) istifadə etməyə məcbur qala bilər ki, bu da sərt monetar kursla ziddiyyət təşkil edir. Maraqlıdır ki, mövcud vəziyyət daha bir struktur problemi üzə çıxarır. Avrozonada monetar siyasət mərkəzləşdirilmiş, fiskal siyasət isə milli səviyyədə qalır. Sözügedən institusional assimmetriya böhran dövrlərində xüsusilə kəskin hiss olunur. Mərkəzi bank inflyasiya ilə mübarizə apararkən, milli hökumətlər seçici təzyiqi altında genişlənməyə meyilli ola bilirlər. Nəticədə, fiskal-monetar uyğunsuzluq yaranır.

Avropanın iqtisadi çətinliklərinin artmasında struktur rəqabət qabiliyyətinin zəifləməsi, sənaye bazasının enerji xərcləri səbəbindən sıxışdırılması və qlobal texnoloji yarışda geri qalma kimi amillər də mühüm rol oynayır. Lakin dövlət borcunun yüksəlməsi bu problemləri daha da kəskinləşdirir, çünki hökumətlərin strateji investisiyalar üçün maliyyə imkanları məhdudlaşdır. Əgər siyasi rəhbərlik uzunmüddətli struktur transformasiya əvəzinə, qısamüddətli sosial sabitliyi qorumağa üstünlük verərsə, iqtisadi dayanıqlılıq zəifləyir. Makron hökumətinə yönələn tənqidlərin bir hissəsi məhz bu məqamla bağlıdır.

Siyasi legitimliyi qorumaq məqsədilə sosial kompromislərə üstünlük verilməsi, lakin paralel olaraq borc yükünün azaldılması istiqamətində radikal addımların atılmaması Fransa iqtisadiyyatını həssas vəziyyətdə saxlayır. Bu isə Avrozonanın ümumi risk profilinə təsir göstərir. Fransanın iqtisadiyyatın zəifliyi bütün valyuta blokunun maliyyə sabitliyini sual altına qoya bilər. Belə şəraitdə AMB rəhbərliyində dəyişiklik həm bazarlar, həm də siyasi dairələr tərəfindən gələcək kursun göstəricisi kimi şərh olunur.

Əgər yeni rəhbərlik daha monetar mövqe sərgiləsə, Avrozonada fiskal intizamın gücləndirilməsi üçün siyasi təzyiq arta bilər. Əks halda, inflyasiya riskləri ilə bağlı etimad problemi yarana bilər. Hər iki ssenari kompromis tələb edir və bu kompromisin hansı formada qurulacağı Avropanın iqtisadi gələcəyini müəyyənləşdirəcək.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Yeganə HACIYEVA, politoloq**

Emmanuel Makronun uğursuz siyasi və iqtisadi siyasəti təkcə Fransanın deyil, ümumilikdə Avropa İttifaqının gələcəyi üçün ciddi risklər formalaşdırıb. "İqtisadi islahatlar" adı altında atılan addımlar mövcud vəziyyəti dəyişmir, uğurlu strategiya təsiri bağışlamır.

Avropanın iqtisadi dairələrində tanınmış ekspertlər dəfələrlə vurğulayıblar ki, irəli sürülən ideyalar qısamüddətli effektə hesablanıb və məhdud biznes çevrələrinin maraqlarına xidmət edir. Bu baxımdan, onları Aİ-nin uzunmüddətli və inklüziv inkişaf strategiyası kimi qiymətləndirmək olmaz. Oxşar meyillər Fransa daxilində də özünü göstərir. Sosial həssas təbəqələrin iqtisadi yükünün artması, yüksək gəlirli qrupların və iri kapital sahiblərinin mövqelərinin daha da möhkəmlənməsi cəmiyyətdə balansın pozulması riskini yaradır. Sosial və iqtisadi sahələrdə planlaşdırılan digər dəyişikliklər bu disbalansı daha da dərinləşdirə bilər.

Makronun prezidentliyə namizədliyi dövründə müəyyən iqtisadi dairələrin dəstəyi ilə ön plana çıxmasına şübhələr yaranmışdı. İndiki təşəbbüslərinin də həmin çevrələrin maraqları ilə uzlaşdığını ehtimal etmək olar. Mümkün çıxış yollarından biri kimi daha balanslı və milli iqtisadi maraqları nəzərə alan siyasətin tətbiqi ola bilərdi. Bu yanaşma hər bir ölkənin öz sənaye potensialını, kənd təsərrüfatı, enerji təhlükəsizliyi və daxili bazarı qorumağa və gücləndirməyə yönəlmiş addımlar atmasını nəzərdə tutur.

Eyni zamanda, sosial ədalət prinsiplərinin qorunması, orta təbəqənin möhkəmləndirilməsi və kiçik–orta sahibkarlığın dəstəklənməsi iqtisadi artımın daha dayanıqlı olmasına şərait yarada bilər. Milli iqtisadiyyatların sağlam əsaslar üzərində inkişafı isə bütövlükdə regional və beynəlxalq inteqrasiya proseslərində daha güclü və rəqabətqabiliyyətli mövqe formalaşdırmağa imkan verər.

Üzv ölkələrin daxili iqtisadi dayanıqlılığını gücləndirməsi, istehsal və rəqabət qabiliyyətini artırması ümumi iqtisadi potensialın möhkəmlənməsinə xidmət edə bilər. Əks halda, dar qrupların maraqlarına üstünlük verən və üzv ölkələrin sosial-iqtisadi reallıqlarını yetərincə nəzərə almayan mərkəzləşdirilmiş qərarlar nə qısamüddətli, nə də uzunmüddətli perspektivdə arzu olunan nəticəni verəcək.

# Avroparlamentin başabəla deputatı yenə gündəmdə

## *Rusiyaya yaxınlığı ilə seçilən Kartayzer Azərbaycana qarşı niyə qərəzlidir?*

**Ölkəmizə qarşı hər zaman qərəzli mövqeyi ilə xüsusi seçilən Avropa Parlamentinin Lüksemburqdan olan deputatı Fernan Kartayzer öz ampluasındadır. O, bu günlərdə Avropa İttifaqının xarici siyasət rəhbərliyinə bir daha müraciət edərək işğal dövründə əzəli torpağımızda mövcud olmuş keçmiş separatçı xunta rejiminin başçılarının azad edilməsi istiqamətində daha konkret və praktik addımlar atmağa çağırıb. O, öz aləmində xəbərdarlıq edib ki, bu məsələ Ermənistan–Azərbaycan sülh prosesində əldə olunmuş kövrək irəliləyişə zərbə vura bilər.**

"Armenpress"in Brüsseldəki müxbirinin verdiyi məlumata görə, Kartayzer Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasa ünvanladığı məktubda Bakıda keçirilmiş məhkəmə proseslərinin siyasi motivli olduğunu və qanunçuluq, eləcə də şəffaflıq standartlarına cavab vermədiyini iddia edib. Deputat Aİ-ni barələrində hökm çıxarılmış erməni millətindən olan bütün şəxslərin qeyd-şərtsiz azad olunmasına (?) yardım göstərmək üçün müdaxilə etməyə çağırıb, həmçinin beynəlxalq hüququn və insan hüquqlarının qorunmasının vacibliyini (?) qeyd edib.

Kartayzerin məktubuna cavab olaraq Kaya Kallasın ofisi Aİ-nin keçmiş qondarma rejimin "hərbi-siyasi rəhbərliyi"nin nümayəndələri üzərində Bakıda keçirilən məhkəmə proseslərini izlədiyini bildirib. Cavabda vurğulanıb ki, ədalətli məhkəmə araşdırması hüququ və saxlanma şəraitinin müvafiqliyi fundamental hüquqlardandır və Aİ Azərbaycanı beynəlxalq öhdəliklərinə əməl etməyə (?) çağırıb. Kallasın ofisi, həmçinin qeyd edib ki, Aİ tərəfləri 2025-ci il avqust ayından etibarən sülh prosesi çərçivəsində formalaşmış müsbət atmosferdən istifadə edərək, o cümlədən humanitar məsələlər də daxil olmaqla, həllini gözləyən problemlərin aradan qaldırılmasına çağırmaqda davam edir.

Qeyd edək ki, Kartayzer ötən ilin mart ayında da Bakıda saxlanılan ermənilərlə bağlı məsələni qaldırmışdı. "Armenpress"in şərhində əksini tapan fikirlər də diqqəti cəlb edir. Agentlik sonda bildirib ki, "Avropa Parlamenti Bakıda qanunsuz saxlanılan məhbusların dərhal geri qaytarılması məsələsini gündəmdə saxlamaqda və real nəticələrin əldə olunması üçün təzyiq göstərməkdə" (?) davam edir.

Avroparlament deputatının barələrində hökm çıxarılmış şəxslərlə bağlı budəfəki müraciəti, əslində, yeni məzmun daşımır. Bu, uzun illər Azərbaycan əleyhinə formalaşdırılmış birtərəfli yanaşmanın davamıdır. Lakin məsələni emosional çağırışlar yox, faktlar üzərindən dəyərləndirmək daha doğru olar. Çünki söhbət adi şəxslərdən getmir. Həmin şəxslər uzun illər ərzində Azərbaycanın suveren ərazilərində yaradılmış qanunsuz rejimin hərbi-siyasi rəhbərliyində təmsil olunublar. Onlar təkcə separatizmin simaları deyil, eyni zamanda, sülh və insanlıq əleyhinə, bütövlükdə bəşəriyyətə qarşı yönəlmiş cinayətlərin təşkilatçıları və icraçıları olublar. Xocalı, Qaradağlı, Meşəli soyqırımları da daxil olmaqla, on minlərlə azərbaycanlının öz doğma torpaqlarından qovulması, mülki əhaliyə qarşı hücumlar, əsir və girovlarla qeyri-insani rəftar, şəhər və kəndlərimizin dağıdılması kimi bütün bu müharibə cinayətləri illərlə formalaşdırılmış və idarə olunmuş siyasətin nəticəsi idi.

2023-cü ilin sentyabrında Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində Qarabağda qanunsuz silahlı birləşmələr tərk-silah edildi və həmin rejimin əsas simaları saxlanılaraq məsuliyyətə cəlb olundu. Bu, hansısa siyasi jest deyil, dövlətin öz suveren hüququnu və konstitusiya quruluşunu bərpa etməsi idi. Həmin şəxslər Azərbaycan qanunvericiliyinə uyğun şəkildə məhkəmə istintaqına cəlb olundular. Lüksemburqlu deputatın iddiasının əksinə olaraq, qeyd etmək lazımdır ki, onların məhkəmə prosesi açıq və şəffaf keçirilib. İctimaiyyət proses barədə dolğun məlumatlandırılıb. Təqsirləndirilən şəxslər vəkillərlə təmin olunublar. İttihamlar konkret faktlara, şahid ifadələrinə, sənədlərə və digər sübutlara əsaslanıb. İllər boyu toplanmış materiallar, zərərçəkənlərin ifadələri və beynəlxalq hüquq normaları çərçivəsində aparılan araşdırmalar söhbətin ağır cinayətlərdən getdiyini bir daha təsdiqlədi. Bu baxımdan "siyasi motiv" iddiaları reallıqla uzlaşmır. Burada məsuliyyət konkret əməllərə görə müəyyən edilib.

Unutmaq olmaz ki, yüz minlərlə azərbaycanlı 30 ilə yaxın müddətdə qaçqın və məcburi köçkün həyatı yaşayıb. Onların hüquqları illərlə pozulub. İndi soydaşlarımıza bunu yaşadanlar qanun qarşısında cavab verərkən bunu "humanitar məsələ" kimi təqdim etmək ədalət anlayışını təhrif etməkdir. Əgər beynəlxalq hüquq prinsipləri əsas götürülürsə, o zaman müharibə və insanlıq əleyhinə cinayət törətmiş şəxslərin məsuliyyətdən yayınması tələb oluna bilməz. Onların azadlığa buraxılması nə hüquqi, nə də mənəvi baxımdan mümkündür.

***(ardı 5-ci səhifədə)***

# Bakının sülh örnəyi: yeni postmünaqişə təcrübəsi

(əvvəli 1-ci səhifədə)




Əlbəttə, Azərbaycanın sülhyaratma missiyasından söz açarkən, konkret olaraq, ölkəmizin Ermənistanla barış gündəliyinin irəliyə doğru aparılması istiqamətində ortaya qoyduğu nümunəvi model vurğulanmalıdır. Söhbət qarşılıqlı iqtisadi faydaya əsaslanmış modeldən gedir. Elə bir model ki, sülhü labüdləşdirmək, onu qaçılmaza çevirmək, mümkün konfrantasiyalardan uzaq durmaq və riskləri minimallaşdırmaq qəyəsini daşıyır. Nəzərə alaq ki, yaşadığımız regionda uzun illər davam etmiş münaqişə məhz İlham Əliyev şəxsiyyətindəki böyük liderlik keyfiyyəti sayəsində həllini tapıb.

*

Sülh Şurası üçün dünyada qəbulolunma mühüm faktordur. Hazırkı durum bu mənada pozitiv düşünməyə əsas verir. Çünki qısa müddətdir yaradıldığına baxmayaraq, Şuraya 28 dövlət qoşulub. Rəsmi Vaşinqton isə Trampın təşəbbüsünü alternativ deyil, legitim platforma kimi təqdim etməyə çalışır. Bu yanaşma hazırkı beynəlxalq institutlarla, məsələn, BMT tipli strukturlarla rəqabət ehtimalını gündəmə gətirsə də, paralel mexanizm qismində faydalı nəticələrin əldə olunması mümkündür. Deməli, 28 rəqəminin artması istisna deyil. Üzv sayının artacağına dair pozitiv gözlənti, eyni zamanda, Sülh Şurası xüsusunda siyasi momentumun mövcudluğundan irəli gəlir. Hər halda, Azərbaycan dövləti də ölkəmizin qoşulduğu strukturun daha legitim platforma kimi özünü təsdiqləməsində maraqlıdır. Bu maraq rəsmi Bakının regional və qlobal sülh təşəbbüslərində rolunu artırmaq xəttinə, xarici siyasətində Qərb platformaları ilə əməkdaşlığını gücləndirmək məramına söykənir. Amma digər məqamlar da var ki, onlar barədə sonda söz açacağıq.

Bəli, hazırkı durum onu deməyə əsas verir ki, Sülh Şurası uğurlu inkişaf yolundadır. Qurum həm daxili auditoriyaya, həm də beynəlxalq tərəfdaşlara pozitiv siqnallar ötürür. Onun ilk iclası bu baxımdan yadda qaldı. Ən bariz pozitiv siqnal müəllifləri olan ölkələr sırasında Azərbaycan ön plandadır. Fikirimizi Trampın iclas zamanı bir neçə dəfə dövlətimizin başçısına xitab etməsi də təsdiqləyir.

Ümumən, Azərbaycanla yanaşı, Ermənistanın da Sülh Şurası gündəminə pozitiv siqnal verən tərəf olduğunu vurğulamalıyıq. Nəzərə alaq ki, tədbir çərçivəsində Prezident İlham Əliyev ölkənin baş naziri Nikol Paşinyanla görüşdü və onlar arasındakı əlsıxmanı Birləşmiş Ştatlar lideri də vurğuladı. Deməli, tərəflər Vaşinqtonda ötən ilin avqustunda imzaladıqları Birgə Bəyannamənin ruhuna və məntiqinə sadiqdirlər və görünən budur ki, onların sadiqlik xəttinin pozitiv səhnələrinin özü də Sülh Şurasının ali məramına xidmətdir.

*

Sülh Şurasının Vaşinqtondakı ilk iclasının gündəliyində dayanan məsələlərdən biri Qəzza ilə bağlı xüsusi maliyyə fondunun yaradılması, eləcə də bərpa-quruculuq işlərinin və humanitar missiyaların həyata keçirilməsi idi. Ümumən isə Şura Qəzzanın bərpası egidası altında yaradılıb. Yəni, söhbət orada barışın təmin olunması, idarəçilik, yenidənqurma və silahsızlaşdırma proseslərinin koordinasiyasından gedir. Prezident İlham Əliyev amerikalı həmkarına ölkəmizin Sülh Şurasında təmsilçilik razılığına dair məktubunda da vurğulamışdı ki, "Azərbaycan Respublikası Sülh Şurasına qoşularaq, onun Qəzzadakı münaqişənin sonlandırılması və uzunmüddətli münaqişədən əziyyət çəkən bütün tərəflərə daha təhlükəsiz və rifahlı gələcək qurulması kimi nəcib missiyasını paylaşacaq".

Onu da deyək ki, Birləşmiş Ştatlar administrasiyası Sülh Şurasını, ümumən, beynəlxalq münaqişələrin həllində rol oynaya biləcək platforma kimi təqdim və təbliğ edir. Qurumun BMT-nin və digər ənənəvi multilateral institutların roluna alternativ və ya tamamlayıcı struktura çevriləcəyinə dair düşüncələr də eyni təbliğatdan qaynaqlanır. Nəzərə alaq ki, Tramp Şuranı BMT Təhlükəsizlik Şurasından fərqli olaraq, daha çevik və ABŞ liderliyindəki bir orqanizm kimi gördüyünü açıqlayıb.

Aydındır ki, BMT-nin təhlükəsizlik təminatlarının bir o qədər işləmədiyi hazırkı dönəmdə çevikliyə ehtiyac var. Amma mövcud istiqamətdə həssas davranılması şərtdir və Azərbaycan bu məqamı ciddi şəkildə nəzərə alır. Başqa sözlə desək, Sülh Şurası ölkəmiz üçün hansısa qlobal konfrantasiyalar baxımından qütbləşmə platforması deyil. Ona görə də Prezident İlham Əliyev haqqında söz açdığımız məktubunda vurğulamışdı: "İnanıram ki, Sülh Şurası səmərəli beynəlxalq təşkilat olub, öz missiyasını uğurla yerinə yetirəcək. Sizin müdrik liderliyinizə və sülh quruculuğu səylərinizə səmimi təqdirimi qəbul edin. Sizə Sülh Şurasının Sədri vəzifənizdə uğurlar arzu edirəm".

*

O da məlumdur ki, Sülh Şurasının Qəzzada Sabitləşdirmə Qüvvələrinin yaradılması ideyası var. Bu ideya ilk dəfə Şarm əl-Şeyxdə ABŞ Prezidenti tərəfindən irəli sürülüb və Qəzza probleminin hərtərəfli həllinə yönəlmiş 20 maddəlik planın tərkib hissəsidir. Prezident İlham Əliyev isə bu il yanvarın 5-də yerli televiziya kanallarına müsahibədə Azərbaycanın Qəzzada yaradılması nəzərdə tutulan Sabitləşdirmə Qüvvələrinin tərkibinə qoşulmaq niyyətində olmadığını bəyan edib. Bu, barəsində söz açdığımız ölkəmizin Şuranı qlobal konfrantasiyalarda qütbləşmə platforması kimi görməmək məramının ifadəsidir.

Dövlətimizin başçısının müsahibəsində bildirdikləri, habelə onun Sülh Şurasının humanitar təmayüllü qurum missiyasına verdiyi önəmi əsaslandırması özünəməxsusdur: "Qəzza sektorunda vəziyyətə gəldikdə, zənnimizcə, kimin mandat verəcəyi və onun necə olacağı indiyədək aydın deyil. Bu, sülhməramlı əməliyyatlar, yaxud sülhün bərqərar olması - ingiliscə deyildiyi kimi, "peacekeeping" və ya "peace enforcement" olacaq. Bunlar iki ayrı-ayrı məfhumlardır. Təbii ki, biz ikinciyə hazır deyilik və hətta heç vaxt öz iştirakımızı nəzərdə tutmamışıq".

Rəsmi Bakı Sülh Şurasının Qəzzada Sabitləşdirmə Qüvvələrinin yaradılması ideyasına həm də ona görə dəstək vermək niyyətində deyil ki, ölkəmiz müharibədən yeni çıxıb və hərbi kontingentin başqa bir münaqişə zonasına göndərilməsi həssas məsələdir: "Amerikalı tərəfdaşlarımızın diqqətinə çatdırdığımız ikinci amil ondan ibarət idi ki, mənim ölkəm təcavüzdən zərər görüb, Birinci Qarabağ müharibəsində böyük qurbanlar verib. Bununla belə, az olmasına baxmayaraq, İkinci Qarabağ müharibəsində də qurbanlar olub. Azərbaycanın hər bir vətəndaşı bizim üçün qiymətlidir. Biz kiminsə naminə azərbaycanlıların həyatını və sağlamlığını riskə atmaq niyyətində deyilik".

Azərbaycan dövləti Sülh Şurasına münasibət zəminində regional prioritetlərin qorunmasını da vacib sayır və bu zaman mənəvi amillərə əsaslanır, indiyədək keçilmiş yola, daha doğrusu, həmin yolun ibrət paradiqmasına söykənir. Ölkəmizin yanaşmasındakı bütün amillər bir-birini tamamlayan sturuktura malikdir və bunu Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi fikirlər də təsdiqləyir: "Bizim başımız bəlada olanda öz taleyimizin hökmünə buraxılmışdıq. Heç kim bizi müdafiə etmirdi. O cümlədən Fələstinə bütün hörmətimə və dərdlərinə şərik olmağıma rəğmən. Axı, Fələstin də bizi elə də müdafiə etmirdi. Bəli, İslam Əməkdaşlıq Təşkilatının hamının dəstəklədiyi qətnamələri var idi. Biz buna görə bütün ölkələrə minnətdarıq, eynilə Azərbaycan da həm BMT-də, həm Qoşulmama Hərəkatında, həm də İslam Əməkdaşlıq Təşkilatında həmişə Fələstini və Fələstin dövlətinin yaradılmasını dəstəkləyib. Azərbaycanda Fələstinin səfirliyi də fəaliyyət göstərir, həm də Azərbaycanın maliyyə yardımı sayəsində. Ona görə də mənim mövqeyim həmişə ondan ibarət olub ki, ərəb ölkələrinin məsələlərini ərəb dövlətlərinin özləri həll etməlidir. İndiyədək dərindən inanıram ki, qeyri-ərəb müsəlman ölkələr parovozun önündə qaçmamalıdır. Bu, heç bir yaxşı nəticə verməz. Ərəb Liqası var, Ərəb Liqasının mövqeyi mövcuddur, o, yetərincə aydındır və biz buna uyğun hərəkət edirik. İslam Əməkdaşlıq Təşkilatının qərarları var və biz də, o cümlədən bu qərarları qəbul etmişik və buna əməl edirik. Ona görə də lazımsız fəallıq göstərmək və yenə də parovozun önündə qaçmaq o qədər də yaxşı məşğuliyyət deyil".

*

Sonda ümumiləşdirmə apararaq, əvvəldə anonsunu verdiyimiz məqama, yəni ölkəmizin Sülh Şurasında iştirak məqsədlərinə yenidən qayıdaq. Münaqişədən çıxmış Azərbaycan regional status-kvo yaradan dövlət ampluasındadır. Bu amplua beynəlxalq platformalarda ölkəmizin təhlükəsizlik istehsalçısı obrazını formalaşdırır. Şurada təmsilçilik isə Azərbaycanın postmünaqişə təcrübəsini ixrac oluna bilən siyasi kapitala çevirir. Yəni respublikamız regional məsələ ilə məhdudlaşan aktor statusundan çıxaraq, qlobal sülh müzakirələrinin iştirakçısı olur. Belə bir iştirakçılıq isə beynəlxalq miqyasda dövlətimizin çəkisini artıracaq və artırır.

Digər tərəfdən, Azərbaycanın Vaşinqtonun təşəbbüsü ilə yaradılmış Sülh Şurasında iştirakçılığı klassik ABŞ diplomatiyasından fərqli olaraq, daha çox lider mərkəzli, sürətli razılaşma və siyasi nəticəyönümlü Tramp adimistrasiyası ilə, belə demək mümkünsə, konqres–bürokratiya filtri olmadan birbaşa təmasları möhkəmləndirəcək. Bu, münasibətlərin institsionallaşdırılması nöqteyi-nəzərdən vacibdir. Nəzərə alaq ki, Azərbaycan–ABŞ dövlətlərarası əməkdaşlığındakı funksionallığın gücləndirilməsinə ehtiyac var.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Avroparlamentin başabəla deputatı yenə gündəmdə



### Ekspert rəyi



**Ramiyə MƏMMƏDOVA,**
**politoloq**

Avroparlamentdə ayrı-ayrı deputatların separatçı şəxslərlə bağlı səsləndirdiyi çağırışlar daha çox siyasi yanaşma təsiri bağışlayır. Halbuki burada söhbət konkret cinayət əməllərindən gedir. Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən istintaqa cəlb olunmuş və barələrində hökm çıxarılmış şəxslər illərlə davam etmiş silahlı qarşıdurma dövründə ağır əməllərdə ittiham olunurlar. Onların fəaliyyəti nəticəsində minlərlə insan həlak olub, yüz minlərlə azərbaycanlı öz yurd-yuvasından didərgin düşüb. Bu faktlar təkcə siyasi qiymətləndirmə deyil, konkret hüquqi sənədlər və ifadələrlə təsdiqlənir. 2023-cü ildə keçirilmiş antiterror əməliyyatından sonra həmin şəxslərin saxlanılması Azərbaycanın öz suveren ərazisində qanuni səlahiyyətlərini həyata keçirməsi idi. Başa çatan məhkəmə prosesləri açıq xarakter daşıyıb, təqsirləndirilən şəxslər müdafiə hüququ ilə təmin olunub və proses ictimaiyyət üçün qapalı olmayıb. Belə şəraitdə "siyasi motiv" iddiaları daha çox təzyiq aləti kimi görünür.

Digər tərəfdən, Fernan Kartayzerin mövqeyi onun əvvəlki siyasi davranışları fonunda dəyərləndirilməlidir. O, 2025-ci ildə Rusiyaya səfərinə görə Avropa Parlamentində təmsil olunduğu qrupdan uzaqlaşdırılıb. Bu addım onun Aİ daxilində etimad problemləri yaşadığını göstərir. Rusiyaya yaxın mövqeyi ilə seçilən siyasətçinin Cənubi Qafqaz məsələlərində də balanslı yanaşma sərgiləməsi çətin görünür.

(əvvəli 4-cü səhifədə)

Fernan Kartayzerin mövqeyi isə təsadüfi deyil. O, son illər Avropa İttifaqının ümumi siyasi xəttinə zidd çıxışları ilə diqqət çəkib. Kartayzer 2025-ci ildə Rusiyaya səfər etdiyinə görə Avropa Parlamentində təmsil olunduğu Avropa Mühafizəkarlar və İslahatçılar Qrupundan xaric edilib. Bu fakt onun siyasi kursu barədə kifayət qədər aydın təsəvvür yaradır. Avropada Rusiyanın Ukraynaya qarşı müharibəsi fonunda Kremlə yaxın mövqe sərgiləmək ciddi narazılıq doğurmuşdu.

Bununla yanaşı, Kartayzer daha əvvəl də Avropa İttifaqının vahid mövqeyinə qarşı çıxışları, Moskvaya münasibətdə yumşaq yanaşmanı müdafiə etməsi ilə seçilib. Onun bəyanatları bir çox hallarda Aİ-nin strateji maraqları ilə üst-üstə düşməyib. Bu baxımdan, Azərbaycanla bağlı səsləndirdiyi fikirlərin də obyektiv hüquqi qiymətləndirmədən çox siyasi mövqe xarakteri daşıdığı qənaəti yaranır.

Sülh prosesi həqiqətən də həssas mərhələdədir. Azərbaycan və Ermənistan arasında normallaşma istiqamətində real addımlar atılır. Belə bir vaxtda ağır cinayətlərdə ittiham olunan şəxslərin azad olunmasını tələb etmək regionda ədalətə deyil, cəzasızlıq mühitinə xidmət edə bilər. Davamlı sülh yalnız keçmişin cinayətlərinə hüquqi qiymət verildikdən sonra mümkündür. Əgər Avropa həqiqətən beynəlxalq hüquqa və insan haqlarına hörmət prinsipini əsas götürürsə, o zaman müharibə cinayətlərinin araşdırılmasına və ədalətli məhkəmə prosesinə də eyni həssaslıqla yanaşmalıdır.

***Səxavət HƏMİD***
***XQ***

# Dünənə və sabaha yaraşmayan hikkə

## *Şimal qonşumuzun əsəbi davranışları bu məntiqdən xəbər verir*

**Rusiyanın son hərəkətləri Azərbaycanla münasibətləri normal məcraya salmaq əvəzinə dost olmayan siyasət yürütməsinin təsdiqi sayıla bilər. Hər növ təzyiq kampaniyasının bütün parametrləri göz önündədir. Son hadisəni – Azərbaycanın Kiyev şəhərindəki səfirliyinin binasının raketlə vurulmasını da nəzərə alsaq, belə bir qənaət hasil olar ki, Kreml artıq açıq aqressiya müstəvisində hərəkətə keçib. Əgər əvvəllər Kreml öz mövqeyini yalnız siyasi ritorika, muzdlu politoloqlar və efirdən radikal çıxışlarla ifadə edirdisə, indi proses az qala hərbi-siyasi səviyyəyə qaldırılıb. Rusiya Dövlət Dumasının bəzi üzdəniraq deputatları, özünün anti-Azərbaycan fəaliyyəti ilə seçilən Vladimir Solovyov kimilərin dezinformasiyaya bürünmüş imperiya ambisiyalı təhdidlərinin davamı kimi Moskva artıq daha təhlükəli addımlar atmaq xəyalına düşüb.**



Bəlkə bunlar Azərbaycana qarşı casusluq edən və istintaqı davam edən bir qrup Rusiya vətəndaşına qarşı açılmış cinayət işinə xitam verilməsi, onların azadlığa buraxılması tələbinin Bakının yerinə yetirilməməsinin qisasıdır? Amma Kreml suları bu gün deyil iki il iki ay bundan əvvəl – sərnişin təyyarəmizi Qroznı səmasında vurandan sonra bulandırmağa başlamışdı. Həmin müdhiş qəza ilə bağlı rəsmi Moskvanın sözdə bir cür, əməldə isə başqa cür davranmasını hamımız vizual olaraq izlədik. Azərbaycan Prezidentinin siyasi qətiyyətini, çoxsaylı insan tələfatına səbəb olan aviaqəzanın təşkilatçılarının və icraçılarının məsuliyyətə cəlb edilməsini görən Rusiya rəhbərliyi, sanki, bunun əksini gözləyirmiş kimi davranmağa, "yumşaq güc"lə yanaşı, digər üsulları da dövriyyəyə buraxdı.

XQ Şimal qonşumuzun azərbaycanlı miqrantlara qarşı qeyri-qanuni, zorakılıqlarla müşayiət olunan təzyiq və təhdidləri barədə dəfələrlə yazıb. Ötən il iyunun 27-də səhər saatlarında Rusiyanın Yekaterinburq şəhərində Federal Təhlükəsizlik Xidməti azərbaycanlıların evinə basqın etdi, Ziyəddin və Hüseyn Səfərov qardaşları döyülərək öldürüldü. Basqın zamanı bəzi soydaşlarımız ağır bədən xəsarətləri aldılar, habelə 9 nəfər saxlanıldı. Daha sonra hüquq-mühafizə orqanları Şıxlinskilərə saxlanıldıqları zaman, guya, dövlət nümayəndəsinə qarşı zor tətbiq etmək maddəsi ilə cinayət işi açdı. Məlum cinayət işi üzrə iyulun 16-da Mutvalı Şıxlinski saxlanılaraq barəsində həbs-qətimkan tədbiri seçildi. Şahin Şıxlinski isə axtarışa verilib. Avqustun 2-də Şahin Şıxlinski də Moskvada saxlanılaraq Yekaterinburqa etap olundu.

Rusiyanın Yekaterinburq şəhərində Azərbaycan diaspor üzvlərinin və digərlərinin adlarının hallandığı cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. İttiham tərəfi hesab edir ki, təqsirləndirilən şəxslər 2001-ci ildə Yunis Paşayevin qətlinin təşkilində və 2010-cu ildə iş adamı Feyruz Şirinova qarşı sui-qəsd cəhdində iştirak ediblər. Prokuror Ural bölgəsində Azərbaycan diasporunun lideri Şahin Şıxlinskiyə 23 il müddətinə həbs cəzası istəyib. Bundan başqa, məhkəmə Akif Səfərovu 23, Ayaz Səfərovu 22, Kamal Səfərovu 18 il müddətinə azadlıqdan məhrum edib. Bakir və Məzahir Səfərovlara 13, Şücaəddin Rəcəbova isə 15 il həbs cəzası tələb olunub. Tələb olunan cəzaların ümumi müddəti 127 il edir. Ötən həftə məhkəmənin andlılar kollegiyasının Şıxlinski və digərləri barəsində verdiyi ittiham hökmündə onların əfvə layiq olmadıqları da qeyd olunub.

*

Son hadisələr onu deməyə əsas verir ki, Rusiya Azərbaycan və azərbaycanlılara qarşı həm ölkə daxilində, həm də kənarda, konkret olaraq Ukraynaya havadan hücumlarında təcavüzkarlıq, zorakılıq kursunu davam etdirir. Buraya Moskvanın aşkar iqtisadi sabotaj, diversiya sayıla biləcək hərəkətləri daxildir. Oxuculara xatırladaq ki, hələ ötən ilin yayında Odessa vilayətində SOCAR-a məxsus neft bazası Rusiya HHQ-si tərəfindən hücuma məruz qalmışdı. Ümumi tutumu 16 min kubmetr olan bu obyektin sıradan çıxarılması Azərbaycanın iqtisadi maraqlarına və enerji təhlükəsizliyinə qarşı yönəlmiş açıq təxribat idi. İkinci iqtisadi diversiya yenə Odessada Azərbaycanın neft bazasına qarşı törədildi. Ötən ilin avqustunda isə Rusiya Odessada Azərbaycan qazını Ukraynaya nəql edən qaz kompressor stansiyasına hava zərbələri endirdi. Göründüyü kimi, Rusiya Ukraynada Azərbaycana məxsus enerji obyektlərini məqsədyönlü şəkildə hədəfə alıb.

Azərbaycanın Kiyevdəki səfirliyinin binasına qarşı düzənlədiyi, ölkə başçımızın hiddətinə səbəb olmuş "hərbi əməliyyat" isə Rusiyanın sülhə və əməkdaşlığa meyil göstərmədiyinin, münasibətləri normallaşdırmağı arzulamadığının, yəni hikkəsinin təzahürüdür. Hikkənin isə sonda öz qabını sındıran tünd sirkə kimi, onu nümayiş etdirənin özünə ziyan vuracağı şəksizdir. Biz bunu heç bir qonşumuza arzulamırıq.

***İ.HƏSƏNQALA***
***XQ***

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Qəribə paradoksdur: Rusiya nədənsə Azərbaycanı özünə borclu bilir. Hələ müharibə dövründə Ermənistana bir milyard dollarlıq silah-sursat göndərdiyini unutmamışıq. Moskva Ermənistan ərazisindəki hərbi bazalarının qapılarını açaraq, onları hayların cəbbəxanasına çevirmişdi. Rusiyanın hərbi mütəxəssisləri həm peyklər, həm də kəşfiyyat qurumlarının vasitəsilə Ermənistana məlumatlar ötürürdülər. HHM qurğularının, radarların idarəetmə sistemləri rusların əlində idi. İndi hesab edirlər ki, əgər Azərbaycanın üzərinə hücum çəkməyiblərsə, deməli, Bakı onlara borcludur. Məlum təyyarə olayından sonra isə nə öz günahını boynuna alır, nə də münasib diplomatik davranış nümayiş etdirir. Yuxarıdan aşağı, yekəxana münasibəti görürük. Qanuni tələblərimizin qarşılığında hesab edirlər ki, Azərbaycana qarşı təzyiq və təhdid dilə ilə danışa bilərlər. Kiyevdəki səfirliyimizə PUA-larla zərbə endirilməsi, Ukraynadakı enerji emalı obyektlərimizin, qaz kəmərinin nümayişkaranə şəkildə vurulması ilə, guya, Bakıya narazılığını çatdırır.

O ki qaldı Azərbaycan diasporu nümayəndələrinə qarşı Rusiya polisinin və xüsusi təyinatlılarının hərəkətlərinə, bunun adı cinayətdir. Hətta cinayət törətmiş olsa belə, soydaşlarımızın ölüncəyə qədər döyülməsinə başqa nə ad vermək olar? Həmin ağır cinayəti törədənlərin heç biri hüquqi məsuliyyətə cəlb edilməyib. Deyəsən, barələrində iş açdıqları, məhkəmə qurduqları insanları isə dustaqxanada çürütməyi düşünürlər. Azərbaycanda isə Rusiyadan qaçıb gəlmiş və ölkəmizə qarşı separatçılıqla məşğul olan hayların məhkəməsi beynəlxalq hüquqa tam uyğun şəkildə aparıldı. Bu adamların bəziləri istintaqa çox şey danışa bilər. Misal üçün, Vardanyan 44 milyon dollar çirkli pulun yuyulması texnologiyasını aça bilər. Yəni Moskvanın Bakıdan gileylənməyə haqqı yoxdur.

# Gözlənilməz ssenarilər



## II MƏQALƏ

### Xaos astanasında lider seçimi

Mövcud vəziyyət real olaraq dünya siyasətinin xaosun astanasında olduğunu göstərir. Tarixi təcrübə göstərir ki, bu kimi məqamlarda liderlərin seçimi mürəkkəbləşmiş və riskləri xeyli artmış vəziyyətdən çıxış yolunun tapılmasında həlledici rol oynayır. Bu, məhz gözlənilməz ssenarilərə kollektiv liderlik məsuliyyəti ilə hazır olmaq deməkdir.

Prezident İlham Əliyevin geosiyasi və siyasi seçimi Cənubi Qafqazı xaosun astanasından döndərib yeni nizamlılıq istiqamətinə yönəltmişdir. Bu regiona yaxın olan bütün böyük dövlətlərin Cənubi Qafqaza konstruktiv siyasi prizmada yanaşmasına Azərbaycan Prezidentinin həmin seçimi ciddi təkan vermişdir.

Eyni zamanda, Azərbaycanın Qafqazda "sabitlik adası"na çevrilməsi bunun əsasında baş tutdu. İndi isə daha məsuliyyətli və geosiyasi əhəmiyyəti yüksək olan növbəti mərhələ başlayır. Yeni mərhələ daha geniş geosiyasi məkanda Azərbaycanın gözlənilməz ssenarilərə reaksiyası ilə xarakterizə olunmalıdır. Bunun üçün əvvəlcə, bir neçə suala cavab axtarılmalıdır.

Azərbaycanın milli maraqları baxımından bu mərhələnin başlıca xüsusiyyətləri nələrdən ibarətdir və kollektiv liderlik məsuliyyəti hansı keyfiyyətlərə malik olmalıdır?

### Mürəkkəb geosiyasi situasiyanın idarə edilməsi

Məsələ nəzəri politoloji aspektdə, ümumiyyətlə, mürəkkəb geosiyasi situasiyanın uğurlu idarə edilməsi probleminə bağlıdır. Cənubi Qafqazın hazırkı geosiyasi mənzərəsi prizmasında mürəkkəb situasiyanın idarə edilməsinin konkret əlamətləri vardır.

Hər şeydən öncə, nəzərə alınmalıdır ki, Azərbaycan bir neçə əsr sonra Cənubi Qafqazın siyasi, geosiyasi, iqtisadi və hərbi lideridir. Bu reallıq bütövlükdə regionda davamlı inkişafın və əməkdaşlığın ənənəvi modelini dəyişir. Regionumuzda gözlənilməz ssenarilərə hazır olmağın təməlində Azərbaycanın regional lider statusunun qəbul edilməsi mütləq şərtdir. Başqa variantda regional sabitlik, əməkdaşlıq və təhlükəsizlik arxitekturasının yaradılması şansı yoxdur. Avtomatik olaraq, region da gözlənilməz ssenarilərə hazır ola bilməz!

İkincisi, Cənubi Qafqazda gözlənilməz ssenarilərə hazır olmağın mühüm şərti kimi, Şuşa Bəyannaməsi, Azərbaycan-Rusiya strateji müttəfiqliyi, Azərbaycan-İran münasibətlərinin konstruktiv məcraya yönəlməsi, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma mərhələsinə qədəm qoyması və "C6+1" formulunun reallığa çevrilməyə başlaması dərk edilməli və praktiki siyasi-diplomatik fəaliyyətdə ciddi əks olunmalıdır.

Üçüncüsü, Azərbaycan-ABŞ strateji tərəfdaşlığının konkret fəaliyyət proqramı səviyyəsinə yüksəlməsi, Cənubi Qafqazda Avropa İttifaqı (Aİ), Yaxın Şərq ölkələri və Asiyanın böyük dövlətlərinin regiona münasibətlərinin yeni məzmun alması zərurətini ortaya qoyduğu qəbul edilməlidir. Bu şərt qlobal miqyasda, ümumiyyətlə, geosiyasi proseslərin dinamikası baxımından yeni maraqlı siyasi incə məqamları önə çıxarır. Onlar həm də Azərbaycanın regional miqyasda rolunun qəbul edilməsində və onun fonunda gözlənilməz ssenarilərə hazırlıq baxımında prinsipial əhəmiyyət daşıyır.

Vurğuladığımız məqamların hər birinin üzərində ayrıca dayanaq.

### Regional əməkdaşlıq və təhlükəsizlik arxitekturası

Müharibələrlə əhatə olunmuş bir regionda regional sabitlik, əməkdaşlıq və təhlükəsizliyin konseptual arxitekturasını necə yaratmaq olar? Siyasi-diplomatik anlamı böyük olan və eyni dərəcədə çətin həll edilən bir məsələdir. Lakin Azərbaycan Prezidentinin dərin düşünülmüş siyasi kursu bu vəzifənin öhdəsindən gəlmişdir. Bunun sayəsində Azərbaycan Respublikası regional liderliyini tam təsdiq etmişdir. Onun fakt kimi qəbul edildiyi məlumdur. Eyni zamanda liderliyi sübut edən konkret faktlar mövcuddur. Onlar üzərində dayanmaqla ümumilikdə Azərbaycanın regional liderliyini qəbul etməkdən başqa düzgün çıxış yolunun olmadığına tam əmin ola bilərik.

Burada bir mühüm nəzəri-konseptual məqamı vurğulamaq gərəkdir. Doğrudan da, müasir geosiyasi təlimlərdə bir neçə müharibə ssenarisi ilə əhatə olunmuş və müxtəlif istiqamətlərdən riskli və qeyri-müəyyən təsirlərin olması ehtimalı yüksək olan regionda daimi sabitlik, əməkdaşlıq və təhlükəsizlik platformasının hazırlanmasının təhlili yekunlaşmamışdır. Müxtəlif konseptual sistemlər irəli sürülür və hər biri də maraqlıdır.

Məsələn, son illər mürəkkəblik paradiqması, xaos nəzəriyyəsi, sinergetika, qeyri-səlis məntiq nəzəriyyəsi, insan zəkası+süni intellekt sintezi, postqeyri-klassik geosiyasi təlimlərin müxtəlif növləri (o sırada Çində formalaşan və qarşı tərəf üçün əlverişli vəziyyətin yaradılmasını əhatə edən, praktiki nəticəsi əsas sayılan çox maraqlı geosiyasi yanaşmanı vurğulamaq olar) intensiv işlənilir. Nəzəri mənzərəsi çox cazibədar və səmərəli görünən bütün bu yanaşmalar üçün bir ciddi problem vardır: onların praktiki səmərəsi olurmu və bu qiymətləndirməni necə adekvat ölçmək olar?

Bu kontekstdə hansı parametrləri əsas kriteriyalar kimi götürmək faydalı olar? Daha konkret səviyyədə regional sabitlik, əməkdaşlıq və təhlükəsizliyin davamlı (qalıcı) kriteriyaları hansılardır?

Belə suallara cavab axtarılır və hələlik dünya məsələyə "tərs baxış"dan – nəzəriyyədən praktikaya deyil, praktikadan nəzəriyyəyə keçid vasitəsi ilə yanaşmaq, mərhələsindədir. Yəni hər bir regionda praktiki olaraq sabitlik, əməkdaşlıq və təhlükəsizlik nümunəsi yaradan dövlətlərin təcrübəsi öyrənilir. İndi ABŞ başda olmaqla dünyanın güclü dövlətləri Azərbaycan Prezidentinin Cənubi Qafqazda yeni geosiyasi mühit yaratmasına məhz həmin prizmada yanaşmaqdadırlar.

Bunu uzun müddət qəbul etmək istəməsələr də artıq başqa səmərəli və real nəticəverici yolun olmadığını dərk etmişlər. Sülh Şurasında Azərbaycanın yeri və rolunun Donald Tramp tərəfindən geniş və həvəslə təqdim edilməsinin kökündə bu gerçəklik dayanır.

Belə alınır ki, Cənubi Qafqazda gözlənilməz ssenarilərə hazırlıq da daxil olmaqla fəlsəfi və politoloji səviyyədə regional sabitlik, əməkdaşlıq və təhlükəsizlik modelinin yaranmasında "Əliyev kriteriyaları" məsələsini dərindən araşdırmalı və onu konseptuallaşdırmalıyıq. Öncə, bir neçə konkret nümunədə Prezident İlham Əliyevin tutduğu mövqeyə və atdığı addımlara baxaq.

### 4 gözlənilməz situasiya

Biz, Azərbaycan Prezidentinin Cənubi Qafqazda sabitlik, sülh, barış, əməkdaşlıq və təhlükəsizliyin təmini istiqamətində fəaliyyətinin tam anlamda XXI əsrin tələblərinə uyğun siyasi təcrübə olduğuna əminik. Həmin siyasi təcrübənin ciddi konseptual əsasları vardır. Bu təcrübə ulu öndər Heydər Əliyevin siyasi məktəbinin təməl prinsiplərini özündə ehtiva edir. Onların sınağı birbaşa təcrübədə olmuşdur.

Azərbaycanın 1993-cü ildən başlayaraq, öncə düşdüyü dərin böhrandan qurtuluşu, sonra sabitliyin tam bərpası, siyasi-hüquqi islahatların davamlı aparılması (yeni Konstitusiya, Məhkəmə sistemində əsaslı dəyişikliklər, iqtisadi, sosial, energetik, infrastruktur layihələri, ideoloji sistemin inkişafı və s.), hərbi-müdafiə imkanlarının tədricən və davamlı genişləndirilməsi, beynəlxalq miqyasda nüfuzun artması və nəhayət, Avrasiyanın müasir tarixində ilk hadisə olan hərbi yolla ərazi bütövlüyünü bərpa və suverenliyi tam təmin etmək, postmüharibə mərhələsində əldə olunan bütün nəticələri saxlamaq və birmənalı sülh xəttini reallaşdırmaq gerçək faktlardır. Burada zərrə qədər də şişirtmə yoxdur, əksinə, müəyyən məqamlar unudula bilər.

Bu, bütöv bir proses deyilmi? Əgər hansısa təsadüf və ya əsassız məqam olsaydı, həmin proses hardasa mütləq qırılardı. Lakin o, nəinki regional miqyasda davam edir, hətta artıq ciddi təsirini regionlararası mühitə və oradan da qlobal səviyyəyə göstərməkdədir.

Və burada böyük siyasi və geosiyasi əhəmiyyəti olan bir özəllik də vardır: İlham Əliyev prezidentliyi dövründə demək olar ki, daim gözlənilməz ssenarilər ehtimalının yüksək olduğu şəraitdə işləmişdir. Vətən müharibəsindən öncə dəfələrlə gözlənilməz situasiyalar yaranmış və Azərbaycan lideri onları dövlətçiliyə, milli maraqlara uyğun həll etmişdir. Dörd nümunə göstərə bilərik.

Birincisi, 2008-ci ildə gözlənilmədən qlobal maliyyə böhranı yarandı və Rusiya-Gürcüstan müharibəsi alovlandı. Azərbaycan hər iki neqativ hadisəyə çevik reaksiya verdi – ölkənin iqtisadi sistemi, demək olar ki, zərər görmədi və Rusiya-Gürcüstan müharibəsi Azərbaycanı təsiri altına ala bilmədi. Əksinə, Bakı fəaliyyəti və tutduğu ədalətli mövqeyi ilə barışdırıcı rol oynadı.

İkincisi, XXI əsrin başlanğıcından Avropa İttifaqının siyasi səbatsız münasibətləri ucbatından Bakı-Brüssel xəttinin dərinliklərində ziddiyyətlər toplaşırdı. Bu, "Şərq Tərəfdaşlığı" Proqramı yaradılandan sonra yenə dərin qatlarda yeni səviyyəyə keçdi. Aydın oldu ki, Brüssel səmimi deyil və assosiativ üzvlük məsələsi ilə region dövlətlərini özünün tam təsiri altına almaq istəyir. Bu, mahiyyətcə Azərbaycan üçün gözlənilməz situasiya idi. Bu böhran vəziyyəti İlham Əliyev siyasi məharətlə Aİ üçün gözlənilməz situasiyaya çevirdi – assosiativ üzvlükdən imtina etdi və paralel olaraq yeni əməkdaşlıq paketi təklif etdi.

Hamı bilir: Brüssel öncə çox şıltaqlıq etdi, Ermənistanın təcavüzkarlığı faktorundan yararlanmağa çalışdı. Hətta 2015-ci ildə təşkilatın yeni xarici siyasət strategiyasında Azərbaycanın bu mövqeyinin davamlı ola biləcəyini nəzərə almamışdılar. Ancaq gözlənilməzlik məqamını tam qəbul etmişdilər. Bunu daha çox Vətən müharibəsində Azərbaycanın qələbəsinin yaratdığı nəticələri bir neçə il qəbul etmək istəməmələri göstərdi. Elə indi də Aİ bədnam müşahidə missiyasında israr edir, yeni kadrlar göndərir.

Üçüncüsü, 2013-cü ildən başlayan və hamı üçün gözlənilməz məqamları ilə seçilən Rusiya-Ukrayna münaqişəsi Azərbaycan üçün başqa bir sınaq istiqaməti olaraq qalmaqdadır. Rəsmi Bakı xarici siyasətində elə mövqe seçdi ki, münaqişə edən tərəflərin heç biri ciddi irad tuta bilmədi. Bu vəziyyət indi də davam edir. Azərbaycan rəhbərliyi vurğulanan münaqişənin demək olar ki, bütün neqativ təsirlərindən kənarda qala bildi.

Dördüncüsü, Azərbaycan üçün gözlənilməz olan hadisə Rusiyanın bizim mülki təyyarəni vurması oldu. Prezident İlham Əliyev həmişə olduğu kimi, bu hadisəyə də beynəlxalq hüquq, ədalətlilik, obyektivlik və ölkələr arasında sülh yaratmaq mövqeyindən yanaşdı. Təəssüf ki, Rusiya tərəfi başqa yolu seçdi. Lakin Azərbaycan Prezidenti həssas və gözlənilməz situasiyaya münasibətini dəyişmədi. Hadisə ilə bağlı Azərbaycan Prezidenti demişdir: "Faktlar isə ondan ibarətdir ki, Azərbaycanın mülki təyyarəsi Rusiya ərazisində, Qroznı şəhərinin yaxınlığında xaricdən zədə alıb və idarəetməni demək olar ki, itirib. Onu da bilirik ki, təyyarəmiz radioelektron mübarizə vasitələri tərəfindən idarəolunmaz vəziyyətə salınıb. Bu, təyyarəyə yetirilən birinci xətərdir".

Azərbaycan üçün gözlənilməz olan digər nümunələr və onlara dövlət başçısının reaksiyasını da göstərə bilərik. Ancaq vurğulanan nümunələr də göstərir ki, ölkə lideri hər bir növ gözlənilməz situasiyaya düşünülmüş və artıq təcrübədə müsbət nəticə verən münasibət bildirir. Həmin əsasda da konkret praktiki addımlar atır.

Azərbaycan liderinin istənilən gözlənilməz situasiyada səmərəli ola biləcək mövqe formalaşdırmağa imkan verən konseptual və praktiki kriteriyalarının mövcud olduğunu deməyə tam əsasımız vardır. Əlbəttə, onları dərindən tədqiq etmək fundamental yanaşma tələb edir. Öncə, konseptual səviyyədə həmin kriteriyaları müəyyənləşdirməyin çox çətin məsələ olduğunu da etiraf etməliyik. Lakin dövlət başçısının gözlənilməz situasiyaları həll etmək istiqamətində əldə etdiyi zəngin təcrübəsi bir sıra ümumi məqamlarının fəlsəfi təhlili müəyyən nəticələr əldə etməyə imkan verə bilər.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Mehriban Əliyeva Azərbaycan xanımlığının çağdaş zirvəsidir

## *O, xalqın mərhəmət ünvanı, dövlət başçımızın isə ən yaxın silahdaşıdır*



**2004-cü ildən bu günə qədər Mehriban Əliyeva Ulu öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidentidir. Heydər Əliyev Fondu onun rəhbərliyi ilə nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilmişdir. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Fondun təşəbbüsü ilə bir çox önəmli layihələrə, proqramlara start verilmişdir. Onların arasında "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı xüsusi qeyd edilməlidir. Məhz bu proqramın başlanması nəticəsində son 13 il ərzində ölkəmizdə üç mindən çox məktəb əsaslı təmir olunub və ya yenidən tikilmişdir.**

**Prezident İlham Əliyevin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Təhlükəsizlik Şurası üzvlərinə təqdim edilməsi mərasimindəki çıxışından.**

*21 fevral 2017-ci il.*

Doqquz il əvvəl keçirilmiş tədbirdə səsləndirilən fikirlər Mehriban xanımın qısa müddətdə həyata keçirdiyi layihələrin miqyası baxımından olduqca zəngin və əhatəli idi. Ancaq onun birinci vitse-prezident seçilməsindən sonrakı fəaliyyəti, sözün həqiqi mənasında, beynəlxalq aləmdəki xanım siyasətçilərin əksəriyyəti üçün əlçatmazdır.

O, işğaldan azad edilmiş ərazilərimizə əsgərlərdən sonra gedən ilk iki soydaşımızın biri idi. O zaman öndə cənab Ali Baş Komandan, yanında isə sirdaşı və əbədi silahdaşı olan Mehriban xanım getmişdi. Hamının yadındadır, həmin gün əksər mətbuat təmsilçiləri və ekspertlər yazırdılar ki, xanım siyasətçinin kartof əkilmiş kimi sıx-sıx basdırılan minalarla dolu əraziyə getməsi, sadəcə, cəsarətdən xəbər vermir, həm də dövlət başçısına sədaqətin ən ali nümunəsidir.

Cənab Prezident 2017-ci ilin bu günü xatırlatmışdı ki, Heydər Əliyev Fondunun mədəniyyətlə, incəsənətlə bağlı layihələri bizim mənəvi, tarixi, mədəni irsimizin qorunması işində əvəzolunmaz rol oynamışdır: "Bizim milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur. Azərbaycanda keçirilən muğam müsabiqələri artıq həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Bu, sadəcə olaraq sənət növü deyil, bu, bizim mədəni sərvətimizdir. Gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlər, ənənələr xüsusi rol oynayır. Bu baxımdan belə təşəbbüslər çox böyük ictimai məna daşıyır. Eyni zamanda, dünya miqyasında muğamın məhz Azərbaycan sənəti kimi təqdim olunmasında Heydər Əliyev Fondunun çox böyük rolu olmuşdur".

Elə isə başqa bir faktı xatırladaq. Yadımdadır, ötən il mayın 10-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışında iştirak edirdilər. Çox möhtəşəm tədbir idi. Qarabağın bütün görkəmli sənətkarları, xüsusən muğam ustadları həmin təntənəli tədbirə görə həm cənab Prezidentə, həm də Birinci vitse-prezidentə minnətdarlıq edirdilər. Hamı qeyd edirdi ki, işğaldan azad edilmiş ərazilərin bərpası cənab Prezidentin qətiyyət və prinsipiallığı nəticəsində mümkün olmuşdursa, Azərbaycan muğamına yeni həyat verilməsi, Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması, ölkənin digər rayonlarında da həmin mərkəzlərin ərsəyə gəlməsi bilavasitə Mehriban xanımın yorulmaz, məqsədyönlü fəaliyyətinin nəticəsidir.

Xatırladaq ki, Ağdam Muğam Mərkəzinin təməli 2023-cü ilin mayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulmuşdu. Hazırda muğamsevərlərin ixtiyarında olan mərkəzdə kafe, kinozal, kitabxana və iki rəqs zalı yaradılıb. Buradakı 474 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam konsertləri təşkil etmək üçün hərtərəfli şərait var. Mərkəzdə 15 dərs otağı, sərgi salonu, iclas zalı və digər otaqlar yaradılıb. Üstəlik, mərkəzin ərazisində 615 tamaşaçı tutumu olan açıq amfiteatr da inşa edilib.

Açılış tədbirində də qeyd edilmişdi ki, muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən görülən işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Fondun təşkilatçılığı və dəstəyi ilə bu istiqamətdə respublika və beynəlxalq əhəmiyyətli ənənəvi layihələr həyata keçirilir. Bu layihələrin nəticəsidir ki, Azərbaycan muğamı UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi mədəni irsinin şah əsərləri" siyahısına salınıb.

Ancaq tək bunlardırmı? Əsla yox. Ekspertlərin fikrincə, Mehriban xanım Azərbaycan xalqının, dövlətinin maraqlarını beynəlxalq aləmdə əks etdirməklə yanaşı, müasir Azərbaycan qadınının ictimai-siyasi obrazını da dünyaya tanıdır. Professor Elman Nəsirov yazır ki, ölkəmizin siyasi-iqtisadi, sosial-ictimai, mədəni-mənəvi tərəqqisində xüsusi yeri, xidmətləri olan Azərbaycanın birinci xanımı hazırda dünyada öz sözü, samballı nüfuzu olan lider qadın örnəyinə çevrilmişdir: " Mehriban xanım Əliyeva ölkəmizdə milli dövlətçilik institutunun formalaşmasına böyük töhfələr verən siyasi-mədəni rəhbər, çoxyönlü fəaliyyət meydanı ilə dünyada tanınan, qəbul edilən humanist xadimdir. Çağdaş Azərbaycan tarixinə onun adı artıq modern qadın rəhbər, fenomen qadın lider kimi yazılmışdır. 2016-cı il sentyabrın 26-da Konstitusiya islahatları ilə bağlı keçirilən referendumun nəticələrinə görə ölkədə Birinci vitse-prezidentlik institutu yaradılmışdır. Dövlət idarəçilik sistemində yeni təsisatın yaradılması Prezident İlham Əliyevin islahatlar kursunun təzahürüdür. Dövlət idarəçiliyində funksional vahid kimi Birinci vitse-prezidentlik institutunun yaradılması Azərbaycanın müasir demokratik simasının yeni və mütərəqqi əlamətidir. Ötən müddət ərzində əldə olunmuş müsbət nəticələri nəzərə alaraq, əminliklə qeyd oluna bilər ki, Birinci vitse-prezidentlik institutu idarəetmənin səmərəlilik və çevikliyini artırıb. Birinci vitse-prezidentlik institutunun təsis olunması demokratik dəyişikliklərə hüquqi əsaslar yaradılmasını özündə ehtiva edən siyasi islahatların tərkib hissəsidir".

Bəli, milli tariximizin şərəfli səhifələrini yazmış xanım soydaşlarımız çox olmuşdur. Ancaq onların biri qəhrəmanlığı, biri diplomatiyası, başqa biri isə idarəetmədəki uğurlu nəticələri ilə yaddaşlara yazılmışdır. Mehriban xanımın isə çoxşaxəli, hərtərəfli fəaliyyəti onu Azərbaycan tarixinə yazmaqdadır. Xalqımız ona – milli xanımlığımızın ləyaqət nümunəsi, mədəniyyətimizin himayədarı, həssas təbəqələrdən olan soydaşlarımızın mərhəmət ünvanı, ən başlıcası, cənab Prezidentin yorulmaz silahdaşı olan Mehriban xanım Əliyevaya sidq-ürəklə inanır və ondan daha möhtəşəm uğurlar arzulayır.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Süni intellektin iqtisadi hədəfləri

**Süni intellekt artıq dünyada texnoloji yenilik anlayışını geridə qoyaraq dövlət idarəçiliyinin və iqtisadi inkişafın əsas istiqamətlərindən birinə çevrilib. Azərbaycan da bu qlobal prosesdə sistemli yanaşma sərgiləyir. Bu yanaşmanın əsasını Prezident İlham Əliyevin 19 mart 2025-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası təşkil edir.**

Azərbaycanda süni intellekt sahəsində həyata keçirilən islahatlar, 2025–2028-ci illər üçün müəyyənləşdirilmiş strateji hədəflər və bu istiqamətdə görülən işlər barədə **rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Saməddin Əsədovla** həmsöhbət olduq. Nazir müavini süni intellektin dövlət idarəçiliyində tətbiqi, iqtisadi təsirləri, insan kapitalının inkişafı və beynəlxalq əməkdaşlıq imkanları ilə bağlı məsələlərə aydınlıq gətirdi.

Onun sözlərinə görə, qlobal miqyasda süni intellektin inkişafı müxtəlif modellər üzrə formalaşır. Kanada və Avropa ölkələri daha çox tədqiqat və etik tənzimləmə mexanizmlərinə, ABŞ innovasiya ekosisteminə, Çin isə genişmiqyaslı praktiki tətbiqlərə üstünlük verir.

Azərbaycanın yanaşması isə bu modellərin balanslaşdırılmış sintezinə əsaslanır. Biz həm insan kapitalının inkişafını, həm dövlət idarəçiliyində tətbiqi, həm də biznes mühitinin dəstəklənməsini paralel prioritetlər kimi müəyyən etmişik. Strategiyanın məntiqi də məhz bu kompleks yanaşma üzərində qurulub.

Strategiyanın əsas məqsədi süni intellekti ayrı-ayrı texnoloji həllər kimi deyil, dövlət idarəçiliyinin, iqtisadiyyatın və insan kapitalının transformasiyasını təmin edən sistemli alət kimi formalaşdırmaqdır. Burada institusional hazırlıq, idarəetmə bacarıqları və peşəkar kadr potensialının gücləndirilməsi mühüm yer tutur.

Beləliklə, süni intellekt sosial-iqtisadi inkişafı sürətləndirən, qərarvermə proseslərini daha səmərəli edən və rəqəmsal dövlət quruculuğunu gücləndirən əsas mexanizmlərdən biri kimi nəzərdə tutulur: “Cənab Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycanın hədəfi süni intellekt sahəsində regional mərkəzə çevrilməkdir. Bu Strategiya həmin məqsədə nail olmaq üçün vahid və sistemli çərçivə yaradır. “Azərbaycanın yeni rəqəmsal arxitekturası” adlı vahid fəaliyyət planına dair müşavirədə də süni intellektin rəqəmsal transformasiyada aparıcı rolu xüsusi vurğulandı. Bu sahədə fəaliyyətin əlaqələndirilməsini Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir”.



Saməddin Əsədov vurğuladı ki, süni intellektin həm dövlət idarəçiliyində, həm də iqtisadiyyatın müxtəlif sahələrində geniş şəkildə tətbiq olunması planlaşıdırılır. Dövlət idarəçiliyində əsas hədəf qərarvermənin dəqiqliyini artırmaq, idarəetmə proseslərini daha səmərəli və şəffaf təşkil etmək, vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətini yüksəltməkdir.

Bu çərçivədə məlumatların idarə edilməsi mexanizmləri təkmilləşdirilir, Təbii Dil Emalı texnologiyalarının tətbiqi genişləndirilir. İlkin mərhələdə həmin texnologiyaların beş pilot dövlət xidmətində sınaqdan keçirilməsi planlaşdırılır.

Artıq bu istiqamətdə konkret nəticələr də əldə olunub. Ötən il Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Ədliyyə Nazirliyi ilə əməkdaşlığı çərçivəsində hazırlanmış “E-qanun.ai” platforması istifadəyə verilib. Süni intellekt əsaslı bu həll hüquqi sənədlər və qanunvericilik bazasında effektiv axtarış aparmağa, mətnlərin avtomatlaşdırılmış təhlilini həyata keçirməyə və istifadəçilərə operativ cavablar təqdim etməyə imkan yaradır. Platforma Strategiyada nəzərdə tutulan Təbii Dil Emalı texnologiyalarının tətbiqinin praktiki nümunələrindən biridir.

İqtisadiyyat sahəsində isə süni intellektin tətbiqi üçün prioritet sektorların müəyyənləşdirilməsi nəzərdə tutulur. Kənd təsərrüfatı, səhiyyə, nəqliyyat, təhsil və digər sahələr bu baxımdan əsas istiqamətlər kimi seçilib. Ümumi hədəf süni intellekti real iqtisadi və sosial dəyər yaradan, məhsuldarlığı artıran praktik alətə çevirməkdir.

Nazir müavini süni intellektin geniş tətbiqi üçün yalnız texnoloji imkanların deyil, həm də aydın qaydaların mövcudluğunun vacibliyindən də danışdı. Qeyd etdi ki, bu səbəbdən Strategiya çərçivəsində hüquqi və normativ bazanın formalaşdırılması xüsusi istiqamət kimi müəyyən edilib.

Hazırda süni intellekt tətbiqlərində şəffaflığın, məlumatların məxfiliyinin və etik prinsiplərin qorunmasını təmin edən mexanizmlərin yaradılması üzərində iş aparılır. Məqsəd dövlət və özəl sektorda süni intellektdən istifadə zamanı vahid yanaşmanın formalaşdırılmasıdır: “Bu istiqamətdə artıq konkret nəticələr də mövcuddur. Süni intellekt üzrə 8 milli dövlət standartı beynəlxalq standartlara uyğun hazırlanaraq təsdiq edilib, onlardan 4-ü 2025-ci ildə qəbul olunub. Həmin standartlar tətbiqlərin keyfiyyətinin yüksəldilməsinə, təhlükəsizliyin təmin edilməsinə və dövlət qurumlarında vahid metodologiyanın tətbiqinə xidmət edir”.

Saməddin Əsədov süni intellekt ekosisteminin inkişafı üçün dövlət-özəl sektor əməkdaşlığı əsas prioritetlərdən biri olduğunu vurğulayaraq məqsədin innovasiyalar üçün əlverişli biznes mühiti yaratmaq və yerli təşəbbüsləri stimullaşdırmaqdan ibarət olduğunu diqqətə çatdırdı: “Bu istiqamətdə yerli və xarici investisiyaların cəlb edilməsi, sahibkarlıq subyektlərinə maliyyə və institusional dəstəyin gücləndirilməsi, eləcə də süni intellekt sahəsində pilot layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Tədbirlər Planına uyğun olaraq, süni intellekt sahəsində fəaliyyət göstərən azı 50 sahibkarlıq subyektinə güzəştli kreditlərin verilməsi planlaşdırılır. Eyni zamanda texnologiya parklarına və sənaye zonalarına bu sahədə çalışan yeni rezidentlərin cəlb edilməsi də əsas hədəflərdəndir.”

Bütün bu addımların məqsədi yerli həllərin yaranmasını sürətləndirmək, startapların inkişafını dəstəkləmək və süni intellekt sahəsində rəqabətqabiliyyətli innovasiya mühiti formalaşdırmaqdır.

Məlumdur ki, Strategiyada insan kapitalının inkişafı xüsusi yer tutur. Bu istiqamətdə atılan addımlar barədə bildirdi ki, süni intellekt texnologiyalarının səmərəli tətbiqi yalnız müasir infrastrukturla deyil, həm də bu texnologiyaları anlayan və idarə edə bilən peşəkar kadrlarla mümkündür.

Bu məqsədlə süni intellekt üzrə təhsil proqramları genişləndirilir, yeni ixtisaslar formalaşdırılır və mövcud kadr potensialının gücləndirilməsi istiqamətində sistemli tədbirlər həyata keçirilir. Universitet-sənaye əməkdaşlığının inkişafı və praktik yönümlü təlimlərin təşkili də bu prosesin mühüm tərkib hissəsidir.

Bu sahədə əsas institusional mexanizmlərdən biri Milli Süni İntellekt Mərkəzidir. Mərkəz tədqiqatların təşviqi, kadr hazırlığı və süni intellekt həllərinin tətbiqi istiqamətində fəaliyyət göstərərək rəqəmsal transformasiya prosesinə dəstək verir.

Mərkəzin təşəbbüsü ilə ötən il yaradılmış Süni İntellekt Akademiyası isə insan kapitalının inkişafı üçün əsas platformalardan biridir. Hazırda Akademiyada rəqabətli seçim əsasında qəbul olunmuş tələbələr intensiv proqramlar üzrə təhsil alırlar. Növbəti mərhələdə süni intellekt mühəndisləri, data mühəndisləri və məhsul menecerlərinin hazırlanması planlaşdırılır.

Eyni zamanda həm dövlət, həm də özəl sektorda qərarverici səviyyədə institusional bacarıqların gücləndirilməsi məqsədilə rəhbər heyət üçün nəzərdə tutulmuş “AI for Managers” və “AI Leadership” proqramları həyata keçirilir. Bu proqramlar vasitəsilə süni intellektin imkanları, riskləri və məsuliyyətli tətbiqi ilə bağlı zəruri bilik və bacarıqlar formalaşdırılır.

Beləliklə, insan kapitalının inkişafı texniki kadrlar, idarəetmə heyəti və akademik mühit üzrə paralel şəkildə həyata keçirilir. Bu isə Strategiyanın uğurlu icrası üçün möhkəm zəmin yaradır.

Saməddin Əsədov bildirdi ki, süni intellekt qlobal miqyasda sürətlə inkişaf edən sahədir və bu istiqamətdə beynəlxalq təcrübənin öyrənilməsi, qabaqcıl texnologiyalara çıxış imkanlarının genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, Azərbaycan beynəlxalq əməkdaşlıq xəttini ardıcıl və sistemli şəkildə genişləndirir.

Nazir müavini qeyd etdi ki, bu baxımdan mühüm addımlardan biri 2025-ci ilin avqustunda Azərbaycan Respublikası ilə ABŞ arasında imzalanmış Anlaşma Memorandumudur. Həmin sənəddə süni intellekt üzrə tərəfdaşlığın inkişafı ikitərəfli əməkdaşlığın əsas istiqamətlərindən biri kimi müəyyən edilib. O vurğuladı ki, nazir Rəşad Nəbiyevin rəhbərliyi ilə ABŞ-a həyata keçirilən səfər də bu razılaşmaların praktik müstəviyə keçidinə xidmət edib. Görüşlər zamanı süni intellekt və rəqəmsal inkişaf sahələrində birgə layihələrin icrası, bilik mübadiləsi və təcrübə paylaşımı imkanları ətraflı müzakirə olunub.

Saməddin Əsədov diqqətə çatdırdı ki, beynəlxalq əməkdaşlığın coğrafiyası yalnız ABŞ ilə məhdudlaşmır. 2025-ci il ərzində Çin, Koreya, Yaponiya və digər ölkələrin rəsmi qurumları, eləcə də texnologiya şirkətləri ilə aparılan danışıqlarda süni intellekt sahəsində yeni tərəfdaşlıq imkanları geniş şəkildə nəzərdən keçirilib.

Onun sözlərinə görə, növbəti mühüm addım nazir Rəşad Nəbiyevin İsrailə səfəri çərçivəsində atılıb. Fevralın 3-də İsrail Baş nazirinin Aparatının Milli Süni İntellekt Direktorluğu ilə imzalanmış Anlaşma Memorandumu qabaqcıl süni intellekt modellərinin hazırlanması və tətbiqini, eksperimental laboratoriyanın və yüksək məhsuldarlıqlı hesablama infrastrukturunun yaradılmasını nəzərdə tutur. Eyni zamanda, sənəd ixtisaslı kadr potensialının formalaşdırılması, akademik tədqiqatların dəstəklənməsi və dövlət-özəl sektor tərəfdaşlığının təşviqi kimi istiqamətləri də əhatə edir.

Nazir müavini vurğuladı ki, kadr hazırlığı, texnoloji bilik mübadiləsi, birgə layihələrin icrası və innovativ həllərin tətbiqi beynəlxalq əməkdaşlıq siyasətinin əsas prioritetləridir. Bu əlaqələr qabaqcıl texnologiyaların ölkəmizdə tətbiqinə, yerli mütəxəssislərin beynəlxalq təcrübədən yararlanmasına və Strategiyanın daha səmərəli icrasına mühüm töhfə verir.

Strategiyanın icrası ilə bağlı nəticələrə toxunan Saməddin Əsədov bildirdi ki, artıq ilkin göstəricilər müsbət dinamika nümayiş etdirir. O, “Oxford Insights” beynəlxalq tədqiqat mərkəzinin “Hökumətlərin Süni İntellektə Hazırlıq İndeksi”ni xüsusi qeyd etdi. 2025-ci ilin hesabatına əsasən, Azərbaycan əvvəlki illə müqayisədə 41 pillə irəliləyərək 111-ci yerdən 70-ci yerə yüksəlib.

Nazir müavini bu nəticəni institusional islahatların, hüquqi bazanın formalaşdırılmasının və insan kapitalının inkişafına yönəlmiş tədbirlərin real təsiri kimi qiymətləndirdi. Onun sözlərinə görə, qarşıdakı mərhələdə əsas hədəf əldə olunan dinamikanı qorumaq və süni intellekti dayanıqlı inkişafın, rəqabətqabiliyyətli iqtisadiyyatın və səmərəli dövlət idarəçiliyinin aparıcı mexanizmlərindən birinə çevirməkdir.

*Söhbəti qələmə aldı:*
***Nurlan ABDALOV***
***XQ***

# Səngəçal terminalının enerji sistemi yenidən qurulur



**Dünyanın ən iri neft-qaz ixracı mərkəzlərindən sayılan Səngəçal terminalının enerji təchizatı sistemi yenidən qurulur. Məlum olduğu kimi, 2025-ci il iyunun ilk günlərində keçirilən Bakı Enerji Həftəsi çərçivəsində investorlar Səngəçal terminalının elektrikləşdirilməsi layihəsini (STEL) təsdiqləyiblər. Layihəyə əsasən, terminalın əsas qurğuları elektrik enerjisi hesabına fəaliyyət göstərəcək.**

Ümumilikdə isə, ötən il Səngəçal terminalının elektrikləşdirilməsi layihəsi ilə bağlı 3 əsas müqavilə imzalanıb. Hazırda həmin müqavilələr üzrə iş həcminə daxil olan fəaliyyətlər, o cümlədən mühəndis-layihələndirmə, təchizat, quraşdırma və tikinti işləri təhlükəsiz şəkildə və qrafikə uyğun olaraq davam edir.

Artıq fəal tikinti mərhələsində qədəm qoyan STEL layihəsinin dəyəri 230 milyon dollar təşkil edir. İki mərhələdə həyata keçiriləcək işlərin isə 2028-ci ildə başa çatdırılacağı planlaşdırılır. STEL layihəsi Səngəçal terminalının operatoru olan bp şirkəti tərəfindən həyata keçiriləcək və idarə ediləcək. Layihə terminalın dövlət elektrik şəbəkəsinə qoşulmasını təmin edəcək. Bunun üçün terminal ərazisinin həm daxilində, həm də ondan kənarda yeni obyektlər, o cümlədən yeni 220/110 kilovoltluq elektrik yarımstansiyası inşa ediləcək.

Xatırladaq ki, hazırda terminalın elektrik enerjisinə olan tələbatını ödəmək üçün 7 qaz turbinindən istifadə edilir. Elektrikləşdirilmədən sonra turbinlər mərhələli şəkildə demontaj olunacaq ki, bu da istifadə edilməyən yanacaq qaz həcmlərinin ixraca yönəldilməsinə imkan yaradacaq. Ümumilikdə isə, Səngəçal terminalının elektrikləşdirilməsi layihəsini Azərbaycanın karbon emissiyalarının azaldılmasına yönəlik təqdirəlayiq addım kimi də dəyərləndirmək olar. Belə ki, enerji sistemdən veriləcək elektrik enerjisi daha az karbon sərfiyyatlı olduğu üçün terminaldakı neft-qaz əməliyyatlarından yaranan istixana qazları elektrikləşdirilmə nəticəsində azalacaq ki, bu da Xəzər regionunda emissiyaların azaldılmasına gətirib çıxaracaq.

STEL layihəsi Cəbrayıl rayonunda 240 meqavatlıq günəş elektrik stansiyasının tikintisini nəzərdə tutan “Şəfəq” günəş layihəsi ilə “virtual enerji ötürmə mexanizmi” adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəlidir. Bu mexanizmə əsasən, “Şəfəq” stansiyasında istehsal ediləcək təmiz elektrik enerjisi Cəbrayıl rayonunun ərazisində “AzərEnerji” ASC-yə təhvil veriləcək. “AzərEnerji” isə eyni həcmdə elektrik enerjisini Bakı yaxınlığında yerləşən Səngəçal terminalına ötürəcək. Hazırkı proqnozlara və planlara əsasən, “Şəfəq” və STEL layihələri birlikdə Səngəçal terminalının gələcək istismar dövründə terminal əməliyyatlarından yaranan emissiyaların, təxminən, 50 faiz azaldılmasına imkan yaradacaq.

“bp-Azərbaycan” şirkətindən verilən məlumata əsasən, 2025-ci ilin iyun ayında yekun investisiya qərarı qəbul edildikdən sonra “Şəfəq” layihəsi üzrə biri mühəndislik, təchizat və tikinti xidmətləri üzrə bütün iş həcmini, eləcə də obyektin ilk iki il ərzində istismar və texniki xidmət işlərini əhatə edən, digəri isə modul təchizatı üçün olan 2 əsas müqavilə imzalanıb. Həmin müqavilələr çərçivəsində layihə sahəsində hazırlıq tədbirləri tamamlanaraq tikinti işlərinə start verilib. Bununla yanaşı, modul təchizatı üzrə işlərə də başlanılıb və ilk panellər avqust ayında uğurla əraziyə çatdırılıb.

İlin son rübündə “Şəfəq” günəş layihəsi üzrə tikinti işləri qrafikə uyğun aparılıb. Tikinti işlərinin isə 2027-ci ilin ortalarına qədər davam edəcəyi planlaşdırılır. Bu işlərin aparılmasında yerli resurslardan maksimum dərəcədə istifadə etməyə xüsusi diqqət veriləcək. Tikintinin pik dövründə layihə çərçivəsində 400-ə yaxın iş yerinin yaradılacağı gözlənilir.

Yeri gəlmişkən, Bakıdan 45 kilometr cənubda yerləşən Səngəçal terminalı 28 ildən çoxdur ki, Azərbaycanın neft sənayesinə xidmət göstərir. Ümummilli lider Heydər Əliyevin yeni neft strategiyasının təntənəsi olan bu terminal dünyanın böyük neft-qaz ixracı mərkəzlərindən biridir. Müasir sənaye şəhərciyini xatırladan Səngəçal terminalında xam neftin qəbulu üçün nəhəng çənlər, baş nasos stansiyası, separatorlar, emal qurğuları və idarəetmə məntəqəsi fəaliyyət göstərir.

Xəzər dənizində quraşdırılmış nəhəng qurğuların, ən müasir texnologiyaların imkanları və fədakar neftçilərin gərgin əməyi sayəsində hasil edilən karbohidrogenlər sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına nəql olunur. Eyni zamanda, bura fiber-optik rabitə kabelləri, sahildən 187 kilometr məsafədə yerləşən dəniz yataqlarından neft və qaz kəmərləri çəkilib. Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri, Qərb ixrac boru kəməri (Bakı–Supsa), Şimal ixrac boru kəməri (Bakı–Novorossiysk), Cənubi Qafqaz boru kəməri (CQBK), Cənub Qaz Dəhlizi, eləcə də SOCAR-a məxsus qaz kəməri də öz başlanğıcını məhz buradan–Səngəçal terminalından götürür.

1997-ci il noyabr ayının 12-də ulu öndər Heydər Əliyevin iştirakı ilə istifadəyə verilən Səngəçal terminalı ilk vaxtlar yalnız “Çıraq” neftini ixrac etmək üçün layihələndirilib. “Azəri” və “Dərinsulu Günəşli” yataqlarının istismara verilməsi ilə başlanan böyük neft hasilatı isə terminalın genişləndirilməsinə zərurət yaradıb. Bu məqsədlə 2002-ci il fevralın 20-də Səngəçal terminalının genişləndirilməsi proqramının icrasına başlanılıb. “Azfen-Tekfen” Azərbaycan–Türkiyə alyansının podratçısı olduğu Səngəçal terminalının genişləndirilməsi proqramı isə 2007-ci ildə tamamlanıb.

Ötən illər ərzində Səngəçal terminalı bir çox əlamətdar hadisələrə şahidlik edib. Belə ki, 2002-ci il sentyabrın 18-də ulu öndər Heydər Əliyevin, eləcə də Türkiyə və Gürcüstanın dövlət başçılarının iştirakı ilə burada üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəmərinin təməli qoyulub. 2005-ci il mayın 25-də isə Azərbaycan Prezidenti İlham Əliyevin, həmçinin Gürcüstan və Türkiyənin dövlət başçılarının iştirakı ilə terminaldan xam neftin BTC-yə vurulmasına başlanılıb.

Xəzərin Azərbaycan sahilindən başlayaraq Avropanın dərinliklərinədək uzanan 3500 kilometrlik Cənub Qaz Dəhlizinin də təməli 2014-cü il sentyabrın 20-də məhz Səngəçal terminalında qoyulub. 2018-ci il mayın 29-da isə terminal bu nəhəng layihənin rəsmi açılış mərasiminə ev sahibliyi edib. Hər iki tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev və Avropanın energetika sahəsinə rəhbərlik edən şəxslər iştirak ediblər.

Səngəçal terminalının texniki emal sistemlərinin gündəlik gücü hazırda 1,2 milyon barel neft və kondensat, “Şahdəniz” qazı üçün, təqribən, 81 milyon standart kubmetrdir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik, təxminən, 100 milyon standart kubmetrdir. Ötən il terminaldan BTC vasitəsilə 209 milyon barel neft və kondensat nəql edilib. İl ərzində terminaldan, həmçinin gündəlik orta hesabla, təxminən, 74,4 milyon kubmetr “Şahdəniz” qazı ixrac olunub. Qaz buradan Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsin sistemi də daxil olmaqla, əsasən Cənubi Qafqaz Boru Kəməri və terminalın qaz emalı obyektlərini “Azəriqaz”ın qazpaylama sistemi ilə birləşdirən Azərbaycana məxsus qaz kəməri ilə ixrac edilir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Özəlləşdirmə və icarə gəlirləri artıb

**Cari ilin yanvar ayında İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən keçirilmiş 4 hərracda 29 nəqliyyat vasitəsi özəlləşdirilib. Qurumdan verilən məlumata əsasən, ilin ilk ayında özəlləşdirmədən dövlət büdcəsinə daxilolmalar 26,1 milyon manat təşkil edib. Bu da 2025-ci ilin eyni dövrü ilə müqayisədə 4,9 milyon manata yaxın və ya 23 faiz artım deməkdir.**




Bununla yanaşı, Dövlət Xidməti tərəfindən yanvar ayı ərzində 51-i qeyri-yaşayış və 405-i torpaq sahəsi üzrə olmaqla 456 yeni icarə müqaviləsi bağlanılıb. Hesabat dövründə daşınmaz dövlət əmlakının (qeyri-yaşayış və torpaq sahələrinin) icarəsindən büdcəyə 4,9 milyon manat vəsaitin ödənilməsi təmin olunub. Bu isə əvvəlki ilin eyni dövrünə nisbətə 48 faiz artım deməkdir.

Beləliklə, bu ilin yanvar ayı ərzində dövlət əmlakının özəlləşdirilməsindən və icarəsindən büdcəyə, ümumilikdə, 31 milyon manat vəsait daxil olub ki, bu da 2025-ci ilin eyni dövrü ilə müqayisədə 6,5 milyon manata yaxın və ya 27 faiz çoxdur.

# 54 rayonun fermerlərinə aqrar sığorta ödənilib

**Azərbaycanda dövlət dəstəyi ilə həyata keçirilən aqrar sığorta mexanizmi əkin sahələrini, heyvandarlıq və balıqçılıq təsərrüfatlarını çoxsaylı risklərdən qoruyur. Həmin risklər nəticəsində təsərrüfatlara dəyən zərər isə Aqrar Sığorta Fondu tərəfindən qarşılanır. Artıq uzun illərdir ki, ölkədə uğurla tətbiq edilən aqrar sığorta mexanizmindən bütün fermer və təsərrüfatlar faydalanırlar.**




Aqrar Sığorta Fondunun məlumatına görə, 2025-ci ilin nəticələrinə əsasən, ölkənin 54 rayonunda, ümumilikdə, 9,2 milyon manat məbləğində sığorta ödənişləri həyata keçirilib. Ötən il bitkiçilik məhsulları ilə bağlı baş verən zərərlər üzrə ölkənin 51 rayonunda ümumi məbləği 8,8 milyon manat olan ödənişlər həyata keçirilib. İl ərzində Zərdab, Astara, Oğuz, Abşeron, Siyəzən, Xızı, Sabunçu və Cəbrayıl rayonlarında, eləcə də ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının Babək və Şahbuz rayonlarında sığorta ödənişləri edilib.

Bununla yanaşı, 2025-ci ildə heyvandarlıq təsərrüfatlarında baş vermiş hadisələr üzrə Aqrar Sığorta Fondu tərəfindən 21 rayonda təsərrüfatlara sığorta ödənişləri həyata keçirilib. Heyvandarlıq təsərrüfatları üzrə ödənişlərin ümumi məbləği 400 min manat təşkil edib. Göründüyü kimi, Aqrar Sığorta Fondu tərəfindən sığorta ödənişlərinin davamlı artması və zərərləri qarşılaması nəticəsində fermerlərin aqrar sığorta mexanizminə marağı artmaqdadır.

Xatırladaq ki, aqrar sığorta mexanizmi bitkiləri təbiət hadisələri – dolu, fırtına, qasırğa-fırtına, sel-subasma, şaxtavurma, leysan, yanğın, vəhşi heyvanların hücumu, 3-cü şəxslərin hərəkəti və sair hadisələrdən qoruyur. Kənd təsərrüfatı heyvanları isə yoluxucu xəstəliklər, yemdən və otdan zəhərlənmə, vəhşi heyvanların hücumu, ilan və həşərat sancması, yanğın, təbii fəlakətlər, avtomobillə vurma, qəza nəticəsində tələf olma, 3-cü şəxslərin hərəkətləri kimi risklərdən sığorta edir. Fermerlərə dəstək üçün sığorta haqqının yarısını dövlət ödəyir. Nəticədə, fermerlər cüzi ödəniş etməklə təsərrüfatlarını sığortalaya bilirlər.

# BVF Dövlət Neft Fondunun aktivlərinin artacağını proqnozlaşdırır

**Azərbaycan Mərkəzi Bankı (AMB) və Dövlət Neft Fondunun (ARDNF) birgə ehtiyatları 2024-cü ilin sonundakı 70 milyard ABŞ dollarından 2025-ci ilin sonuna 85 milyard ABŞ dollarına yüksəlib.**




Bu barədə Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycan üzrə missiyasının proqnozunda bildirilib. Qeyd edilib ki, Azərbaycanın strateji valyuta ehtiyatları qarşıdakı dövrdə yavaş templə artmaqda davam edəcək. Missiyanın proqnozlarına görə, bu ilin sonuna Neft Fondunun aktivləri 74,5 milyard dollara, 2027-ci ildə 75 milyard, 2028-ci ildə 75,5 milyard dollara çatacaq.

ARDNF-in aktivləri üzrə gözləntilər 2029-cu il üzrə 76,2 milyard, 2030-cu ildə 77,2 milyard dollar, 2031-ci ildə isə 78,4 milyard dollar təşkil edir.

BVF-nin missiyası bununla belə, Azərbaycan Mərkəzi Bankının ehtiyatlarının azalacağını proqnozlaşdırıb. Proqnoza görə, AMB-nin ehtiyatları bu ilin sonuna 10,7 milyard, 2027-ci ildə 9,7 milyard, 2028-ci ildə 8,9 milyard, 2029-cu ildə 8,75 milyard dollara kimi azalacaq. 2030 və 2031-ci illərdə bu rəqəm müvafiq olaraq 8,6 milyard və 8,1 milyard dollar təşkil edəcək.

***XQ***

# Azərbaycan erməni vandalizminin yaralarını öz gücü ilə sağaldır



**(əvvəli 1-ci səhifədə)**

İşğaldan azad edilmiş ərazilərdə tikinti-quraşdırma işlərinə 2025-ci ildə bütün maliyyə mənbələri hesabına 4 milyard 911.2 milyon manat vəsait sərf edilib. Bu barədə informasiya Dövlət Statistika Komitəsinin məlumatı əsasında aparılan hesablamalarda yer alıb. Qeyd edək ki, hesabat dövründə ən çox vəsait Kəlbəcər (994.6 milyon 11 min manat), Ağdam (740 milyon manat) və Zəngilan (731 milyon manat) rayonlarına ayrılıb.

Ötən il Azərbaycanda bütün maliyyə mənbələrindən əsas kapitala 21 milyard 226.1 milyon manat vəsait yönəldilib ki, bunun da 16 milyard 18 milyon manatı tikinti-quraşdırma işlərinə sərf edilib. Beləliklə, hesabat dövründə azad olunmuş ərazilər üzrə tikinti-quraşdırma işlərinə sərf olunan vəsait respublika üzrə tikinti-quraşdırma işlərinə sərf olunan vəsaitin 30, 7 faizini təşkil edib.

Əlavə edək ki, 2020-ci ildən 2026-cı ilə qədər azad edilmiş ərazilərin bərpası üçün 25 milyard manatdan çox vəsait ayrılıb. Bunun da 3,5 milyard manatı 2026-cı il büdcəsində nəzərdə tutulub. Dövlət rəsmilərinin sözlərinə görə, bu vəsaitlərin əksəriyyəti orta və uzunmüddətli perspektivdə iqtisadiyyat üçün əhəmiyyətli əlavə dəyər yaradacaq infrastruktur layihələrinə yönəldilir.

2025-ci ildə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı infrastruktur və sosial obyektlər istifadəyə verilib. Bu proses xüsusilə Xankəndi şəhərində intensiv xarakter alıb. Belə ki, Xankəndidə "Xankəndi" Biznes Mərkəzi, Xankəndi Konqres Mərkəzi, Qarabağ Universitetinin Klinikasının binası, Biznes və iqtisadiyyat fakültəsinin yeni korpusu, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris binası, 110/35/10 kV-luq "Xankəndi-1" elektrik yarımstansiyası və Zəfər parkı istifadəyə verilib.

Ağdamda Rəqəmsal İdarəetmə Mərkəzi, Təlim-Tədris Kompleksi, sənaye müəssisələri, yaşayış kompleksləri, məktəb və uşaq bağçaları, Dəmir Yolu və Avtovağzal Kompleksi, Muğam Mərkəzi və "Hilton Garden Inn Agdam" hoteli açılıb.

Digər rayonlarda da mühüm layihələr reallaşdırılıb. Cəbrayılda "Şəfəq" Günəş Elektrik Stansiyasına yol çəkilib, Füzulidə Əhmədbəyli–Füzuli–Şuşa yolu istifadəyə verilib, Xocalıda yarımstansiya və istehsal müəssisələri qurulub, Kəlbəcər və Laçında kiçik su elektrik stansiyaları, sənaye və xidmət obyektləri istifadəyə verilib. Şuşada sosial və səhiyyə obyektləri, Zəngilanda Ağalı və Məmmədbəyli kəndlərinin növbəti mərhələləri başa çatdırılıb. Ümumilikdə, regionda enerji, nəqliyyat, təhsil, səhiyyə və sənaye infrastrukturu paralel şəkildə inkişaf etdirilib.

2025-ci ildə Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı tikinti və infrastruktur layihələri ilə yanaşı, əhalinin mərhələli qayıdışı prosesi də davam etdirilib. Xankəndi, Ağdərə, Xocavənd, Şuşa, Laçın, Füzuli, Zəngilan (Ağalı və Məmmədbəyli kəndləri), Cəbrayıl, Xocalı və Ağdamın bir sıra kəndlərinə, eləcə də Kəlbəcər şəhərinə köç həyata keçirilib.

Hazırda azad olunmuş ərazilərdə ümumilikdə 75 mindən çox insan yaşayır. Bu göstəriciyə daimi məskunlaşan keçmiş məcburi köçkünlərlə yanaşı, həmin ərazilərdə çalışan dövlət və özəl sektor əməkdaşları da daxildir. Beləliklə, regionda paralel şəkildə həm infrastruktur quruculuğu, həm də sosial-iqtisadi həyatın bərpası təmin olunur.

Xatırladaq ki, 16 noyabr 2022-ci ildə dövlət başçısının imzaladığı Sərəncamla "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış üzrə I Dövlət Proqramı"nın Fəaliyyət Planı təsdiqlənib və bununla da postmünaqişə mərhələsinin institusional çərçivəsi müəyyənləşdirilib.

Sənədə əsasən, 2026-cı ilin sonunadək azad edilmiş ərazilərdə 280 min hektar sahənin mina və digər partlayıcı qalıqlardan təmizlənməsi hədəf kimi müəyyən olunub. Paralel olaraq 34500 mənzil və fərdi yaşayış evinin tikintisi nəzərdə tutulur ki, bu da əhalinin mərhələli şəkildə geri dönüşünü təmin etməyə xidmət edir.

Bu ilin sonunadək "Böyük Qayıdış" proqramının I mərhələsinin yekunlaşdırılması nəzərdə tutulur və bu mərhələ çərçivəsində 140 min məcburi köçkünün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına mərhələli şəkildə geri dönüşü planlaşdırılır.

Bir vacib məqamı da qeyd edək ki, Azərbaycan münaqişədən sonrakı mərhələdə formalaşdırdığı bərpa və yenidənqurma modelini beynəlxalq səviyyədə təqdim etmək potensialına malikdir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən kompleks infrastruktur, yaşayış və sosial layihələr postmünaqişə idarəçiliyi baxımından praktik nümunə kimi qiymətləndirilə bilər.

Bu modelin əsas xüsusiyyəti təhlükəsizlik, infrastruktur və sosial reinteqrasiyanın eyni vaxtda planlaşdırılmasıdır. Minalardan təmizləmə prosesi ilə paralel olaraq magistral avtomobil yolları, beynəlxalq hava limanları, elektrik yarımstansiyaları və su təchizatı sistemləri inşa olunur. Eyni zamanda, yaşayış məntəqələri sıfırdan qurulur, məktəblər, xəstəxanalar və sosial obyektlər istifadəyə verilir. Dövlət–özəl tərəfdaşlığı mexanizmləri isə iqtisadi aktivliyin bərpasını sürətləndirir.

Bu baxımdan Azərbaycan Suriyanın və Qəzzanın postmünaqişə dövründə bərpa və quruculuq prosesinə öz töhfəsini verə bilər. Məsələn, Suriyada on ildən artıq davam edən müharibə nəticəsində geniş ərazilər infrastruktur baxımından iflic vəziyyətinə düşüb. Eyni mənzərə Qəzzada müşahidə olunur. Ardıcıl hərbi əməliyyatlar infrasturukturu, sosial obyektləri, enerji və su sistemlərini ciddi şəkildə zədələyib.

***Musa BAĞIRLI***
***XQ***

# Xanabad yenidən abadlığına qovuşub

*Xocalının bir kəndində də köç sevinci yaşandı*





**Görülən işlərin miqyasına, sürətinə və yüksək təşkilatçılığına görə dünyada analoqu olmayan Böyük Qayıdışın hər yeni mərhələsi şanlı tariximizin zəfər salnamələrinin davamı kimi müstəsna əhəmiyyət daşıyır. Qarabağa və Şərqi Zəngəzura üz tutan köç karvanlarını qarşılayan, əzəli sakinlərinə sevgi ilə qucaq açan tarixi yurd yerlərimiz öz xoşbəxt günlərinə geri dönür.**

Fevralın 19-da Xocalı rayonunun daha bir yaşayış məntəqəsində – Xanabad kəndində də ilk köç sevinci yaşanıb, 154 nəfərin Vətənə qovuşmaq arzuları reallığa çevrilib. Şanlı qələbələrimizin memarı, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, bu mərhələdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən ölkənin müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış 38 ailənin doğma yurda qayıdışı təmin edilib.

Xanabadlılara yeni evlərinin açarları Xocalı şəhərində keçirilən mərasimdə təqdim olunub. Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonları üzrə xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov sakinləri tarixi gün münasibətilə təbrik edərək bildirib ki, Xanabad kəndində bütün zəruri infrastruktur qurulub, əhalinin dayanıqlı məskunlaşması, məşğulluğunun təmin edilməsi üçün kompleks tədbirlər həyata keçirilib. Belə ki, yaşayış məntəqəsində evlər əsaslı şəkildə təmir olunub, kənd 24 saat fasiləsiz olaraq təbii qaz, elektrik enerjisi və içməli su ilə təmin edilib, sakinlərin rahat yaşayışı üçün hərtərəfli şərait yaradılıb. Səbuhi Qəhrəmanov, həmçinin əlavə edib ki, kəndə köç prosesi mərhələli şəkildə davam etdiriləcək.

Keçmiş məcburi köçkünlər isə çıxışlarında illər boyu həsrətini çəkdikləri azad Qarabağa dönməyin onlarda böyük sevinc, qürur və mənəvi rahatlıq hissi yaratdığını deyiblər, hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə təşəkkürlərini ifadə ediblər.

**Keçmiş məcburi köçkün Mətləb Məmmədov "XQ"-yə bildirib:**

– Hər bir insanın doğulduğu, boya-başa çatdığı Vətən torpağı müqəddəsdir. Bu gün ən böyük arzumuz reallığa çevrildi. Xoşbəxtəm ki, yenidən Qarabağa qayıtdıq, bundan sonra burada yaşayacağıq. Biz də bu torpaqlara sahib çıxıb, əkib-becərib, bu yerləri yenidən dirçəlişində iştirak etməliyik. Qoy, dostlar baxıb sevinsin, düşmənlərimizin gözləri kor olsun.

**Mətləb Məmmədovun həyat yoldaşı Aidə xanım da ürək sözlərini oxucularımızla bölüşüb:**

– Özümə söz vermişdim ki, kövrəlməyim, qəhərlənməyim. Ancaq yolboyu, əsas da Xocalıya yaxınlaşdıqca, həyəcandan göz yaşlarıma hakim ola bilmədim. Allaha şükürlər olsun, bundan sonra övladlarımla birgə öz ev-eşiyimizdə rahat, firavan yaşayacağıq, məcburi köçkünlük bitdi.

Xatırladaq ki, Xanabada həyata keçirilən ilk köç də nəzərə alınmaqla, artıq Xocalı rayonunun 1 şəhərinə və 8 kəndinə keçmiş məcburi köçkünlərin qayıdışı təmin edilib.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

*Araşdırma*

# Meyvə-tərəvəz bazarı da bahalaşmaya qoşuldu

*Qiymətləri kimlər və nələr artırır?*



**Son vaxtlar bazarlarda tərəvəz məhsullarının qiymətində artım nəzərə çarpır. Mövsümi məhsulların əvvəlki illərlə müqayisədə baha təklif olunması isə narahatlıq doğurur. Mütəxəssislərin fikrincə, bu, bir sıra obyektiv amillərlə, o cümlədən tərəvəz istehsalında məhsuldarlığın bir çox ölkələrlə müqayisədə aşağı səviyyədə qərarlaşması ilə bağlıdır.**

Yaranmış vəziyyətin səbəbləri və qiymətlərin sabitləşdirilməsi imkanları haqqında mediaya açıqlama verən kənd təsərrüfatı üzrə ekspert Vahid Məhərrəmli rəsmi statistik məlumatlara əsaslanaraq Azərbaycanda tərəvəz məhsullarının ixracı ilə idxalının paralel şəkildə artdığını vurğulayır. Belə bir hal isə respublikanın özünü tərəvəzlə tam təmin edə bilməməsindən, hətta region ölkələri ilə müqayisədə adambaşına düşən tərəvəz istehlakının nisbətən aşağı olmasından xəbər verir.

Ekspert qiymətlərin sabit saxlanılması üçün, ilk növbədə, istehsal xərclərinə diqqət yetirilməsinin zəruriliyini xatırladır. Qeyd edir ki, 2021-ci, 2023-cü və 2025-ci illərdə dizel yanacağı və benzinin qiymətində bahalaşmanın qeydə alınması ilə kənd təsərrüfatı istehsalında məhsulun maya dəyəri yüksəlib. Maya dəyərinin artmasının isə, şübhəsiz ki, satış qiymətlərinə böyük təsiri olub.

Bahalaşmaya təsir göstərən digər amil isə logistika xərcləridir. Belə ki, məhsulun təsərrüfatdan anbara, oradan bazarlara və pərakəndə satış şəbəkələrinə daşınması əlavə xərclər yaradır. Daşınma xərclərinin artması ümumi maya dəyərini yüksəldir və nəticədə, qiymətlər bahalaşır. Buna görə də istehsal və logistika zəncirindəki xərclər kompleks şəkildə nəzərə alınmalıdır.

Vahid Məhərrəmli açıqlamasında beynəlxalq təcrübəyə də diqqət çəkərək vurğulayıb ki, bir sıra ölkələrdə fermerlər üçün güzəşt mexanizmləri tətbiq olunur. Məsələn, qonşu İranda kənd təsərrüfatında istifadə olunan yanacaq üçün xüsusi dəstək mexanizmləri mövcuddur ki, bu da istehsal xərclərini nisbətən aşağı səviyyədə saxlayır. Burada məqsəd heç də hansısa bir modeli üstün göstərmək deyil, müxtəlif təcrübələrin mövcudluğunu diqqətə çatdırmaqdır.

Azərbaycan neft hasil və ixrac edən ölkə kimi aqrar sektorda yanacaq xərclərinin optimallaşdırılması baxımından müəyyən imkanlara malikdir. Məlumata görə, kənd təsərrüfatı istehsalı prosesində, təxminən, 300 min ton, məhsulların daşınması mərhələsində isə əlavə 200 min ton dizel yanacağına ehtiyac yaranır. Bu səbəbdən kənd təsərrüfatında istifadə olunan yanacaq üçün daha sabit və proqnozlaşdırıla bilən qiymət mexanizminin tətbiqi mümkün variantlardan biri kimi qiymətləndirilə bilər. Ekspert bununla bağlı vurğulayır ki, məhsuldarlığın artırılması qiymət sabitliyinin əsas şərtlərindən biridir. Çünki məhsuldarlıq yüksəldikcə məhsulun maya dəyəri azalır və bazarda qiymət sabitliyinə müsbət təsir göstərir. Əks halda, qiymət artımı tendensiyası davam edə bilər.

Ekspert açıqlamasının sonunda bildirir ki, hər hansı bir fermerin xərcləri artdıqca, o, bunu kompensasiya etmək üçün satış qiymətlərini yüksəltməyə məcbur olur. Əks halda, istehsal iqtisadi cəhətdən cəlbediciliyini itirir, bu isə idxalın artmasına gətirib çıxarır. İdxal məhsulları isə əlavə logistika xərcləri səbəbindən baha başa gəlir. Bu baxımdan tərəvəz məhsullarının qiymətində kəskin artımın qarşısının alınması üçün aqrar sektorda kompleks yanaşmaya ehtiyac var. Bu yanaşma çərçivəsində isə məhsuldarlığın artırılması, istehsal və logistika xərclərinin azaldılması, eləcə də fermerlər üçün sabit və proqnozlaşdırıla bilən iqtisadi mühitin formalaşdırılması vacibdir. Məhz bu istiqamətdə atılacaq addımlar uzunmüddətli dövrdə bazarda qiymətlərin sabitliyinə və daxili istehsalın dayanıqlı inkişafına töhfə verə bilər.

Hazırda ölkədə tərəvəz məhsullarının bahalaşmasının əsas səbəblərindən birinin mövsümlə əlaqədar olduğunu bildirərək yeni məhsulların hələ tam şəkildə bazara çıxmadığını, eyni zamanda, bu dövrdə Azərbaycandan, xüsusilə də kartof və soğan kimi məhsulların ixracının artdığını, bunun isə qiymət artımına təsir göstərdiyini vurğulayıb. Ekspert fikrinin davamında bu bahalaşmanın müvəqqəti və mövsümi xarakter daşıdığını və bir müddət sonra qiymətlərin sabitləşəcəyini və mayın sonunadək məhsul bolluğu yaranacağını xatırladıb.

Bu vəziyyət bir daha onu göstərir ki, Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsal həcmi kifayət qədər deyil. Ötən ilin məhsullarını soyuducu anbarlar vasitəsilə yeni mövsümə qədər saxlamaqda müəyyən çətinliklər yaşanır. Çünki ölkədə soyuducu anbarların sayı azdır. İnfrastrukturla bağlı belə problemlər aradan qaldırılandan və yeni məhsullar satışa çıxarılandan sonra bahalaşmanın azalacağı gözlənilir.

**İqtisadçı-ekspert Razi Abbasbəylinin** sözlərinə görə, məhsulun yüksək maya dəyəri bahalaşmanın əsas səbəblərindəndir. Toxum, gübrə, pestisidlər, suvarma və daşınma xərcləri, eləcə də istixanalarda istifadə olunan təbii qazın qiyməti istehsalı bahalaşdırır. Qonşu ölkələrdə istixanalar üçün müəyyən güzəştlər tətbiq olunur ki, əsas məqsəd əhalinin qida təminatını qorumaqdır. Azərbaycanda isə subsidiyalar kifayət qədər yüksək olmadığından fermer əlavə vəsait qoymaq məcburiyyəti ilə üzləşir ki, nəticədə məhsulun maya dəyəri artır.

Ekspert, strateji ərzaq məhsulları üzrə əkin sahələrinin azalmasını da bahalaşmaya təsir edən amil kimi qiymətləndirir və bunun səbəbini dövlət dəstəyinin və təşviq mexanizmlərinin yetərli olmaması ilə əlaqələndirir. Bildirir ki, fermerlər buna görə də daha gəlirli hesab etdikləri sahələrə üstünlük verirlər ki, bu da uzunmüddətli perspektivdə qıtlıq və bahalaşma riskini artırır. Paytaxtda qiymətlərin regionlarla müqayisədə daha yüksək olmasının digər səbəbi isə bazar strukturudur. Razi Abbasbəylinin fikrincə, məhsulların böyük hissəsi iri tədarükçülər və topdansatış mərkəzləri vasitəsilə satışa çıxarılır. Bu isə qiymət zəncirində əlavə mərhələlər və əlavə xərc yaradır.

Ekspert bildirir ki, paytaxtda satılan kənd təsərrüfatı məhsullarının qiymətinin bölgələrə nisbətən baha olmasının digər bir səbəbi isə monopoliyadır. Bakıda "kolxoz bazarları" anlayışı çoxdan sıradan çıxıb. Kəndli becərdiyi məhsulu rahatlıqla gətirib paytaxtda sata bilmir. Hətta becərdiyi məhsulu Bakıya gətirməkdə çətinlik çəkir. Logistik xərclər çox bahadır. Bu gün kənd təsərrüfatı məhsulları iri market şəbəkələrində daha çox satılır. Bu ticarət müəssisələrindəki, kənd təsərrüfatı məhsullarına diqqət yetirdikdə görürük ki, daha çox xaricdən gətirilən meyvə-tərəvəz məhsullarına üstünlük verilir. Yaxud bir neçə məlum ünvanlardan götürülən məhsullar satılır.

Razi Abbasbəylinin dediyinə görə, logistik xərclərin baha olması səbəbindən fermer məcbur qalıb istehsal etdiyi məhsulu müəyyənləşdirilmiş qiymətlərlə topdansatış tədarük məntəqələrinə satmaq qərarı verir. Lakin bu məntəqələrdə məhsula istənilən qiymət qoyulur. Daha sonra isə məhsul supermarketlərə, bazarlara göndərilir. Bütün bu proseslər kənd təsərrüfatı məhsullarının bahalaşmasına gətirib çıxarır. Beləliklə, kəndli becərdiyi məhsuldan qazanc əldə edə bilmir. Min bir əziyyətlə əkib-becərdiyi məhsul əlində qaldığı üçün onu maya dəyərinə, bəzən isə ondan da aşağı qiymətə satır.

Kənd təsərrüfatı məhsullarından qazanc əldə edə bilmədiyi üçün növbəti dəfə kəndli yonca, buğda əkməyə üstünlük verir. Bu da kənd təsərrüfatı məhsullarının istehsalının ildən-ilə azalmasına gətirib çıxarır. Bu proses ildən-ilə sürətlə gedir. Çox təəssüf ki, Azərbaycan zəngin potensialının olmasına baxmayaraq, adi meyvə və tərəvəzlərdən belə asılı vəziyyətə düşür.

Rayon bazarlarında məhsul birbaşa istehsalçı tərəfindən təklif olunur. Amma məhsul paytaxta çatdırıldıqdan sonra logistika və pərakəndə satış əlavələri qiyməti xeyli artırır. Fermerlərin şəhər bazarlarına birbaşa çıxış imkanları genişləndirilərsə, qiymətlərdə müəyyən azalma müşahidə oluna bilər.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun** sözlərinə görə, kənd təsərrüfatı məhsulları satışının böyük hissəsi iri tədarükçülərin nəzarətində saxlanılır və bu da bazarda balansı pozur. O, fikrini bir qədər də konkretləşdirərək kooperasiya mexanizmlərinin səmərəli işləmədiyini vurğulayaraq, fərdi təsərrüfatların bazara çıxış imkanlarının məhdud olduğunu qeyd edir. Eyni zamanda, yerlərdəki hər bir böyük təsərrüfatın aqronom və baytar nəzarəti baxımından daha üstün mövqe tutduğunu və bazar tələblərinə uyğunlaşmaqda daha çevik olduğunu vurğulayır.

Eyyub Hüseynovun fikrincə, kənd təsərrüfatında sistemli dəyişikliklərə ehtiyac var. Məhsuldarlığın artırılması, subsidiya və yanacaq siyasətinin təkmilləşdirilməsi, logistika xərclərinin azaldılması, kooperasiya mexanizmlərinin real işləməsi və fermerlərin bazara birbaşa çıxış imkanlarının genişləndirilməsi qiymət sabitliyinin təmin olunmasında əsas istiqamətlər sırasında yer alır. Nəticə etibarilə, tərəvəz məhsullarının qiymət artımı təkcə mövsümi amillərlə bağlı deyil, həm də istehsal, logistika, bazar strukturu və dövlət dəstəyi mexanizmləri ilə əlaqədar kompleks səbəblərlə şərtlənir. Problemin həlli də məhz kompleks yanaşma tələb edir.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*

**Akif NƏSİRLİ,**
**Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı-ekspert**

Son illər tərəvəz məhsullarının qiymətində davamlı artım nəzərə çarpıb. Qiymətlərin yüksəlməsi nəticəsində əhalinin ərzaq xərclərinin strukturunda da tərəvəzlərin payı xeyli artıb. Hazırda ailə büdcəsində ən böyük xərc məhz bu məhsulların alınmasına yönəlib. İnsanların sağlam qidalanmaya, meyvə-tərəvəz kimi məhsullardan istifadəyə önəm verməsi çox yaxşı haldır. Lakin bu sahədə qiymətlərin artması haqlı narahatlığa səbəb olur.

Quraqlıq, güclü yağıntılar, sel və şaxtalar məhsuldarlığı azaldır, bu da bazarda təklifin azalmasına və qiymətlərin artmasına gətirib çıxarır. Xüsusilə açıq sahədə yetişdirilən məhsullar hava risklərinə daha həssas olur. Digər mühüm amil istehsal xərclərinin artmasıdır. Gübrə, pestisid, yanacaq, suvarma, elektrik enerjisi və əməkhaqqı xərclərində son illərdə yüksəlmə nəzərə çarpır. İdxal olunan gübrənin və aqrokimyəvi vasitələrin bahalaşması istehsal olunan məhsulların maya dəyərini yüksəldir. Nəticədə, artan xərclərin kompensasiya edilməsi məqsədilə satış qiymətləri artır.

Şübhəsiz ki, logistika və nəqliyyat xərclərinin artması da qiymətlərə təsir göstərir. Belə ki, yanacağın bahalaşması və daşınma xərclərinin yüksəlməsi məhsulun tarladan bazara çatdırılmasını daha da bahalaşdırır. Eyni zamanda, saxlama infrastrukturunun kifayət qədər inkişaf etməməsi də mövsümi dalğalanmaları gücləndirir və qıtlıq dövrlərində qiymətlər daha kəskin artır.

Tərəvəz məhsullarının qiymət artımına bəzi hallarda idxaldan asılılıq da təsir göstərir. Əgər daxili istehsal tələbatı tam ödəmirsə, idxal olunan tərəvəz məhsullarının qiyməti isə dünya bazarındakı dəyişikliklər və valyuta məzənnəsi ilə formalaşır. Milli valyutanın zəifləməsi idxal məhsullarını daha da bahalaşdırır və bu da ümumi bazar qiymətlərinə təsir göstərir. Nəhayət, bazarda rəqabətin zəifliyi və vasitəçilərin çoxluğu da qiymət artımını sürətləndirir. İstehsalçı ilə son istehlakçı arasında bir neçə vasitəçi olduqda məhsula hər mərhələdə əlavə qiymət qoyulur və nəticədə kəskin bahalaşma nəzərə çarpır.

21 Fevral Beynəlxalq Ana Dili Günüdür

# Milli dillər tarixin xalqlara vurduğu ilahi möhürdür

**UNESCO 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə ana dilinin qorunması uğrunda həyatlarından keçmiş mübarizlərin şərəfinə fevralın 21-ni Beynəlxalq Ana Dili Günü elan edib. Artıq 27 ildir dünya xalqları 21 fevralı ana dillərinə sevgi və sayğı əlaməti olaraq qeyd edir.**




1952-ci ilin həmin günündə bu ölkənin Benqal şəhərində öz ana dilinin rəsmi stastus alması tələbi ilə çıxış edən tələbələrin nümayişi yatırılarkən bir neçə tələbə qətlə yetirilib. Bu ölkədə milli varlığın yaşadılması uğrunda mübarizə timsalına çevrilmiş benqal dil mücahidləri Abdus Salam, Rafiq Uddin Əhməd, Abul Barkat, Abdul Cabbar və digərlərinin xatirəsinə abidə ucaldılıb. Hər il abidə önündə müxtəlif anım mərasimlərinin keçirilməsi ənənə halı alıb. Hazırda dünyanın bir sıra şəhərində, o cümlədən Naxçıvanda və Mingəçevirdə Ana dili abidələri var. Xaçmazdakı abidə isə "Ana dili müəllimi" adlanır.

Hər bir millətin maddi-mənəvi irsinin rasportu olan dil özünəməxsusluğu qoruyan varlıq nişanıdır. Onun dövlət dili statusuna yüksəlməsi tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu amil milləti millət olaraq təsdiqləyir.

Azərbaycan dilinin rəsmi dövlət dili statusuna yüksəlməsi yolu heç də asan olmayıb, zaman-zaman basqılara məruz qalıb. Dil siyasəti Azərbaycan Xalq Cümhuriyyəti dövründə diqqət yetirilən əsas sahələrdən olub. AXC hökumətinin 1918-ci il 27 iyun tarixli qərarı ilə, o zaman türk dili adlanan Azərbaycan dili dövlət dili elan edilib. Həmin tarixi hadisədən artıq 108 il ötür.

Sovet dövründə isə Azərbaycan SSR Ali Sovetinin 1956-cı il qərarı ilə müttəfiq respublikamızın Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması barədə maddə əlavə edilsə də, bu qərar uğurlu olmayıb. Nəhayət, ulu öndər Heydər Əliyevin bu yöndəki yorulmaz səyləri müsbət nəticə verib. Rus dilinin müttəfiq respublikalarda hegemon roluna, Kremlin çox ciddi təzyiqlərinə baxmayaraq, Ümummilli liderimizin sarsılmaz iradəsi ilə Azərbaycan Konstitusiyasında (1978-ci il) ana dilimiz ayrıca maddədə dövlət dili kimi təsbit edilib. Bununla da dahi şəxsiyyət gələcək müstəqil dövlətçiliyimizin milli atributlarından birini məharətlə rəsmiləşdirə bilib. Heydər Əliyev ölkə rəhbərliyinin 2-ci dönəmində bu uzaqgörən siyasəti daha da dərinləşdirib.

"Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun (2002-ci il) qəbul edilməsi ana dilinin hərtərəfli tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində tarixi bir addım olub.

Hazırda bu ənənələri Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlət başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli sərəncamı və bu istiqamətdə görülən digər işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür. Prezident İlham Əliyev ötən il noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyinə həsr edilən tədbirdəki nitqində milli inkişafın mühüm istiqamətləri ilə yanaşı, milli dövlət dilinin qorunması məsələlərinə xüsusi diqqət yetirib. Dövlət başçısının həmin fikirləri və qarşıya qoyduğu vəzifələr fundamental tezislərdən ibarət "Yol xəritəsi" kimi qəbul edilir.

Yubileydən sonra - dekabrın 8-də Milli Məclisdə "Azərbaycan dilinin dövlət dili kimi inkişaf strategiyası: mövcud vəziyyət və perspektivlər" adlı konfrans keçirilib və dilin qorunması, inkişafı strategiyaları müzakirə edilib, bu yöndə parlamentin, elmi ictimaiyyətin və ziyalıların vəzifələri müəyyənləşdirilib. Göründüyü kimi, bu vacib məsələlər Milli Məclisin də daim diqqət mərkəzindədir və parlamentin dəstəyi strateji qərarların uğurlu şəkildə həyata keçirilməsini təmin edir.

Qeyd-şərtsiz qorunmalı olan təmiz dil siyasəti ölkə rəhbərliyi səviyyəsində uğurla həyata keçirilir və bu gün ana dilinin qorunması, ədəbi dil normalarının müasir texnologiyalara inteqrasiyası idarəetmənin prioritet istiqamətləri sırasındadır. Dövlət başçısının "biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik" fikirləri məsələnin nə qədər vacib və həssas olduğunu göstərir. Azərbaycan dilinin qarşısında çağdaş dünya dinamikasından irəli gələn yeni, mühüm hədəflər durur. Dilimizin saflığının qorunması, rəqəmsallaşma və yeni texnologiyalara inteqrasiyası, terminologiyaların elmi əsaslarla yenilənməsi və s. bu sıradandır.

Onu da qeyd edək ki, ötən ay Prezident İlham Əliyev "Azərbaycan Mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb ki, bu sənəd, əsasən, Azərbaycan dili, davranış və bilgi mədəniyyəti, ədəbiyyat, incəsənət, mədəni irs kimi əsas sahələri əhatə edir. Başlıca hədəflərdən biri də birləşdirici amil kimi Azərbaycan dilinin Qafqazda regional rolunun bərpasına nail olmaqdır. Təşkilatlanmış mədəni iştirakçılıq respublikamızın regional maraqlarının səmərəli şəkildə təmin edilməsində və qonşu ölkələrlə dostluq münasibətlərinin gücləndirilməsində mühüm rol oynayacaq.

AMEA-nın prezidenti İsa Həbibbəyli deyib ki, Azərbaycan dili ilə bağlı problemlər var və bunun həlli ümummilli məsələdir. Akademik qeyd edir ki, Prezident İlham Əliyev beynəlxalq leksikonda yer alan və dünyada qəbul edilmiş vahid terminologiyadan başqa, yad sözlərin Azərbaycan dilinə gətirilməsini "ya səhv, ya təxribat və ümumiyyətlə, qəbuledilməz" kimi qiymətləndirib. Bu mövqe Azərbaycan alimləri, tədqiqatçıları, müəllimləri və ziyalıları üçün dilin qorunması istiqamətində aydın çağırışdır.

AMEA-nın dövlət dili siyasətinə elmi dəstəyi, normativ bazanın elmi əsaslarla hazırlanması və dövrün çağırışlarına uyğun yenilənməsi, Azərbaycan toponimlərinin qorunması ilə bağlı fəaliyyəti genişdir. Hazırda yeni orfoepiya lüğəti hazırlanır. Texnoloji tərəqqi olmadan ümumi inkişaf mümkünsüzdür. Odur ki, süni intellekt, kibertəhlükəsizlik sahəsinin yenilikləri hərtərəfli tətbiq edilir. Tarix İnstitutu yeni atlas xəritələr hazırlayır ki, burada, həmçinin sovet dövründən əvvəlki Azərbaycan ərazilərinin adları əks olunacaq. Reklam bazarında, efirlərdə, dərsliklərdə bəzən alınma kəlmələrdən lazım gəldi-gəlmədi istifadə edilməsinin qarşısı qətiyyətlə alınmalıdır. Müvafiq qurumların bu məsələni daim gündəmdə saxlaması, ilk növbədə mənəvi borcdur.

Prezident İlham Əliyev aforizm səciyyəli "Dilini itirən millətini itirər" fikri ilə dilin qorunmasını siyasi çağırışdan çox, milli məsuliyyət səviyyəsinə qaldırıb. Dövlət başçısının "Bizim dilimiz çox zəngindir, xarici sözlərə ehtiyac yoxdur. Ana dilimizin saflığını qorumaq hər bir Azərbaycan vətəndaşının borcudur" fikri də həm xəbərdarlıq, həm də gələcək nəsillər üçün əsl tövsiyədir.

Özünü savadlı göstərən kimlərinsə cəfəng mülahizələrlə ana dilimizi başqa dillərin törəmə strukturuna çevirmək cəhdləri, nitqimizdə oturuşmuş bir sıra sözlərdən imtina çağırışları olduqca zərərli və təhlükəlidir. Azərbaycan dili xalqımızın taleyinin, mənəviyyatının, ruhunun saxlancıdır. Bu "xəzinə"-ni qorumaq təkcə dilçi alim, yazıçı və jurnalistlərin deyil, hər bir vətəndaşın gündəlik borcudur. Hazırkı qloballaşma dövründə ana dilinin saflığının qorunması məxsusi milli mövqe nümayişi olmalıdır. Gənclərin kütləvi efirlərdə, sosial mediada ana dilində yazı qaydalarına riayət etməsi, musiqiçilərin mahnı mətnlərində "şikəst" ifadələrə yol verməməsi dil saflığı mücadiləsinin aksiomu sayılmalıdır. Dövlət başçımız vurğulayıb ki, biz başqa dillərin inkişafına qarşı deyilik, amma öz dilimiz – öz kimliyimiz yad sözlərin əsarətində qalmamalıdır.

Bəli, zəngin Azərbaycan dilinə qayğı, onun "alaq otları"ndan, neqativ təsirlərdən təmizlənməsi gələcəyimizin, milli kimliyimizin qorunması deməkdir. Bu həm dövlət siyasəti, həm də mənəvi missiyadır.

***Əli ƏLİYEV***
***XQ***

# Doğma dilimiz qəlbimizin tərcümanıdır

## *"Torpağın sevinci, dərdi yad olur öz ana dilini bilməyənlərə"*

**El-obanın ağrı-acısını, sevincini, tarixi yaddaşını özündə daşıyan, əcdadlarımızın mənəvi mirası, varlığımızın əzəli-əbədi sığınacağı ana dilimizdir. İnsan bu dünyaya göz açanda ana dilinin sədasını ilə özünü ifadə etməyi öyrənir, sanki, qaranlıq aləmi nurlanır, mənəviyyatı işıqlanır.**

Ulu söz sərrafları da bu həqiqəti tarixə həkk ediblər. Rus şairi İvan Turgenyev ana dilini ən ağır sınaqlarda yeganə təskinlik və dayaq bilirdi. Uilyam Şekspir deyirdi ki, dil yaşadıqca, insan ruhu da ölməzdir. Amerika poeziyasının görkəmli nümayəndəsi Volt Vitmen isə dili xalqın azadlıq mənbəyi adlandırırdı. Bizim Xalq şairimiz Xəlil Rza Ulutürk isə yazırdı:

***İllər ötdü, yaşa doldum.***
***Anladım ki, ana dilim***
***Ürəyimdən çıxmaz mənim,***
***Doğransam da dilim-dilim.***

Sərhəd tanımayan bu fikirləri təsdiqləyir ki, hər il fevralın 21-də qeyd olunan Beynəlxalq Ana Dili Günü bir millətin keçmişini gələcəyinə bağlayan o müqəddəs körpünü qorumaq məqsədi daşıyır. Çünki dili susan xalqın tarixi də silinər. Biz ana dilimizi uca tutduqca öz mənəvi ucalığımızı qoruyur, səsimizi bəşər mədəniyyətinin o böyük ümmanına çatdırırıq. Bu avazı hər yanda duyuran, onu qəlblərə həkk edən isə məktəb illərindən ana dilinin saflığına bələd olan gənc nəsil və onlara bu yolda dəstək olan müəllimlərdir.

**Xəzər rayonu, 121 nömrəli orta məktəbin müəllimi Məşhəti Vəliyeva Beynəlxalq Ana Dili Günü ilə bağlı söhbətimizdə vurğuladı ki, dilin saflığının qorunması həm də mədəni müstəqilliyimizin keşiyində dayanmaqdır:**



– Türk dilləri ailəsinin Oğuz alt qrupuna daxil olan bu dil morfoloji çevikliyi və fonetik ahəngdarlığı ilə dünyanın ən rəvan dillərindən hesab olunur. Türkmən, qaqauz və digər qohum dillərlə eyni kökdən gəlsə də, Azərbaycan dili əsrlər boyu özünəməxsus intonasiya və zənginlik qazanaraq müstəqil mədəniyyət hadisəsinə çevrilmişdir. Lakin müasir dövrdə qloballaşma və kütləvi mədəniyyətlərin təsiri altında gənclərin xarici dillərə olan hədsiz meyli dilin özünəməxsusluğunu, bir növ, aşınma təhlükəsi ilə üz-üzə qoyur. Başqa dildə danışmağın müasirlik və ya intellektual üstünlük kimi qavranılması özgələşmə problemidir. Çünki insan öz dünyasını ana dilinin ona təqdim etdiyi anlayışlar çərçivəsində inşa edir. Rus və ya ingilis dilini bilmək fərdin intellektual bazasını genişləndirsə də, ana dili insanın milli varlıq düsturudur və onu heç bir süni əvəzləyici ilə dəyişmək mümkün deyil.

Bugünkü dövrdə xarici dillərə meyil artdıqca, ana dilimizə münasibət müəyyən dərəcədə dəyişir. İnsanlar telefonlarda, internetdə daha çox türk və ingilis dilində məzmun izləyir, seriallar, videolar, oyunlar bu dillərdədir. Bəzən dilimiz ikinci plana keçir, onlar xarici dillərdə danışanda fikirlərini daha rahat və dolğun ifadə etdiklərini düşünürlər.

Maraqlıdır ki, dahi mütəffəkirlər illər öncə də bu problemə toxunub, müasir gəncliyin yolunu işıqlandırmaq istəyiblər. Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsərində bir ailə timsalında milli kimlik, dil və mənəvi dəyərlər problemi göstərilir. Evdəki üç qardaş hər biri fərqli ideoloji və mədəni təsir altındadır. Biri rus dili və mədəniyyətinə, digəri fars dilinə meyillidir. Kiçik qardaş isə Osmanlı türkcəsinə yönəlmiş, bacıları isə doğma dilində danışır.

Cəlil Məmmədquluzadə göstərirdi ki, xarici təsirlərə aludə olub öz dilini, kimliyini unutmaq insanı köksüz edir. Qardaşlar eyni evdə yaşayırlar, amma eyni dili danışmadıqları üçün bir-birini anlamırlar. Bu, sadəcə, ailə dramı deyil, millətin daxili parçalanmasının simvoludur. Çünki xalqı məhv etmək üçün onun dilini əlindən almaq kifayətdir. Ana dili yoxdursa, birlik də yoxdur. Əgər biz ana dilimizi qorumasaq, sabah eyni evdə yaşayan, amma bir-birini anlamayan insanlara çevrilə bilərik.

Təəssüf ki, hazırda dilimizin saflığı hər zaman qorunmur. Reklamlarda, televiziya və radio proqramlarında qrammatik qaydalar bəzən pozulur. Aparıcıların böyük əksəriyyəti sözləri tam düzgün tələffüz etmir, danışıqda səhvlər olur. Ona görə də, həm məktəblərdə, həm media vasitəsilə dilimizin düzgün və zəngin istifadəsinə xüsusi diqqət yetirilməlidir.

Ana dilimizə hörmət və məhəbbət uşaqlıqdan formalaşdırılmalıdır ki, gələcək nəsillər də onu yaşatsın və qorusun. Mən şagirdlərimə deyirəm ki, dil xalqın varlığının aynasıdır. Bu ayna çatlayarsa, xalqın keçmişi ilə gələcəyi arasındakı bağ qırılar.

**Müsahibimiz bildirdi ki, Azərbaycan dilinin dərs yükü orta məktəblərdə kifayət qədərdir və şagirdlərin ana dilini sistemli şəkildə mənimsəməsi üçün lazımi imkan mövcuddur:**

– Bu gün məktəblərdə Azərbaycan dili dərsləri ənənəvi olaraq həftənin beş günü davamlı və ardıcıl şəkildə həyata keçirilir. Elmi nöqteyi-nəzərdən yanaşsaq, ana dilinin fundamenti nə qədər sağlam olarsa, fərdin digər xarici dilləri və elmləri mənimsəmə qabiliyyəti də bir o qədər sistemli olar. Bu baxımdan Azərbaycan dili dərsləri sadəcə qrammatik qaydaların öyrədildiyi fənn kimi deyil, milli-mənəvi kimliyin formalaşdırıldığı mühit kimi dəyərləndirilməlidir.

Ana dilində düşünən şagirdlə başqa dildə düşünməyə məcbur olan şagird arasında ideyanın formalaşma sürəti və dərinliyi baxımından da fərq hiss olunur. Çünki ana dili onun şüuraltına, emosional yaddaşına, uşaqlıq xatirələrinə, ilkin dünyagörüşünə bağlıdır.

İnsan ana dilində fikir qurarkən söz axtarmır, tərcümə etmir, daxili maneə yaşamır. İdeya daha sürətli formalaşır, aydın ifadə olunur və dolğun şəkildə çatdırılır. Amma başqa dildə düşünərkən insan əvvəlcə fikri qurur, sonra onu uyğun sözlərlə ifadə etməyə çalışır.

Sözsüz ki, başqa dilləri bilmək böyük üstünlükdür, amma ana dilini ikinci plana keçirmək heç vaxt üstünlük sayıla bilməz. Odur ki, gənc nəslə dilimizi sevdirmək, onlara Nizaminin hikmətini, Füzulinin fəlsəfəsini, Şəhriyarın səmimiyyətini duyurmaq həm pedaqoji missiya, həm də varislik borcudur.

Şair Tofiq Bayram bu yerdə gözəl deyib:

***Döyüşdə bərkiyib el polad olur,***
***Zirvəyə uçmağa dil qanad olur.***
***Torpağın sevinci, dərdi yad olur,***
***Öz ana dilini bilməyənlərə!***

XIX–XX əsr ədəbiyyatında yazıçı və şairlər üçün əsas məqsədlərdən biri xalqın maariflənməsi, milli şüurun oyanışı və ana dilinin qorunması idi. Ədəbiyyat həm də milli dirçəliş missiyası daşıyırdı. O dövrün ədəbiyyatında milli kimlik həm mövzu seçimində, həm dil üslubunda, həm də obrazların xarakterində daha güclü sezilirdi. Yazıçılar xalqın ağrısını, sosial problemləri və milli taleyini birbaşa ifadə edirdilər. Oxucu əsəri oxuyarkən özünü, cəmiyyətini, tarixini görürdü.

Müasir ədəbiyyatda isə mövzu dairəsi daha qlobal və fərdi xarakter alıb. Bu, təbii prosesdir, çünki dünya ilə inteqrasiya artdıqca, ədəbiyyat da universallaşır, milli motivlər əvvəlki qədər mərkəzdə dayanmır. Fərdi psixologiya, şəxsi təcrübə və qlobal problemlər ön plana keçir. Bu, o demək deyil ki, milli kimlik tam itib. Sadəcə olaraq, keçmiş dövrdə ədəbiyyat birbaşa milli oyanış funksiyası daşıdığı üçün bu hiss daha güclü və açıq şəkildə hiss olunurdu. Bu gün isə milli kimliyi qorumaq üçün onu daha şüurlu şəkildə ədəbiyyatda yaşatmaq və təbliğ etmək vacibdir.

Düşünürəm ki, bu məsələdə dövlət dəstəyi böyük əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli dil siyasəti bu müqəddəs dəyərlərin möhkəmləndirilməsinə və gələcək nəsillərə təmiz, saf və zəngin şəkildə ötürülməsinə yönəlib. Azərbaycan dili xalqımızın milli kimliyinin, dövlət müstəqilliyimizin və mənəvi bütövlüyümüzün rəmzidir. Dövlət başçısının vurğuladığı kimi, əcdadlarımız müstəmləkəçilik dövrlərində belə ana dilini qoruyub gələcək nəsillərə əmanət etmişlərsə, bu gün müstəqil dövlətimizdə dilimizi qorumaq hər bir vətəndaşın mənəvi borcudur.

***Fidan ƏLİYEVA***
***XQ***

# Teleradio səlis və aydın nitq məktəbidir

## *Audiovizual media bu statusu necə qoruyur?*

**Müasir informasiya cəmiyyətində dil yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda, milli kimliyin, mədəniyyətin və ictimai düşüncənin əsas daşıyıcısıdır. Xüsusilə gənc auditoriyanın dil vərdişlərinin formalaşmasında audiovizual medianın rolu bu gün əvvəlki dövrlərlə müqayisədə daha güclü və çoxşaxəlidir. Televiziya, sosial şəbəkələr, videoplatformalar və rəqəmsal məzmun gənclərin gündəlik danışıq tərzinə, söz ehtiyatına və üslub seçiminə birbaşa təsir göstərir.**



Məqsəd audiovizual medianın, xüsusilə də televiziyanın gənc auditoriya üçün nümunəvi nitqin formalaşmasında oynadığı rolu təhlil etmək, mövcud çağırışları göstərmək və mümkün həll yollarına diqqət çəkməkdir.

Dilimizin saflığının qorunması barədə danışanda, məqsəd heç də qınamaq, kimisə "səhv danışdın" deyə hədəfə almaq deyil. Məqsəd efirdə düzgün, səlis, anlaşıqlı danışıq mədəniyyətini möhkəmləndirməkdir. Çünki televiziya nümunədir. Nümunə isə məsuliyyət tələb edir.

Əgər keçmişdə dil əsasən ailə, məktəb və yazılı ədəbiyyat vasitəsilə ötürülürdüsə, bu gün audiovizual media, faktiki olaraq, alternativ dil müəlliminə çevrilib. Gənclər danışıq tərzini, intonasiyanı, ifadə modellərini, normativ və qeyri-normativ dil formalarını ekranda gördükləri və dinlədikləri kimi mənimsəyirlər. Aparıcılar, jurnalistlər, aktyorlar, blogerlər və məzmun yaradıcıları gənc auditoriya üçün canlı dil modeli rolunu oynayırlar.

Rəqəmsal medianın sürətli inkişafına baxmayaraq, televiziya bu gün də gənc auditoriyanın nitq mədəniyyətinə təsir göstərən ən nüfuzlu audiovizual vasitələrdən biri olaraq qalır. Gənclər televiziya dilini çox zaman "doğru və nümunəvi nitq forması" kimi qəbul edirlər. Xüsusilə, xəbər və analitik proqramlarda, tok-şoularda, sənədli filmlərdə.

Gənclərin daha çox izlədikləri şoular, əyləncəli verilişlər dil baxımından risklər yaradır. Bu formatlarda bir qayda olaraq loru danışıq, emosional və bəzən aqressiv nitq, normadan kənar ifadələr tez-tez müşahidə olunur. Gənc auditoriya bu cür nitqi sürətlə mənimsəyir və gündəlik danışığında tətbiq edir. Nəticədə normativ dil ikinci plana keçir. Gənclərin nitqinə "sizi bura alaq", "keçid alaq" kimi qəribə ifadələr yol tapır.

Televiziya serialları, uşaqlar və gənclər üçün nəzərdə tutlmuş məzmun onların nitqinə çox dərin təsir göstərir. Qəhrəmanların danışıq tərzi gənclərin dialoq qurma bacarığını, ifadə modellərini, intonasiya və hətta jestlərini formalaşdırır. Belə proqramların dili təhrif olunmuş və ya həddindən artıq sadələşdirilmiş olduqda, bu, gənclərin dil yaddaşında norma kimi möhkəmlənir.

Məlumdur ki, insan dil vərdişlərinə hələ uşaqlıqdan yiyələnməlidir. Bağça və məktəb yaşlarından uşaqlara düzgün danışıq, doğru, səlis nitq aşılanmalıdır. Bunun üçün yalnız tədris prosesi ilə kifayətlənmək olmaz. Media da uşaq və yeniyetmələrin dil vərdişlərinin cilalanmasında böyük rol oynayır. Bəs bu gün Azərbaycan teleməkanında dil normalarının örnək ola biləcəyi nə qədər uşaq verilişi, çizgi filmi, yeniyetmə və gənclər üçün nəzərdə tutulmuş serial var? "ARB Günəş" kanalından başqa, AzTV-də "Qızıl açar", "Sabahın əsgəri", İTV-də "MAG", "Əlaçı" verilişləri, "Mən, Lalə, bir də Şerlok Holms" serialını misal çəkə bilərik. Amma etiraf edək ki, belə verilişlərin sayı çox deyil. Azərbaycan uşaqlarının qəhrəmanları yenə Maşa və Ayı, Fiksiklər, Süngər Bob, Tom və Cerri kimi xarici çizgi xarakterləridir.

Müşahidələrimiz audiovizual mediada gənclərin nitqinə təsir edən əsas faktorları belə qruplaşdırmağa əsas verir:

*Ədəbi dil normaları fonetik, leksik və qrammatik səviyyədə pozulur;*

*samitlər digər dilin təsiri ilə fərqli tələffüz olunur: diqqət-diggət, qəza-gəza, mövqe-mövge, stansiya-stanЦiya, resept-reЦept;*

*qarşılığı olduğu halda yad kəlmələrdən yersiz istifadə edilir: tədbir - ivent, rəy - koment, şüar - sloqan, səviyyə - level və s.;*

*təkrarlara yol verilir – bu qüsur "böyük yarısı", "balaca körpə", "böyük meqapolis", "gələcək perspektivlər", "pis fəsadlar", "xırda nüaslar" kimi ifadələrin işlənməsi ilə nəzərə çarpır.*

Tərcümə xətası olaraq "hansı ki" birləşməsi ilə cümlənin başlanması geniş yayılıb. Üzeyir Hacıbəylinin "Üsuli-təbii" (Müəllim Əli cənablarına müxtəsər cavab) yazısında oxuyuruq: "…türk dilində "hansı ki", "hansılar ki" sözü yoxdur. Mən də deyirəm ki, bu sözü tərcümə üsulu ilə dərs verən müəllimlər rusun "kotorıy" kəlməsini tərcümə etmək üçün özlərindən çıxardıblar, onun istemalı lüzumsuz bir ağırlıqdır". Bəli, XX əsrin əvvəllərində Üzeyir bəyin yazdığı kimi, belə cümlələrin işlədilməsi Azərbaycan dilinin qrammatik qaydalarına uyğun deyil. Amma təəssüf ki, redaktorlar bu məsələdə prinsipiallıq göstərmirlər. Məsələn, aparıcı deyir: "Səsinizdə bir yanğı var, hansı ki, tamaşaçıların ürəyinə toxunur". Azərbaycan dilində isə səslənməlidir: "Səsinizdə tamaşaçıların ürəyinə toxunan bir yanğı var".

Daha bir tərcümə xətası cümlənin "baxmayaraq ki" (ne smotrya na to) ifadəsi ilə başlamasıdır. "Baxmayaraq ki, hava soyuqdur, qonaqlar vaxtında gəliblər". Doğru variant – "Havanın soyuq olmasına baxmayaraq, qonarlar vaxtında gəliblər".

Bundan başqa, audiovizual mediada digər dillərin təsiri ilə şəkilçilərin dəyişdirilməsi hallarına da rast gəlirik: "səndən küsdüm" yerinə "sənə küsdüm", "sənə nifrət edirəm" yerinə "səndən nifrət edirəm", "səndən şikayət edəcəyəm" yerinə "səni şikayət edəcəyəm" işlənir.

"Kaş" ədatı olan cümlədə xəbər felin arzu şəklində işlənməlidir, amma bəzən səhvən şərt şəklində işlənir, Bu, Türkiyə türkcəsində belədir, amma Azərbaycan dilinin normalarına uyğun deyil. "Kaş sizi də dəvət etsəydim" deyil, "kaş sizi də dəvət edəydim" demək lazımdır.

Belə nümunələrin sayını artırmaq olar. Reklam və dublyaj mətnlərinin dilindəki qüsurları da bu axına əlavə etsək, gənclərin nitq vərdişlərinə mənfi təsir göstərən amillərin çoxluğunu təsəvvür etmək olar.

Nümunəvi nitq yalnız qrammatik düzgünlük deyil, dilin saflığı, üslub uyğunluğu, etik və mədəni çərçivə, fikrin aydın ifadəsi deməkdir. Buna görə də media yalnız informasiya ötürən deyil, eyni zamanda, tərbiyəedici və maarifləndirici institut kimi çıxış edir.

Sonda audiovizual mediada dilin saflığının qorunması istiqamətində bir sıra təkliflərimi sadalamaq istərdik:

*televiziya və digər audiovizual media üçün dil standartlarına nəzarətin gücləndirilməsi – redaktor heyətinin peşəkarlığının artırılması zəruridir;*

*aparıcı və məzmun yaradıcıları üçün nitq mədəniyyəti üzrə davamlı təlimlərin təşkili vacibdir;*

*uşaqlara və gənclərə ünvanlanan keyfiyyətli və düzgün dil nümunələri təşviq edən layihələrin artırılması müsbət nəticələr verə bilər;*

*hər bir televiziya və ya radio kanalının daxili monitorinq qrupunun yaradılmalıdır.*

Məqsəd qadağalar tətbiq etmək deyil, şüurlu və məsuliyyətli dil seçimi formalaşdırmaqdır. Əslində, demək olar ki, audiovizual media, xüsusilə də televiziya, gənc auditoriya üçün sadəcə informasiya və əyləncə mənbəyi deyil, nitqi formalaşdıran güclü sosial mexanizmdir. Bu güc düzgün idarə olunduqda Azərbaycan dilinin saflığının qorunmasına və nümunəvi nitqin formalaşmasına real töhfə verə bilər.

Sonda bir fikri vurğulamaq istəyirəm: dilin saflığını qorumaq tək bir qurumun işi deyil. Bu, dövlətin, medianın, mütəxəssisin və tamaşaçının ortaq məsuliyyətidir. Televiziya isə bu işdə ən güclü vasitələrdən biridir.

Ölkə Prezidenti cənab İlham Əliyev qətiyyətlə hər birimizi ana dilimizin saflığının qorunması uğrunda mübarizəyə çağırdı. Çünki dil bizim mədəni yaddaşımızdır. Bu yaddaşın qorunması isə media nümayəndələrinin və audiovizual mediada çalışanların məsuliyyətidir.

***Xatirə HÜSEYNOVA,***
***BDU-nun yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, dosent***

*I Türkoloji Qurultay – 100*

# AMEA-da tarixi Bakı məclisinin yubileyinə həsr edilən beynəlxalq elmi konfrans keçiriləcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında"kı 22 oktyabr 2025-ci il tarixli sərəncamı eyni tarixi köklərə və ortaq milli-mənəvi dəyərlərə malik olan xalqların yeni tarixi mərhələdəki qarşılıqlı əlaqələrinin genişləndirilməsi və daha da inkişaf etdirilməsi üçün böyük perspektivlər açır.**



Birinci Türkoloji Qurultayın tarixi dərslərinin öyrənilməsi, ənənələrinin yaşadılması və yeni nəsillərə çatdırılması müasir dövr üçün aktual və əhəmiyyətlidir.

Bu münasibətlə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyində, Elm və Təhsil Nazirliyində, Milli Elmlər Akademiyasında geniş tədbirlər planı hazırlanıb həyata keçirilir.

Fevralın 27-28-də Milli Elmlər Akademiyasının İstiqlaliyyət küçəsindəki Böyük Akt Zalında "Birinci Türkoloji Qurultayın qurucuları və dərsləri: tarix və müasirlik" mövzusunda beynəlxalq elmi konfrans keçiriləcəkdir.

Xatırladaq ki, 100 il əvvəl də Birinci Türkoloji Qurultay 26 fevral – 6 mart 1926-cı il tarixlərində bu binada keçirilmişdir.

Vaxtilə Birinci Türkoloji Qurultayda Azərbaycan, Türkiyə, Orta Asiya Respublikaları, Gürcüstan, Şimali Qafqaz, Tatarıstan, Başqırdıstan, Altay Muxtar Respublikalarından, Yakutiyadan 131 nəfər görkəmli dilçi, ədəbiyyatçı, tarixçi, etnoqraf alimlər, tanınmış şair və yazıçılar iştirak etmişlər. Birinci Türkoloji Qurultayda ortaq tarix, ədəbiyyat, terminologiya, orfoqrafiya, etnoqrafiya məsələləri müzakirə olunmuş, türkologiya elminin əsasları yaradılmışdır.

Qurultay 29 fevral 1926-cı il türk xalqları üçün vahid latın əlifbasının qəbul edilməsi haqqında tarixi qərar qəbul etmişdir.

Keçmiş sovet rejimi Birinci Türkoloji Qurultayın iştirakçılarını sürgünə göndərmiş, ölüm cəzasına məhkum etmişdir.

"Birinci Türkoloji Qurultayın qurucuları və dərsləri: tarix və müasirlik" mövzusunda beynəlxalq elmi konfrans bu məclisin türk xalqlarının elmi-mədəni inteqrasiyasına böyük töhfələr vermiş, latın qrafikasına keçid haqqında tarixi qərar çıxarmış, faciəli tale yaşamış görkəmli alimlərin, şair və yazıçıların xatirəsinə ehtiramın və onların böyük ideallarının XXI əsrdəki təntənəsinin ifadəsi olacaq.

Elmi konfransda Azərbaycandan başqa, Türkiyə, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan, Şimali Kipr Türk Cümhuriyyəti və digər ölkələrdən gələcək tanınmış elm adamlarının məruzələri dinləniləcəkdir.

İştirakçıların Xəzər Universitetində Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş simpoziumda da iştirak və çıxış etmələri nəzərdə tutulur.

***XQ***

*Böyükağa Mirzəzadə, Oqtay Sadıqzadə – 105*

# Milli rəngkarlığımızın sənət əkizləri

## *Zamanın sərt küləkləri onların istedadını soldura bilməmişdi*



**Böyükağa Mirzəzadə**



**Oqtay Sadıqzadə**

**Onda hələ 1939-cu il idi. Eyni ildə və gündə - 1921-ci il fevralın 21-də dünyaya göz açan, eyni gündə Bakıda, Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu bitirən 2 gənc deyə-gülə küçəyə çıxmışdı. Biri Böyükağa Mirzəzadə, digəri Oqtay Sadıqzadə idi.**

Ad-soyadları hələlik heç nə deməsə də, arzu qanadlarında pərvaz edirdilər. Moskvada təhsillərini davam etdirmək, gözəl əsərlər yaradıb dünya muzeylərində sərgiləməklə bağlı planlarından danışırdılar. Hər ikisinin gözləri gülürdü. Qarşılarında geniş üfüqlərin açılacağına şübhələri yox idi. Yanlarından ötən hər kəs küləyin gur tellərini daradığı bəxtəvər oğlanlara baxıb həsəd aparırdı.

Amma gənc rəssamların fərəhli anları uzun çəkmədi, necə deyərlər, fələk onların saydığını saymadı. Həyat hər ikisini çətin sınaqlara çəkdi. Doğrudur, Böyükağa Moskva Dövlət Rəssamlıq İnstitutuna daxil oldu, Mikayıl Abdullayevlə bir kursda oxudu. Lakin İkinci Dünya müharibəsinin başlanması səbəbindən təhsilini davam etdirə bilməyib Bakıya qayıtdı (sonralar Azərbaycan Dövlət İncəsənət İnstitutunda təhsil aldı). Oqtay isə daha böyük bəlaya düşdü. O, yazıçı Seyid Hüseynin və şairə Ümgülsümün (Məhəmmədəmin Rəsulzadənin əmisi qızı) övladı olduğuna görə 1941-ci ildə repressiyaya məruz qalmış ailənin nümayəndəsi, "xalq düşməni"nin oğlu kimi Altay vilayətinə sürgün olundu, 5 il olmazın zülm çəkdi.

Yaxşı ki, çətinliklərə baxmayaraq, gənc fırça ustalarının yaradıcılıq şövqü azalmadı və hər ikisi Azərbaycanın tanınmış rəssamı kimi tanındı. Bir qədər gec də olsa, Oqtay Moskva Dövlət Rəssamlıq İnstitutunu bitirdi. Sonralar o da, Böyükağa da yaratdıqları möhtəşəm sənət əsərlərinə görə Əməkdar incəsənət xadimi və Xalq rəssamı fəxri adlarına layiq görüldülər. Orden və medallarla təltif edildilər. Prezidentin fərdi təqaüdçüsü oldular.

Azərbaycan Dövlət mükafatı laureatı, professor Böyükağa Mirzəzadə Bakının Fatmayı kəndində doğulub. O, böyük Azərbaycan rəssamı Əzim Əzimzadənin rəhbərliyi ilə boyakarlıq sənətinin əsaslarını dərindən mənimsəyib. Əmək fəaliyyətinə Rəssamlıq Texnikumunun müəllimi kimi başlayıb. Ömrünün son günlərinədək pedaqoji fəaliyyətlə məşğul olub. İncəsənət İnstitutunda kafedra müdiri və Azərbaycan Rəssamlıq Akademiyasının professoru, yaradıcılıq emalatxanasının rəhbəri vəzifələrində çalışıb və milli rəssamlıq məktəbinin inkişafına layiqli töhfələr verib. Rəssamın yetirmələri sırasından xeyli tanınmış sənətkar çıxıb.

Böyükağa Mirzəzadənin rəngkarlıq, qrafika, səhnəqrafiya rəssamlığı və digər janrlarda, müxtəlif mövzularda yaratdığı əsərlər qiymətli sənət nümunələri kimi rəssamlıq tariximizi zənginləşdirib. Bu əsərlər Azərbaycan Dövlət İncəsənət Muzeyi və Nizami adına Ədəbiyyat Muzeyinin, eləcə də digər sənət məbədgahlarının daimi ekspozisiyalarını bəzəyir. Azərbaycan torpağının füsunkar gözəllikləri və təbii sərvətləri, soydaşlarımızın əmək hünərləri sənətkara ilham verib. Onun natürmort, tablo və lövhələri yüksək emosional təsir qüvvəsi ilə seçilir, insanı doğma vətəni və onun təbiətini sevməyə çağırır. Bu əsərlər təkrarolunmaz milli koloriti ilə səciyyələnərək, nəsillərin estetik tərbiyəsində böyük rol oynayır.

Rəssamın tarixi abidələrimizi əks etdirən tabloları seyrçilərə milli qürur hissi aşılayır. O, portret janrında da ustalıqla boyakarlıq əsərləri yaradıb. Tarixi şəxsiyyətlərin və müasirlərinin iç dünyasını və xidmətlərini dolğun əks etdirə bilib. Azərbaycan incəsənət ustalarının silsilə portretləri isə onun yaradıcılığında ayrı bir mərhələdir. Böyükağa Mirzəzadə teatr rəssamı kimi də səmərəli fəaliyyət göstərib, 20-yə yaxın tamaşa üçün yaratdığı dekorasiyaları mütəxəssislər yüksək qiymətləndiriblər.

Milli incəsənətimizin dünyada tanınmasında onun mühüm xidmətləri olub. Əsərləri xarici ölkələrin sərgi salonlarında və rəsm qalereyalarında uğurla nümayiş etdirilib, sənətsevərləri heyrətə gətirib. Sevimli peşəsinin "böyük ağa"sı – Böyükağa Mirzəzadə 2007-ci ildə, 87 yaşında işıqlı dünyaya əlvida deyib.

Xalq rəssamı, Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Oqtay Sadıqzadə isə təbiətin dilbər guşəsi Xızıda anadan olub. Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrinin ailəsində, yaradıcı mühitdə böyüməsi onun gələcək sənətkar taleyini müəyyənləşdirib. Bir müddət şeir də yazıb, amma rənglər dünyası onu ağuşuna daha bərk sıxıb. İlk rəsm əsərləri ilə sənətşünasların diqqətini çəkib.

Sürgündən Bakıya qayıtdıqdan sonra kitab qrafikası ilə məşğul olmağa başlayan Oqtay bu sahədə nəzərəçarpacaq uğurlar qazanıb. "Azərnəşr"in bədii redaktoru kimi Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinə çəkdiyi illüstrasiyalarla gözəl kitab qrafikası nümunələri yaradıb. Ünlü söz ustalarının əsərlərinin dərin emosional təsir gücünə malik obrazlarını layiqincə canlandırıb.

Oqtay Sadıqzadə tematik tablo, kompozisiya və portret janrlarında çəkdiyi əsərləri ilə şöhrət qazanaraq çox keçmədən çağdaş Azərbaycan incəsənətinin inkişafında xüsusi xidmətləri ilə seçilən fırça ustasına çevrilib. Sənətkarın çeşidli janrlarda yaratdığı boyakarlıq və qrafika əsərləri zaman çərçivəsinə sığmayıb, təsvir formalarının sadəliyi və rəngarəngliyi ilə fərqlənərək incəsənət tariximizdə özünəməxsus yer tutub.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin, Azərbaycan Milli Tarixi Muzeyinin, Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Səməd Vurğun və Bülbülün ev-muzeylərinin tərtibatında Oqtay Sadıqzadənin əsərlərinə xüsusi yer verilib. Boyakarın Azərbaycan xalqının görkəmli şəxsiyyətlərinin portretlərindən ibarət rəsmlər qalereyası koloriti və səlisliyi ilə səciyyələnir, milli mədəniyyətimizə dərin hörmət aşılayır. Onun təkrarolunmaz obrazları, kompozisiya üsullarının müxtəlifliyi və rəngkarlıq həllinin mükəmməlliyi ilə seçilən "Nizami Gəncəvi və dünya mədəniyyəti" adlı monumental silsilə əsərləri, Qətran Təbrizinin, Xurşidbanu Natəvanın portretləri, "1937-ci il repressiyasının qurbanları" tablosu və "Hüseyn Cavidin aləmi" triptixi bu qəbildəndir.

Sənətkarın əsərləri Azərbaycan Dövlət İncəsənət Muzeyində, eləcə də Moskvadakı Tretyakov Qalereyası kimi mötəbər mədəniyyət mərkəzində nümayiş etdirilib, Amerika Birləşmiş Ştatları, Almaniya, Kanada, İsrail və digər ölkələrdəki şəxsi kolleksiyalarda saxlanılır.

Azərbaycanda müasir rəssamlıq məktəbinin təşəkkülü və inkişafında Oqtay Sadıqzadənin böyük xidmətləri var. O, pedaqoji sahədə səmərəli fəaliyyət göstərməklə özünün zəngin bilik və təcrübəsini gənc rəssamlar nəslinin yetişdirilməsi işinə həsr edib.

Oqtay Sadıqzadənin yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilib. Təsviri sənətin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülüb. Ona və ömür-gün dostu - Xalq rəssamı Elmira Şahtaxtinskayaya həsr olunmuş "İncəsənətin qüvvəti" adlı sənədli film keşməkeşli zirvə yolunun təsirli hekayətidir.

Böyükağa Mirzəzadə ilə vida mərasimində Oqtay Sadıqzadə ona "Hələlik, qardaşım!" demişdi. Dostundan sonra cəmi 7 il yaşadı və 2014-cü ildə onların ruhları əbədi olaraq qovuşdu.

***Əli NƏCƏFXANLI***
***XQ***

*Təqvim yada salır*

# Bizi deyib gəlmiş dahi

## *Cəlil Məmmədquluzadə yeni tariximizin müdrik Molla Nəsrəddini idi*



**120 il bundan əvvəl - 1906-cı il aprelin 7-də "Molla Nəsrəddin" jurnalının nəşrinə başlayanda o, "Sizi deyib gəlmişəm..." demişdi. Bizi deyib çıxmışdı zamanın yolçuluğuna: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!".**

O zaman bizi deyib gəlmiş Azərbaycan yazıçısı dramaturq, jurnalist, ictimai xadim, tənqidi realist ədəbi cərəyanın, ilk mənzum alleqorik dram əsərinin, yeni tipli ictimai satiranın yaradıcısı, "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi və ideya rəhbəri, Azərbaycan ədəbiyyatında kiçik hekayənin böyük ustadı, qüdrətli yazıçı Cəlil Məmmədqulu oğlu Məmmədquluzadə idi.

Cəlil Məmmədquluzadə haqqında ümummilli lider Heydər Əliyevin dəyərli fikirləri vardır: "Cəlil Məmmədquluzadə çoxşaxəli yaradıcılığı ilə, əsərləri, maarifçiliyi ilə, elə o dövrdə "Molla Nəsrəddin" jurnalı ilə və başqa fəaliyyəti ilə təkrarolunmaz şəxsiyyətdir. Ümumiyyətlə, ədəbiyyatda, elmdə tarix boyu insanların iki-üç əsrdən sonra bir-birinə bənzərliyi var. Amma Cəlil Məmmədquluzadəyə nə ondan əvvəlki, nə də ondan sonrakı dahi insanlar bənzəyiblər. Onun öz siması var. Onun öz siması da Azərbaycan xalqının inkişafı üçün dəyərli xidmətlər göstərmişdir".

Cəlil Məmmədquluzadə 157 il əvvəl Naxçıvan şəhərində kiçik tacir Məmmədqulu bəyin ocağında dünyaya göz açıb. Nə yaxşı ki, Azərbaycan xalqının taleyində, Azərbaycan ədəbiyyatında belə bir şəxsiyyətin izi qaldı. O şəxsiyyət ki, onu Naxçıvan torpağı bəxş etdi bu vətənə. Və tarix Mirzə Cəlildən uzaqlaşdıqca o da Naxçıvana yaxınlaşdı: "Yenə millətlər içərisində məni şöhrətə mindirən mənim bu müqəddəs vətənim olacaq ki, onun adı Naxçıvandır".

"Molla Nəsrəddin"in satira aeroplanı Kəlkəttə, İstanbul, Qroznı, Krasnovodsk, Kislovodsk, Orenburq, Aşqabad, Tehran və digər şəhərlərin, Azərbaycanda isə, demək olar ki, hər bir regionun üzərindən keçsə də yendirdiyi satira "desantları"nın sayına görə Naxçıvan bəlkə də birinci idi.

1922-1927-ci illərin "Molla Nəsrəddin" jurnalını vərəqlədikcə, Naxçıvandan və bölgələrindən yazan "Vahid", "Mığ-mığ", "Yetim", "Təyyarə", "Xəstə", "Avara", "Məyus", "Məza", "Xox", "Heyf", "Bacıoğlu" və digər ləqəbli imza sahiblərinin həqiqi kimliyinin aşkarlanmasında tədqiqatçılar bir sıra çətinliklərlə üzləşirlər. Şübhəsiz, yeni nəsillər üçün böyük əhəmiyyət kəsb edən o fədakar şəxslərin dəqiqləşməsi, onların ictimaiyyətə tanıdılması çox önəmlidir. Çünki bu insanlar ölkənin ən çətin anlarında öz mübariz fəaliyyətləri ilə bir məktəb, bir örnək, bir ideal yarada bilmişlər.

Onların mövzu dairəsi olduqca genişdir. İdarəetmədə süründürməçilik, dövlət malını mənimsəmə, icra orqanlarında rüşvətxorluq, rabitə, təhsil, səhiyyə, mədəniyyət sistemindəki gerilik, hələ kökü kəsilməmiş, tərəqqiyə mane olan köhnəlik qalıqları, bir sözlə, cəmiyyətdəki kəsir və nöqsanlar "Molla Nəsrəddin"in Naxçıvan müxbirlərinin tənqid hədəfləri idi.

"Molla Nəsrəddin" jurnalının 19 noyabr 1922-ci il tarixli 3-cü sayında bildirilir ki, "Naxçıvan duzdağının duzunu həkimlər Naxçıvan əhalisi üçün müzür tapıblar, çünki axır vaxtlarda naxçıvanlılar arasında əmələ gələn şeytançılıq azarını həkimlər Naxçıvan duzunda görürlər. Bu səbəbə duzdağdan çıxan duzun cəmisi vaqona dolub məlum deyil hara gedir və əhali duzsuz qalıb nə qədər yalvarırlarsa, həkimlər bir dizə qədər əhaliyə vermirlər. Naxçıvan cümhuriyyətinin vüzərası İrandan Naxçıvana duz gətirmək barəsində böyük tədbirlər tökməkdədirlər".

Duzlaq idarəsində eksklüziv müsahibədə vurğulanıb ki, təzə ildə fəhlələrə indiki kimi edilən fəna rəftarlar ortadan götürüləcəkdir. Mədən müdirlərinin piyaniskalıq ilə deyil, iş və istehsalatı artırmaq işinə diqqət yetiriləcəkdir. Duz mədənlərini təftiş etmək məqsədilə tez-tez Bakıdan Naxçıvana gəlib çoxlu paralar alan müfəttişlərin sayı ixtisar olunacaqdır. Ümumiyyətlə, izafi xərclərin əskilməsinə böyük ümid vardır.

1924-cü ildəki 12-ci nömrədə "Naxçıvanlı" adlı müəllifdən "şad" xəbər var: "Molla əmi! Yazıb soruşmuşdun ki, Naxçıvanın işi nə təhərdir. Naxçıvandan heç nigaran qalma! Hər iş yerindədir. Şeyx Kərimi necə görmüşdün genə həman kefindədir. Bolşeviklərdən qaçıb Təbrizə getmişdi, yenə qayıdıbdır, haman saqqal, haman rəng, həna öz qərarındadır, şəhərdə səlamətlikdir".

33-cü nömrədə "Yazan deyiləm" adlı müxbir Şərur poçt idarəsinin müdirindən yazmayacağını bildirir. Baxmayaraq ki, müdir poçt xidmətçiləri ilə yaxşı rəftar etmir. Saat üçdən idarəni bağlayıb vağzala obedə gedir. Müxbir deyir ki, bunları yazsam, müdir onu padsud verər. Çünki belə halların şahididir. Məsələn, o gün poçt xidmətçilərindən birini "Şərq qapısı"nda tənqid etmişdilər. O da müxbiri məhkəməyə verib. Göz gördüyündən qorxar. Odur ki, belə halları yazan deyiləm (Amma göründüyü kimi, müdirin enini qoyub uzununa ağlayıb).

Jurnalın 15 yanvar 1927-ci il tarixli 3-cü nömrəsində "Təyyarə" ləqəbli müxbir satira təyyarəsini Naxçıvan Ədliyyə Komissarlığına yendirir və Azərbaycan Ədliyyə Komissarlığı tərəfindən Naxçıvan Ədliyyə Komissarlığına ayrılmış 500 manatın taleyi ilə maraqlanır. Hansı ki, bu vəsait ədliyyə işçiləri hazırlamaq üçün azmüddətli kursların təşkilinə sərf olunmalıydı. Müxbir araşdırmasından məlum olur ki, Naxçıvan komissarı kursun açılmasını artıq bilib və məzkur məbləği özü götürüb xərcləyib. Üstəlik, komissarlıq üçün alınan mebel, yəni sandalya, miz, şkaf və bu kimi şeyləri evinə aparıb. Səbəbi də budur ki, komissar evdə də hökumət işi gördüyündən həmin işlər hökumət stolu üzərində ifa edilməlidir.

"Təyyarə" bunu da vurğulayır: "Eh... nə deyim. Naxçıvan başıbəlalı olduğundan buranın işçilərinin də başları bəladan xilas olmayır. Yazıq işçilər! Məzlum işçilər... Molla əmi, Sən imanın sən bunlara yardım et. Mənim bunlara yazığım gəlir".

Jurnal yazır ki, Naxçıvanda səhiyyədən ümidini üzən insanlar çarə üçün pir və ziyarətgahların şəfasına ümid bəsləyirdilər. Bu mənada, şərurluların da müalicə üçün həkim dava-dərmanına ehtiyacı yoxdur. Çünki Şərur dairəsinin Parçı kəndində qədimdən bir imamzadə vardır ki, kəramilə məşhurdur. Ziyarət mövsümündə Şərur dairəsinin 62 para kəndlərindən buraya minlərlə çarəsiz insan ziyarətə gəlir. İmamzadənin şəfayi-batinindən kəndlilərin hər dərdinə dərman olur.

Cəhalətin tənqidi "Yengicədən" başlığı ilə "Avara"nın həmin nömrədəki digər yazısında xüsusi yer tutur. Həmin yazıda Şərur dairəsinin mollalarının Yengicə kəndinə toplaşaraq mərsiyə demək üçün kəndləri bölüşdürdüklərindən bəhs olunur. Qərara alınıb ki, Molla Cəlil ağa cavan olduğu üçün ona Qarxun, Məhəmməd Sabur, Aralıq kəndləri verilsin. O kəndlərin alçısı da, toxanı da bu ağanındır. Yalnız bir Alışar kəndi Seyid Mir Cəlal üçün verilmişdir.

"Avara", həmçinin xəbər verir ki, Şərurda rövzəxan az olduğundan Hacı Şeyx Həbib ağa müsəlmanların ehtiyacını ödəməkdən ötrü Muğanlı-Şəhriyar-Kürdkəndi və Kürdçülü kəndlərini podrata götürmüşdür. Ağa indidən hazırlıq işləri üçün yorğa yeriyən madyan almışdır ki, kəndlərə özünü tez yetirə bilsin (№25).

Jurnalın 38-ci nömrəsində dəstəsinin atamanı naxçıvanlı Mirəqilin fərasətindən bəhs olunur. Cəddinə qurban olduğumun oğlu çox böyük hünərvərdir. Seyidlər igid olarlar, daha bu dərəcədə yox. Ağanın oğlunun hər şeydən başı çıxdığı kimi siyasətdən də çıxır. "Naxçıvanlı" xahiş edir ki, şəhər inzibati idarəsi hələ bu gədəyə dəyməsin, yazıqdır, təzə fəaliyyətə başlayır.

Jurnalda Ordubadın ictimai-siyasi və mədəni mühiti jurnalada digər bölgələrə nisbətən daha çox işıqlandırılıb. 20-ci nömrədə Ordubad xəstəxanasının işçiləri and içirlər ki, bundan sonra axşamlar xəstələrlə qumar oynamasınlar, çünki xəstələr də bu oyunu öyrənər.

Ordubadda gənc köylü məktəbinin müəllimləri də usta sayıla bilər. Amma dərs deməklə yox, nərd oynamaqla. Belə ki, nərdin zərbindən gecələr leyli tələbələr yata bilməzmiş. Bu dairədə ən usta zər atanları bu məktəb yetirib .

"Xox" 9-cu nömrədə bir hadisəni qələmə alıb. Keçmiş mülkədar indi şura xidmətçisidir. Nahar vaxtı çayxanaya gələn Ordubad ipək zavodunun fəhlələrinin çay və qəlyanpulunu ödəyir. Sən demə, qabaqdan seçkilər gəlir, keçmiş mülkədar səs qazanmaq üçün belə səxavətlənib. Amma seçicilər də az bilmir, kişinin çörəyini yeyib başqasına səs verirlər.

Jurnalın "Yetim" ləqəbli müxbiri məhsuldarlığı ilə diqqət çəkir. Müəllifin dediyinə görə, neçə illərdir ki, qəzetlərdə yazırlar ki, filan kooperativ qulluqçusu, yaxud filan xidmətçi idarənin bu qədər pulunu yeyib dağıdıb. Rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə tədbirləri bir səmərə vermir. Nə qədər tutasan, nə qədər doldurasan türməyə. Təzə gələn də uzağı bir ilə səbir eləyib ikinci il girişir idarənin pullarına. "Yetim" məsləhət görür ki, beləl追ərini türməyə bassalar, Ordubadda adam qalmaz, çünki xırda yerdir, əhalisi azdır. Yaxşısı budur ki, bir adamı ki vəzifəyə təyin eləyirlər, əvvəlcə gətirsinlər Ordubadda Hacı Məhəmmədin üstünə, dua yazdırıb ağzını bağlatdırsınlar ki, idarənin pul-parasını yeyib tələf eləməsin. Çünki Hacının bu işdə zəngin səriştəsi var. Belə ki, qurd ağzı duası oxumaqla qonşusu Səfərin itmiş qoyunlarını qurdun ağzından o qoruyub. Səfər də sabahısı günü qoyunlarını sağ-salamatca öz samanlığında tapıb.

Müxbir bu sınanmış metodun bütün idarələrdə tətbiqini məsləhət görür. Əmin edir ki, o zaman idarə müdiri qazamat təhlükəsindən qurtular və ailəsi başsız qalmaz (22 yanvar 1927, №4).

"Gözümü açıb bu dünyanı qaranlıq görmüşəm". Cəlil Məmmədquluzadənin "Xatiratım"ı belə başlasa da, o bu dünyada işığın qələbəsi üçün çox şey etdi. Buna görə ruhumuzun yaddaşında hər zaman diridir. Bizi deyib gələn ədib, üçüncü əsrdəki yaşın mübarək!

Sizi deyib gəlmişdik, Mirzə! Gəldik və Sizə olan məhəbbəti, ehtiramı bir daha yaxından gördük. Gördük ki, satirik jurnalistikamızın bayraqdarı, qüdrətli sənətkarı, ictimai xadim kimi yaddaşlarda həmişəlik qalmısan, ustad! Ruhun şad olsun...

***Hüseyn ƏSGƏROV,***
***yazıçı-publisist***

*Silahımız qələmimizdir*

# Mənəvi dəyərlərə dayaq olan söz savaşçısı

**Sevilən yazıçı, publisist və muğamşünas, Əməkdar mədəniyyət işçisi Mustafa Çəmənli Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsində məndən bir kurs yuxarıda oxuyub. Fakültəmizdə təhsil alanların sayı az olduğu üçün hamı bir-birini yaxşı tanıyırdı. Universiteti bitirəndən sonra da tələbə yoldaşlarımız arasında sıx əlaqələr əksər hallarda dostluq və qardaşlıq səviyyəsinə yüksəlirdi.**



Mustafa Çəmənli həm tələbəlik, həm də sonrakı dönəmdə mənim üçün əziz, doğma insan olub və belə olaraq qalır. O unudulmaz günlərdə özülü qoyulan səmimi münasibətlərimiz, xoşbəxtlikdən, bu gün də eyni həssasiyyətlə, qarşılıqlı hörmət və inam əsasında davam edir. Ondan hələ heç bir tələbə yoldaşı zərrə qədər inciməyib. Uğurlarına isə hər birimiz öz uğurumuz kimi sevinmişik.

Onun Qarabağ hadisələrinin ağır, gərgin dönəmində qələmə aldığı, Qarabağ xanlığının, Şuşa kimi şəhərin əsasını qoyan Pənahəli xanın həyatı, düşüncələri və mübarizəsi təsvir olunan “Xallı gürzə” tarixi romanını, milli qəhrəmanlar - Asif Məhərrəmova və Mübariz İbrahimova həsr etdiyi “Fred Asif” və “Mübariz” sənədli povestlərini sevə-sevə oxumuşam.

Mustafa Çəmənlinin Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə nəşr olunan (2008) “Leyli və Məcnun” – 100 il səhnədə” bədii sənədli ensiklopediyası, milli mədəniyyətimizin bir çox ünlü simalarından bəhs edən “Sənət hekayələri” (2014) kitablarını mütaliə etmək mənə böyük zövq verib. Onun ürəkağrısı ilə yazdığı “Ruhların üsyanı”, “Üçyaşlı əsir” povestlərini, nəhayət, yazıçının son illərdə qələmə aldığı Səfəvi dövlətinin tarixindən bəhs edən “Ölüm mələyi” tarixi romanını da oxuyub təsirlənmişəm.

Mustafa Çəmənli nəsr yaradıcılığı ilə paralel Qarabağın təkrarsız muğam mühitinin incəlikləri, eləcə də bu ölməz sənətin korifeyləri barədə bir-birindən dəyərli kitablar yazıb. Onun “Muğam dünyasının Xanı”, Xalq artisti Şövkət Ələkbərovaya həsr olunan “Oxu, gözəl”, “Nəğməli xatirələr”, “Mənsuriyyə harayı”, “Əhməd Ağdamski”, “Şərq musiqisinin incisi” (Seyid Şuşinskidən bəhs olunur – red.) kimi bədii monoqrafik kitabları diqqətəlayiqdir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Azərbaycan və ingilis dillərində çap edilmiş “Arif Babayev – 70”, “Habil Əliyev – 80”, “Əlibaba Məmmədov – 80”, “Ağaxan Abdullayev – 60”, “Canəli Əkbərov – 70” kitab-albomları bədii tərtibinə, estetik görünüşünə, poliqrafik göstəricilərinə görə kitabçılıq tariximizdə nümunəvi nəşrlərdəndir.

...Xatirələr məni yenidən onu həyatda ilk dəfə gördüyüm günlərə – 1973-cü ilin sentyabrına aparır. Yadımdadır, jurnalistika fakültəsinin II kursunda oxuyan Mustafa qarayanız, ucaboy, enlikürək bir gənc idi. Ünsiyyətə çox açıq idi, ilk baxışdan saf, səmimi və mehriban insan təsiri bağışlayırdı. Sanki yüz illərin dostları idik. Bizimlə görüşərkən simasında xoş, xəfif bir təbəssüm yaranırdı və bu təbəssüm onu hər birimizə çox doğmalaşdırmışdı.

O illərdən yarım əsrdən çox keçməsinə baxmayaraq, daxilindəki saflığı, səmimiyyət və mehribanlığı qoruyub saxlaya bilib. Sayılıb-seçilən, şöhrətli yazıçı kimi tanınanda belə, onun söhbət və düşüncələrində milli-mənəvi dəyərlərimizə uyğun olmayan baxış, ifadə, hətta bir göz günahı belə duyub hiss etməmişəm. Ağayanalığı, şəxsiyyətinin bütövlüyü, yüksək əxlaqı onun çoxşaxəli, zəngin yaradıcılığına da sirayət edib.

Qətiyyətlə deyə bilərəm ki, Mustafa Çəmənlini milli ruhlu görkəmli yazıçılar nəslinin – Mirzə İbrahimov, Süleyman Rəhimov, Sabir Əhmədov və b. böyük ədiblərin davamçılarından hesab etmək olar. Onun parlaq qələmindən çıxan çox sayda hekayə, povest və romanlara bu müqəddəs torpağı ana vətənə çevirən ulu babalarımızın ruhu hopub. Mustafa Çəmənli kimi yüksək mənəviyyatlı yaradıcı ziyalılar təkcə özləri, ailələri, doğmaları və yaxınları üçün deyil, bütün cəmiyyət üçün bir saflıq, təmizlik və insanlıq örnəyidir. Bu missiyanı axıradək davam etdirmək yüksək alicənablıq və müdriklik tələb edir. Xoşbəxtlikdən o, bunu bacarır!

Mustafa Çəmənli gələn ilin sentyabrında ömrünün 80-ci pilləsinə qədəm qoyacaq. O, bu quş qanadlı illəri qiymətli saatlarını, günlərini fövtə vermədən yazıb-yaratmaqla arxada qoyub. Bütün yaradıcılığı boyu daim axtarıb, arayıb, yeni söz, yeni fikir ortaya qoymağa çalışıb və buna əksər hallarda nail olub. Mustafa qəlbinin hökmü ilə yaradıb, səsini bəyənmədiyi, sənəti olmayan müğənnilər barədə bir kəlmə belə yazmayıb.

Ölkə səviyyəsində yubileyləri keçirilən Seyid İmadəddin Nəsimi, Xurşidbanu Natəvan, Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid, görkəmli qazax şairi Abay Kunanbayev və digər ünlü sənətkarlar haqqında, 44 günlük savaşdan sonra şəhid və qazilərə həsr etdiyi “Bir daha yüksələn bayraq” albom-kitablarını çap etdirib. Onu da qeyd edim ki, bu, bayraq haqqında ilk bədii ensiklopedik kitabdır.

Mustafa Çəmənli Dövlət Filarmoniyasında, Opera və Balet Teatrında, Beynəlxalq Muğam Mərkəzində (BMM) dəfələrlə müqtədir xanəndələrin yaradıcılıq yoluna həsr olunmuş ədəbi-musiqili gecələrin aparıcısı olub. Həmin unudulmaz gecələrdə onu dinləmək hamı kimi mənə də xüsusi zövq yaşadıb. Düşünürəm ki, bu sahədə ona rəqib yoxdur, varsa da, çox azdır. Məni narahat edən bir məqam da var: niyə o öz ardıcıllarını yetişdirməyib? Düzü, bu sualı ona verməyə ürək etməmişəm.

Ötən il bir ılıq aprel gecəsi BMM-də Xalq artisti Yaqub Məmmədovun anadan olmasının 95-ci ildönümünə həsr olunmuş ədəbi-musiqili gecədə onun aparıcılıq məharətinə bir daha heyran qaldım. Yaqub haqqında elə sadə, səmimi, eyni zamanda, çox dəyərli sözlər dedi ki, salondakıların hər birinin ruhu təzələndi. Söylədi ki, “Qarabağ muğam ifaçılıq sənətinin Xan Şuşinskisi, Cabbar Qaryağdıoğlusu, Mütəllim Mütəllimovu var. Amma Yaqub da Yaqubdu da!”.

Buradakı “da” ədatı o qədər yerində və kövrək bir vurğu ilə səsləndi ki, tamaşaçılar bu səmimi sözlərdən cuşa gələrək salonu sürəkli alqışa qərq etdilər. Aparıcı belə bir məqamı da qeyd etdi ki, o, heç vaxt Yaqubun mahnı və muğamlarını dinləməkdən yorulmayıb. Sonra kövrək, pıçıltılı səslə əlavə etdi: “Məgər Yaqubun səsindən doymaq olar?!”. Yerlərdən əks-sədalar eşidildi: “Olmaz, olmaz!”. Aparıcı sarı simə toxunub gecəni duyğusal notlarla başa çatdırdı. Mən zaldan çıxanda ürəyimdə keçmiş tələbə yoldaşıma dəfələrlə “əhsən!” - dedim.

Bir müddət əvvəl isə yenidən BMM-də Mustafa Çəmənlinin aparıcılığı ilə “Sona bülbüllər”in əvəzsiz ifaçısı Qədir Rüstəmovun anadan olmasının 90-cı ildönümü ilə əlaqədar ədəbi-musiqili gecə təşkil olunmuşdu. Bu dəfə də aparıcılığı ona həvalə etmişdilər. Mustafa müəllim yenə tamam başqa bir nöqtədən mətləb üzərinə gəldi və Qədir sənəti ilə bağlı elə incə və maraqlı məqamlara toxundu ki, söz sərrafı kimi tanınan yazıçı Seyran Səxavət səhnəyə dəvət olunanda “Muğamın dərin bilicisi olan Mustafa Çəmənlidən sonra çıxış etməyin çətin olduğunu” etiraf etdi.

Mustafa Çəmənli böyük ədəbiyyata jurnalistikadan gəlib. O, universitetin jurnalistika fakültəsinə daxil olana qədər Mingəçevirdəki zavodların birində qəlibçi işləyib, sonra uzaq Kalininqradda hərbi xidmətdə olub, daha sonra yenə bir müddət istehsalatda çalışmalı olub. Jurnalistika fakültəsində ona çox bilikli, sevimli pedaqoqlar dərs deyiblər. Universiteti bitirdikdən sonra uzun illər o dövrdə yenicə açılmış “Yazıçı” nəşriyyatında müxtəlif vəzifələrdə çalışıb, sonra Azərbaycan Respublikası Dövlət Mətbuat Komitəsi sədrinin əmri ilə “Gənclik” nəşriyyatına baş redaktor vəzifəsinə təyin olunub. Düz 14 il bu məsul vəzifədə çalışıb.

Bu illər ərzində ölkəmizdə kitabçılığa dəyərli töhfələr verib, onlarla, yüzlərlə bədii və publisistik kitabın redaktoru olub. Hazırda “Təhsil” nəşriyyatında əmək fəaliyyətini davam etdirən Mustafa Çəmənli bir ilkə imza atıb. Belə ki, təcrübəli naşir həmkarları arasında ilk dəfə “Nəşriyyatlarda keçən ömrüm” adlı xatirələrini yazaraq “Ürəyimdən kimlər keçdi” adı ilə çap etdirib.

Sonda bu fikri qeyd etməyi özümə borc bilirəm ki, Mustafa Çəmənlinin yaradıcılığı və şəxsiyyəti daim bir-birini tamamlayıb. Qələm, yazıçılıq peşəsi onun üçün əqidə, həyat kredosudur. O, bu dəyərlərə heç vaxt naxələf çıxmayıb. Bəli, Mustafa Çəmənli bütün varlığı, parlaq istedadı, mənəviyyatı, əxlaqı ilə xalqına, millətinə, Azərbaycan mədəniyyətinə uzun illər sədaqətlə xidmət edib. Hörmətli qələm dostumuzun bəxtinə, taleyinə yazılan bu ilahi missiyanı bundan sonra da şərəf və ləyaqətlə davam etdirəcəyinə zərrə qədər şübhə etmirəm.

***Məsaim ABDULLAYEV***
***XQ***

*21 Fevral Beynəlxalq Ana Dili Günüdür*

# Jurnalistika canlı ana dili məktəbidir

**Azərbaycan dilinin saflığının qorunmasında çap mətbuatı çox mühüm bir platformadır. Qəzetlər, jurnallar və digər nəşrlər, dilin qrammatika və üslub qaydalarına hər zaman əməl edib, səhvsiz yazı qaydalarını və doğru ifadələri təşviq etmişdir. Mətbuat, dilin saflığını qorumaq üçün aşağıdakı məsələlərə daim diqqət yetirmişdir.**




Dilin doğru və zəngin şəkildə istifadəsini təmin etmək üçün çap mətbuatı gündəlik olaraq nümunələr təqdim edir. Həm qəzetlər, həm jurnallar, həm də kitablar, dilin düzgün yazılışını və qrammatik qaydalara riayət edilməsini təşviq edir. Mətbuat orqanları doğru yazılış qaydalarına riayət etməklə oxuculara dilin düzgün istifadəsini göstərir.

Azərbaycan dilinin zənginliyini göstərən nümunələr, xüsusən ədəbi və elmi yazılar vasitəsilə dilin gözəlliyini və təbiiliyini qoruyur. Bundan əlavə, müxtəlif yazı qaydalarının (məsələn, böyük hərflərlə yazılan sözlər, nöqtə-vergül istifadəsi, şəkilçilərin düzgün tətbiqi) mətbuatda göstərilməsi dilin təmizliyini və düzgünlüyünü oxucuya diqtə edir.

Bu gün Azərbaycanda dilin saflığının qorunmasında ən vacib məsələlərdən biri xarici sözlərin və ifadələrin düzgün istifadə edilməsidir. Çap mətbuatı, xüsusilə qəzetlər və jurnallar, bir tərəfdən bu sözlərin yerli qarşılıqlarını təqdim etməklə, digər tərəfdən isə oxucuları təmiz dil istifadəsinə yönəldir. Xarici terminlərə qarşı mübarizə aparır və onların əvəzində Azərbaycan dilindəki uyğun ifadələrə diqqət çəkir. Yeni sözlər və ifadələr təklif edərək dilin canlı və müasir tələblərə uyğun olmasına kömək edir.

Çap mətbuatı 150 ildir ki, maarifləndirmə işləri aparır, həm də dilin saflığını qorumağa yönəlik təşəbbüslər həyata keçirilir. Ötən dövrlərdəki çap mediasına nəzər salsaq bunu aydın görərik. Zaman-zaman ziyalılarımız, dilçi alimlərimiz, eləcə də jurnalistlərimiz mətbuat orqanlarında dilin düzgün istifadəsi, qrammatika səhvləri və onların qarşısının alınması barədə məqalələr çap ediblər. Bu nəşrlərdə, həmçinin oxuculara düzgün danışıq və yazı üslubları barədə məlumat verilib. Çap mətbuatında Azərbaycan dilinin qorunması üçün hüquqi mühitin yaradılması, dövlətin dil siyasətinin dəstəklənməsi və həyata keçirilməsi ilə bağlı məlumatlar dərc edilib.

Azərbaycan dili yalnız dil məsələsi deyil, həm də milli kimliyin və mədəniyyətin bir hissəsidir. Çap mətbuatının bu sahədəki rolu çox vacibdir, çünki jurnallar və qəzetlər ədəbiyyatımızın, poeziyamızın təbliğində mühüm rol oynayır. Bu vasitə ilə Azərbaycan dilinin təbii gözəllikləri və zənginliyi oxuculara təqdim olunur.

Azərbaycan dilinin qorunması yalnız dilin özünün qorunması deyil, eyni zamanda, xalqın adət-ənənələrinin, mədəni irsinin də qorunması deməkdir. Bu baxımdan, çap mətbuatı Azərbaycan mədəniyyətinin və milli kimliyinin qorunmasında mühüm rol oynayır.

Çap mətbuatı elektron media və internetin genişlənməsinə baxmayaraq, dilin saflığının qorunmasına hələ də mühüm təsir göstərir. Çap mətbuatı, yerli və beynəlxalq səviyyədə Azərbaycan dilinin tətbiqinə daha çox diqqət yetirir. Məsələn, böyük beynəlxalq tədbirlərdə, konfranslarda və toplantılarda Azərbaycan dilində yayımlanan materiallar milli dilin beynəlxalq səviyyədə tanınmasını təmin edir.

Mətbuat həm də vətəndaş cəmiyyətinin dil istifadəsinə təsir edir. Bütün bu təşəbbüslər sayəsində dilə qarşı olan maraq artır. Çap mətbuatında dilin saflığı barədə maarifləndirmə işləri həm gənclər, həm də yaşlı nəsil arasında geniş yayılır. Mətbuat orqanlarında dilin müxtəlif sahələrdə istifadəsi və müxtəlif mövzularda danışıq formaları təqdim edilərək oxucuların daha geniş dil biliklərinə malik olmaları təmin edilir.

Çap mətbuatı yalnız dilin qorunmasında deyil, həm də onun zənginləşdirilməsində, yeni terminologiyanın yaradılmasında və dil siyasətinin təbliğində önəmli bir vasitədir. Bu sahədəki işlərin davamlı şəkildə gücləndirilməsi, görüləcək tədbirlər, dilin gələcəkdə də yaşaması və inkişaf etməsi üçün çox önəmlidir.

Mətbuat yalnız dilin qorunması deyil, həm də milli kimliyin, mədəniyyətin və təhsilin gücləndirilməsi baxımından da vacib bir rol oynayır. Bu, Azərbaycan dilinin gələcəkdə də saflığını qorumağa kömək edəcəkdir. Həm jurnalistlər, həm də mətbuat orqanları dilin düzgün istifadə olunması, zənginləşdirilməsi və qorunması üçün öz üzərlərinə böyük məsuliyyət götürməlidirlər.

***Elmira MEHDİYEVA,***
***Əməkdar mədəniyyət işçisi***

# Vitamin şəfa cövhəridir, amma…

## *Belə köməkçi vasitələrin özbaşına qəbulu əks nəticələr verir*

**Müasir dövrün ən böyük üstünlüklərindən olan sürətli informasiya axını, məlumat bolluğu bəzən yanlış yönəltmələrə yol açır. Son zamanlar sosial media platformalarında sağlamlıqla bağlı iddialı tövsiyələrin artması, vitaminlər, qida əlavələri və müxtəlif detoks çayların qəbulu bir növ vərdiş halını alıb.**

Rəqəmsal platformalarda tez-tez rast gəlinən “yorğunsunuzsa maqnezium qəbul edin”, “tez-tez xəstələnirsinizsə D vitamini için” və ya “saçınız tökülürsə, sink, yaxud dəmir çatışmazlığınız var” kimi məsləhətlər ilk baxışda faydalı görünsə də, bu elementlərin orqanizmdə çoxluğu sağlamlıqla bağlı geridönüşü olmayan problemlərə səbəb olur.

Günümüzdə bir çoxları peşəkar tibbi yardıma ehtiyac duymadan, özbaşına qida əlavələri qəbul etməyə meyillidir. Xüsusilə sosial şəbəkələrdəki populyar simaların və bloqçuların tərifləndikləri “möcüzəvi vasitələr” insanlarda vitaminlərin tamamilə zərərsiz olduğuna dair yanlış təsəvvür yaradır. Lakin unutmaq olmaz ki, insan orqanizmi sınaq laboratoriyası deyil. Müvafiq qan analizləri və mütəxəssis rəyi olmadan, sırf internetdəki fərdi rəylərə və ya reklam videolarına əsaslanaraq qəbul edilən hər bir preparat bədənin biokimyəvi balansını ciddi şəkildə poza bilər.

Mütəxəssislər xəbərdarlıq edirlər ki, vitaminlərin normadan artıq qəbulu xərçəng hüceyrələrinin stimullaşdırılmasından tutmuş, urolitiyaz və osteoporoza qədər bir çox xəstəliklərin inkişafına təkan verir. Bu baxımdan, istər böyüklərdə, istərsə də azyaşlılarda sağlamlığı qorumağın yolu ovuc-ovuc həblərdən deyil, laborator analizlərin nəticəsinə əsaslanan peşəkar həkim təyinatından keçir.

**Həkim-terapevt Nübar Xəlilova bildirdi ki, son zamanlar analiz vermədən və həkim tövsiyəsi olmadan vitamin qəbul edənlərin sayında artım müşahidə olunur:**



– Bəzi insanlar hesab edirlər ki, vitaminlərin çox qəbul olunmasının zərəri yoxdur. Lakin bu, yanlış yanaşmadır. Vitaminlər orqanizmdə mürəkkəb biokimyəvi və fermentativ prosesləri tənzimləyən aktiv maddələrdir. Onların qanda normadan artıq olması orqanizmin incə balansını pozaraq ciddi fəsadlara səbəb olur. Hər hansı vitamin çatışmazlığı müəyyən funksiyaların zəifləməsinə gətirib çıxardığı kimi, onun artıqlığı da toksiki təsir göstərərək hüceyrə və toxumaların zədələnməsi, daxili orqanların fəaliyyətinin pozulması ilə nəticələnir.



**Müsahibimiz nəzarətsiz istifadə edilən vitaminlərin bəzən onların çatışmazlığından daha ciddi problemlərə səbəb olduğunu söylədi:**

– Son dövrlər geniş yayılan D vitamini qəbulunda doza həddinin aşılması qanda kalsium miqdarını artıraraq hiperkalsemiya riski yaradır. Bu isə böyrəklərdə daşların yaranması, damarların kirəcləşməsi və ürək ritminin pozulması ilə nəticələnə bilər. Saç tökülməsinə qarşı tez-tez istifadə olunan A vitamininin artıqlığı qaraciyərdə toksiki təsir yaradır və sümüklərin kövrəkləşməsinə səbəb olur. Yüksək dozada qəbul edilən C vitamini mədə-bağırsaq traktında qıcıqlanma, ishal və böyrək daşlarının yaranma riskini artırır. Xüsusilə, B6 vitamininin uzun müddət normadan artıq istifadəsi sinir uclarının zədələnməsinə, yəni periferik neyropatiyaya yol açır.

**Mütəxəssis vitaminlərin bir-biri ilə qarşılıqlı təsirinə də toxundu:**

– Bəzi vitamin və mineralların eyni vaxtda qəbulu onların effektivliyini azaltmaqla yanaşı, həm də toksiki təsirlərin güclənməsinə səbəb ola bilər. Sosial mediada qeyri-peşəkar tövsiyələrə və ya “kiməsə yaxşı təsir edib” yanaşmasına əsaslanaraq əlavələr qəbul etmək sağlamlıq üçün risklidir. Hər bir insanın maddələr mübadiləsi, genetik xüsusiyyətləri və mövcud xroniki xəstəlikləri fərqlidir. Həkim hər hansı əlavəni təyin edərkən xəstənin yaşı, çəkisi ilə yanaşı, mövcud xəstəliklərini və qəbul etdiyi digər dərmanlarla uyğunluğunu nəzərə alır. Sağlamlıq təsadüfi məsləhətlərə deyil, laborator analizlərin nəticələrinə əsaslanan fərdi tibbi yanaşmaya etibar edilməlidir.

**Həkim əlavə etdi ki, vitaminlərin orqanizmdə normadan artıq toplanması müxtəlif klinik əlamətlərlə özünü göstərə bilər və bu siqnallar diqqətdən kənarda qalmamalı, ciddi qəbul olunmalıdır:**

– A vitamininin artıqlığı zamanı kəskin baş ağrıları, dərinin qabıq verməsi, saçların qırılması və qaraciyər nahiyəsində ağrılar müşahidə oluna bilər. D vitamininin toksiki dozası daimi susuzluq hissi, ürəkbulanma, qusma və qəbizliklə özünü göstərir ki, bu da qanda kalsium səviyyəsinin kritik həddə yüksəlməsinin göstəricisidir. E vitamininin normadan artıq qəbulu qanaxma riskini artırır və ümumi zəiflik yaradır. C vitamininin çox istifadəsi yuxusuzluq, böyrək sancıları və mədə nahiyəsində yanğı hissi ilə müşayiət olunur. B qrupu vitaminlərinin yüksək dozada qəbulu isə dəridə qaşıntılı səpkilər, əl və ayaqlarda keyimə hissi və taxikardiya ilə nəticələnə bilər. Belə hallarda vitamin qəbulu dayandırılmalı və dərhal həkimə müraciət edilməlidir.

**Nübar Xəlilova sonda vurğuladı ki, vitamin ehtiyacını qarşılamağın ən təhlükəsiz və effektiv yolu balanslaşdırılmış qidalanmadır:**

– Təbii qidalardan alınan vitaminlər orqanizm tərəfindən daha yaxşı mənimsənilir və toksiki yığılma riski yaratmır. Məsələn, C vitamini sitrus meyvələri, itburnu dəmləməsi və şirin bibərdə, A vitamini kök, balıq yağı və göyərtilərdə bol miqdardadır. Tam taxıllı məhsullar, paxlalılar və qoz-fındıq B qrupu vitaminləri ilə zəngindir. Dəmir çatışmazlığının qarşısını almaq üçün isə qırmızı ət və qarabaşaq mühüm əhəmiyyət daşıyır. Mövsümi meyvə və tərəvəzlərlə zəngin rəngarəng qida rasionu əslində ən güclü “multivitamin kompleksi”dir. Bioloji aktiv əlavələr (sintetik preparatlar) yalnız laboratoriya şəraitində təsdiq olunmuş çatışmazlıqlar zamanı və müvafiq həkim təyinatı ilə qəbul edilməlidir.

**Həkim-dietoloq Tutu Zeynalova da bildirdi ki, vitamin və qida əlavələri kor-koranə deyil, yalnız orqanizmin real ehtiyaclarına uyğun qəbul edilməlidir:**



– İnsan orqanizminin normal fizioloji funksiyalarını dəstəkləmək, immun sistemini gücləndirmək və metabolik proseslərin davamlılığını təmin etmək məqsədilə müəyyən vitamin və mineralların qəbulu zəruridir. Bununla belə, hər bir qida əlavəsinin istifadəsi fərdi tələbatlara əsaslanmalı və yalnız konkret ehtiyac yarandıqda tətbiq olunmalıdır. Eyni yanaşma bütün qida əlavələrinə şamil olunur. Məsələn, D vitamini, gündəlik profilaktik dozalarda qəbul oluna bilər. Lakin bu vitaminin yüksək dozada kütləvi istifadəsi, xüsusilə qeyri-mütəxəssislər tərəfindən tövsiyə olunması məqsədəuyğun deyil. Yüksək dozalı müalicə yalnız laborator analizlərin nəticələrinə əsasən, tibbi zərurət yarandıqda həkim tərəfindən təyin edilməlidir. Vitamin D ilə yanaşı, maqnezium və omeqa-3 kimi qida əlavələrinin də profilaktik məqsədlərlə gündəlik dozalarda qəbul edilməsi mümkündür. Lakin bu preparatların istifadəsi və təbliği mütəxəssis rəyinə əsaslanmalı, bloger tövsiyələri ilə deyil, yalnız həkim məsləhəti ilə həyata keçirilməlidir.

**Müsahibimiz son illərin “trendinə” çevrilmiş detoks çayları ilə bağlı mövzuya da toxunaraq, insanların bu vasitələrlə aldadıldıqlarını bildirdi:**

– İnsan orqanizmi əslində mükəmməl mexanizmdir və hər hansı kənar müdaxilə olmadan belə təbii olaraq özü-özünü təmizləmək qabiliyyətinə malikdir. Yaradan bizə bunun üçün xüsusi orqanlar – bağırsaq, dəri, böyrək və qaraciyər bəxş edib ki, onlar bədənin “detoks” funksiyasını kifayət qədər yerinə yetirir. Məhz bu təbii potensiala görə, orqanizmə xaricdən süni detoks vasitələrinin və ya tərkibi məlum olmayan bəzi çayların daxil edilməsinə ehtiyac yoxdur. Geniş reklam olunan bu növ məhsullar əslində orqanizmi iddia edildiyi kimi toksinlərdən təmizləmir, onlar sadəcə bədəndəki maye balansını pozaraq suyu sürətlə kənarlaşdırır və bağırsaqların boşalma prosesini süni şəkildə sürətləndirirlər. Nəticədə, insanlar tərəziyə çıxdıqda çəkilərinin azaldığını görüb bədənlərinin təmizləndiyini və artıq çəkidən qurtulduqlarını düşünürlər, əslində isə itirdikləri yağ və ya toksin deyil, yalnız sudur.

Ekspert rəylərindən də göründüyü kimi, sağlamlıq məqsədilə, lakin nəzarətsiz qəbul edilən hər bir həb orqanizmin bioloji tarazlığını pozaraq həyatımızı təhlükəyə ata bilər. Unutmaq olmaz ki, uzunömürlülüyün və güclü immunitetin sirri süni preparatlarda deyil, balanslaşdırılmış qidalanma və düzgün həyat tərzindədir. Təbiətin bizə bəxş etdiyi mövsümi meyvə-tərəvəzlər, tam taxıllı məhsullar və müntəzəm fiziki aktivlik bədənimizin ehtiyac duyduğu enerjini ən təhlükəsiz yolla təmin edən real mənbələrdir. Odur ki, sağlamlığı qorumaq üçün rəqəmsal platformalardakı təsadüfi məsləhətlərə deyil, elmi faktlara əsaslanan fərdi yanaşmaya, keyfiyyətli yuxu rejiminə və təbii qidalara üstünlük verilməlidir.

***Elenora HƏSƏNOVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 34 (31003) 21 fevral 2026-cı il, şənbə

İDMAN

## Misli Premyer Liqasında XXI tur

**Dünən Misli Premyer Liqasında XXI tura start verilib. İlk oyun günündə iki qarşılaşma baş tutub. Əvvəlcə "Zirə" səfərdə "Turan Tovuz"un qonağı olub.**




"Azərsun Arena" keçirilən oyunda birinci hissənin 9-cu dəqiqəsində tovuzlulardan Filip Ozobiç, 19-cu dəqiqədə isə Jorge Silva qonaqların qapısına yol tapıb. Görüş bu hesabla da başa çatıb. Bu qələbə sayəsində xallarını 37-yə çatdıran tovuzlular üçüncü yerə yüksəlib. 35 xalı olan "Zirə" isə 4-cü pillədə qərarlaşıb.

Günün ikinci matçı Sumqayıtda baş tutub. Mehdi Hüseynzadə adına şəhər stadionunda baş tutan "Sumqayıt" – "Qəbələ" qarşılaşması 0:0 hesabı ilə başa çatıb.

Turun digər oyunları fevralın 21 və 22-də keçiriləcək. Bu gün Yevlax şəhər stadionunda meydan sahibləri "Araz-Naxçıvan"ı, bazar günü isə Quba OİK stadionunda "İmişli" "Şamaxı"nı, "Sabah" isə Bank Respublika Arenada "Kəpəz"i qəbul edəcək. Şənbə günü Palms Sports Arenada keçirilməsi nəzərdə tutulan "Neftçi"–"Qarabağ" oyunu Azərbaycanı Çempionlar Liqasında təmsil edən ağdamlıların rəsmi müraciəti və Bakı təmsilçisinin razılığı ilə təxirə salınıb.

## Paraüzgüçülərimiz Belarusda 5 medal qazanıb

**Paraüzgüçülərimiz Belarus Açıq Paraüzgüçülük Kubokunun ilk iki günündə 2 qızıl, 2 gümüş və 1 bürünc medal qazanıblar.**



Milli Paralimpiya Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, 19-21 fevral tarixlərində Belarusun Brest şəhərində keçirilən Açıq Paraüzgüçülük Kubokunda ikinci yarış günü yekunlaşıb. Turnirdə ölkəmizi S12 kateqoriyasında Raman Salei və Səlim Məmmədov, S10 kateqoriyasında isə yeniyetmə paraüzgüçülərimiz Əli Vəliyev ilə Murad Məmmədov təmsil edir.

Paralimpiya çempionumuz Raman Salei 100 metr məsafəyə sərbəst üzmə üsulunda 55.29 nəticə ilə, 100 metr məsafəyə "butterfly" (kəpənək) üzmə üsulunda isə 59.17 nəticə ilə iki qızıl medal qazanıb.

Yeniyetmə paralimpiyaçımız Əli Vəliyev 100 metr məsafəyə "butterfly" (kəpənək) üzmə üsulunda 1:03.10 nəticə ilə gümüş, 200 metr məsafəyə qarışıq üzmə üsulunda 2:34.77 nəticə ilə daha bir gümüş, 400 metr məsafəyə sərbəst üzmə üsulunda isə 4:52.14 nəticə ilə bürünc medal qazanıb.

## Yenilənmiş cüdo qaydaları



**Azərbaycan Cüdo Federasiyasının (ACF) Hakimlər Komitəsinin təşkilatçılığı ilə növbəti nəzəri seminar keçirilib.**

Qurumun mətbuat xidmətindən verilən məlumata görə, seminar ACF prezidentinin müşaviri Natiq Bağırov, qurumun hakimlər üzrə meneceri, A kateqoriyalı beynəlxalq dərəcəli hakim Mətin Rəhimli və Hakimlər Komitəsinin üzvü Abbas Şahverdiyevin rəhbərliyi ilə təşkil olunub.

Təlimdə Beynəlxalq Cüdo Federasiyasının bu il yenilənmiş "İdman və təşkilatçılıq qaydaları" kitabı üzrə müddəalar və qaydalar ətrafında geniş müzakirələr aparılıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Ruhumuzun beşiyi*

# Ürəyi qızdıran Vətən ocağının istisidir

**Uca dağlar qoynunda yerləşən kəndimizin yazı da, qışı da gözəldir. Zirvəli dağlardan kəndimizə baxanda adamın gözləri qarşısında al-əlvan boyalı təbii bir tablo canlanır. Bir-birinə söykənən zirvəli dağlar sanki kəndin əbədi keşikçiləridir. Kəndin bir tərəfində isə zümrüd donlu meşələr göz işlədikcə uzanır. Faxralı kəndinin şöhrəti təkcə təbii gözəlliyində deyil, həm də mənəvi gözəlliyindədir.**



Qışında buludlar qar gətirir, yazında bağçalar bar. Gecənin tər vaxtında qar yağanda göy üzü qaralır, qara torpağın üzü ağarır. Torpaq qar nuruna bələnir. Üzüağ olmuş, qara torpaq – ana torpaq üzümüzü ağ eyləyir. Ay işığının altında qara bürünmüş ana torpağın hüsnü də, ona tamaşa edən insanın əhvalı da gözəl olur. Qarlı qış gecələrinin öz yaraşığı, öz gözəlliyi var. Kənd evimizdə odun sobasının üstündə qaynayan çayın avazı, çöllərin təmiz havası, dağ nəfəsi nəfəsimizə qarışır. Sobamızda qaynayan qazanımızla yanaşı, samovarımız da tüstülənir.

Kəndin qarlı qış günlərində tam sakitlik olanda vaxt yavaş gedir. Həyatin ortasında qar kürüməkdən başqa hansı işdən yapışmaq olar? Sevincdən atılıb-düşən uşaqların əllərindən qar adam düzəltməkdən və qartopu oynamaqdan başqa nə iş gəlir ki?

Evlərin odunda - ocağında babalarımızın yurd eşqi var. Odun sobasının istisi, evlərin damından ərşə bülənd olan tüstüsü qəlbə fərəh gətirir. Uşaqlıq illərindən yaddaşıma həkk olunmuş o gözəllik sanki bir nağıl, bir ülvi xəyaldır. Torpaq ağ kürkünə bürünəndə qar altından nərgizlər, bənövşələr, qarəmən gülləri baş qaldırırdı. Ay nuru qar üstə oynayanda xarlanırdı. Bir gecənin hüsnü min dastan olurdu. Hərdən düşünürəm ki, Tanrıdan bir ömür rüsxət ola, şəhər tünlüyündən uzaqlaşıb ömrümün sonunadək yenə o yerlərdə yaşayam.

Deyirəm nə yaxşı ki, Ay nuruna bələnmiş göyümüz var, nə yaxşı ki, bu yaşımızda canda heyimiz var. Bu yaxşılar insanı sevgiyə, yaşamağa səsləyir. İnsan hər xoş keçən anı özü üçün bir səadət bilir, ömürdən ötən yaxşı günləri unutmur. Kim bilmir ki, o günlər bir də geri dönən deyil. Amma canında ilahi hissi, ilahi zövqü olanları ürəyi ötən günlərə qaytarır.

Ürək Vətən ocağının istisinə qızınır. Vətən ocağının istisi insanın camalına və ömrünə eşq nuru bəxş edir. Ötən illərin qış gecələrində ocağımızın başına saçları qar kimi ağappaq, şərəflə qocalan qohumlar, qonşular cəm olardı. Uşaq olsam da, onların nəfəs közərtilərini öz nəfəsim kimi hiss edirdim. Uzun illər onların nəfəsi də bir-birinə həmdəm oldu. Söz sözün, nəfəs nəfəsin köməyi oldu. Ona görə də mənəviyyat mücəssəməsi kimi, nə əldən düşən, nə də tökülüb itən qocalar kimi köçdülər bu dünyadan.

Ocağımızın başında dağ vüqarlı, Qorqud nəfəsli kişilərin könül rübabı dilə gələr, dastan dünyası varaq-varaq açılardı. Sonra da gün-güzəran söhbətləri dan üzünədək uzanardı.

Çilləli fevral ayının 10-cu günü idi... Söz vaxtına çəkər. Evimizdə şirin "çillə qarpızı" kəsilərdi. O şirin xatirələrin işığında düşüncələrə dalmışdım. Borçalıdan gələn zəng məni düşəncələrdən ayırdı. Zəng edən əmimoğlu–uşaqlıq dostum Qara idi. Biz də öz çağımızın maraqlı uşaqları olmuşuq. İndi də könüldən-könülə, ruhdan-ruha görünən yollarımız bizi bir-birimizdən ayırmır. O, kənddə yaşayır, mən şəhərdə. O, el-obanın yolunu-yolağasını, dağını-daşını məndən yaxşı tanıyır. Keçmiş adət-ənənələrimizin rəng çalarlarını daha yaxşı görür.

Biz çox məqamlarda dünyaya el-oba gözü ilə baxırıq. Baxışlarımız zəmanəmizlə uyğun gəlsə də, keçmiş adət-ənənələrimizin qorunub saxlanmasında kənd adamı şəhər adamını üstələyir.

...Hal-əhvaldan sonra uşaqlıq dostum dedi ki, odun sobasının qırağında oturmuşuq. Xızır Peyğəmbərin şərəfinə Xıdır Nəbi bayramını qeyd edirik. Onun sözü-söhbəti yenə məni çəkib uşaqlıq illərimizə apardı.

Yaxşı yadımdadır, biz uşaq olanda kəndimizdə Xıdır Nəbi bayramı hər evdə, hər ailədə qeyd olunurdu. Xıdır Nəbi yazın, yaşıllığın müjdəçisidir. Bu bayram tarixən Kiçik Çillədə, Novruz bayramından 40 gün əvvəl qeyd olunurdu.

Azərbaycan mifologiyasına görə, Xıdır Nəbi bayramının Xızır İlyasın şərəfinə keçirilməsi ilə bağlı rəvayətlər var. Tanrı İlyasa suyun, Xızıra isə yaşıllığın hamisi vəzifəsini verib. İki qardaş evlərə bərəkət, xəstələrə şəfa vermək, onların istək və arzularını yerinə yetirmək üçün yer üzündə görünürlər.

Xıdır Nəbi bayramından söz açanda ilk yadıma düşən və gözlərim önünə gələn anamın "qovud" düzəltməyi olur. Anam əvvəlcə buğdanı yağın içində qovurardı. Sonra da onu kirkirədə üyüdüb, buğda ununa şərbət qatıb "qovud" düzəldərdi. "Qovud" o zaman üçün də, bu zaman üçün də adama şirin və maraqlı gəlir. Hər şirinlikdə el adətlərimizin gözəl örnəkləri var. Malik olduğumuz gözəl adət-ənənələrimizi, milli dəyərlərimizi qoruyub saxlamaq ümdə borcumuzdur. Mənəviyyatımızın əvəzedilməz dəyərlərini heç vaxt unutmuruq.

Bu dəyərlərin hər nişanəsi, hər zərrəsi, hər ahəngi Vətən ocağının istisi olub canımıza, qanımıza hopub. Xalqımızın istiqanlılığı, qonaqpərvərliyi də bu istilikdən qaynaqlanır. Milli-mənəvi irsimizi gənc nəslə gözəl aşılamalıyıq. Ötən günlərimiz ötüb, gələn günlərimiz bir-birindən daha da gözəl olsun!

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

# 40 neftçi tələbəyə təqaüd ayrılıb





**Neft və Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi Bakı Ali Neft Məktəbinin təhsildə fərqlənən tələbələrinə təqaüd ayırıb. Proqramı neftçi tələbələrin şəxsi və akademik inkişafını dəstəkləmək, onlara təhsildə daha yüksək nəticələr əldə etməyə stimul yaratmaq məqsədi daşıyır.**

Layihənin təqdimatı ilə bağlı ali məktəbdə keçirilən mərasimdə rektor Elmar Qasımov tələbələrə göstərilən diqqət və qayğıya görə həmkarlar ittifaqının rəhbərliyinə təşəkkürünü bildirib, belə təşəbbüslərin təhsil alan gənclərin həyatında önəmini vurğulayıb.

Sonra 40 tələbəyə təqaüd kartı verilib..

*Q.YUSİFOĞLU*
*XQ*

**Ləğvetmə prosesində olan "Bakışəhərtikintimexanikləşdirmə" ASC səhmdarlarının nəzərinə!**

"Bakışəhərtikintimexanikləşdirmə" ASC səhmdarlarının növbəti ümumi yığıncağı 6 aprel 2026-cı il saat 11:00-da keçiriləcəkdir.

Yığıncağın keçiriləcəyi ünvan: Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Mehmandarov küçəsi 37.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin ləğvetmə balansının təsdiq edilməsi.

**2.** Cəmiyyətin qalıq əmlakının (pul vəsaitinin) səhmdarlar arasında bölünməsi planını əks etdirən hesabatın təsdiqlənməsi.

**3.** Cəmiyyətə məxsus səhmlərin ləğv edilməsi və dövriyyədən çıxarılması.

**4.** Digər məsələ.

Səhmdarlar ümumi yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin iş günləri saat 13:00-dək tanış ola bilərlər.

**Əlaqə telefonu:** 050-334-02-90.

*Ləğvetmə komissiyasının sədri*

**"Bakı Teleqrafı" ASC səhmdarlarının nəzərinə!**

22 may 2026-cı il saat 11:00-da "Bakı Teleqrafı" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**İclasın gündəliyi:**

**1.** 2025-ci ilin yekunu üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı.

**2.** İdarə heyətinin üzvlərinin və sədrinin seçilməsi.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

İclasın keçiriləcəyi ünvan - Bakı şəhəri, Səbail rayonu, Ü.Hacıbəyov küçəsi 36. ("Azərpoçt" MMC-nin inzibati binasının 6-cı mərtəbəsi)

**Əlaqə telefonu:** (+99412) 493-52-15.

*"Bakı Teleqrafı" ASC-nin idarə heyəti*

**BİLDİRİŞ**

Ərizəçi "AECOM Exp Russia Limited" şirkətinin (poçt əlaqəsi üçün ünvan: Bakı şəhəri, Səbail rayonu, R.Rza küçəsi 15, mənzil 28-30) iflası haqqında iddia ərizəsi əsasında ləğv prosesində olan borclu "Xəzri Solutions" MMC-nin (VÖEN: 1400725191, hüquqi ünvanı: AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Nəriman Nərimanov prospekti 206, 466-cı məhəllə) iflası haqqında iş üzrə məhkəmə baxışı 24 fevral 2026-cı il saat 12:30-da hakim Fərid Hətəmzadənin sədrliyi ilə Bakı Kommersiya Məhkəməsinin binasında keçiriləcəkdir (işin nömrəsi: e-2-2(113)-10403/2025).

HAVA

# Bakıda dəyişkən buludlu, rayonlarda gecə və səhər duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Mülayim cənub-qərb küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 4-7, gündüz 14-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi 771 millimetr civə sütunundan 766 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 65-70 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7, gündüz 16-21, dağlarda gecə 0-4, gündüz 10-15 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

✓ *1977-ci ildə Ermənistan SSR-in Allahverdi rayon Ayrum kənd soveti tərəfindən İsmayılova Humay İsa qızının adına verilmiş doğum haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2942
SİFARİŞ 243
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00